www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11 dekabr 2015-ci il Cümə № 276 (6304) Qiyməti 40 qəpik

**Xəbər**

## Əfv fərmanı hazırlanır

yazısı səh.3-də

**Gündəm**

### "Günəşli" yatağında yangın da, axtarışlar da davam edir



Sosial şəbəkələrdə itkin düşənlərlə bağlı yazılanlar SOCAR tərəfindən etirazla qarşılanıb; general-polkovnik Kəmaləddin Heydərov və Elçin Quliyev hadisə yerində olublar

yazısı səh.4-də

### Qanunlar sərtləşdirilir, iqtidar böhrana hazırlaşır

yazısı səh.6-da

### ABŞ Qarabağ cəbhəsindəki gərginlikdən narahatdır

yazısı səh.11-də

### Cahangir Hacıyev üçün "əcəl zəngi" - 4 il əvvəl yazdıqlarımız...

yazısı səh.10-da

### Axtarışdakı şəxsin adı məlum oldu - "Akula Akif"

yazısı səh.10-da

### Hacı Məmmədov hüquq müdafiəçisi ilə görüşmək istəyir

yazısı səh.3-də

### Azərbaycan qazının Avropaya nəqlinə dair vacib saziş imzalandı

yazısı səh.9-da

### "Krediti olanlara şad xəbər" aranı qatdı, Mərkəzi Bank açıqlama verdi

yazısı səh.4-də

### Eldar Mahmudovun MTN təcridxanasındakı yasaqları ləğv olunub

yazısı səh.10-da

### Məşhur məhbus qadınlar- Leyladan Benazirədək...

yazısı səh.13-də

### Bazarlarda ən baha satılan qoz-fındıqdır

yazısı səh.15-də

### Azərbaycandan 9 milyard dollar çıxarılıb

yazısı səh.12-də

## Kreml Bakının Türkiyəyə verdiyi "nəfəsini" qapatmaq istəyir

# MOSKVA - ANKARA GƏRGİNLİYİ AZƏRBAYCANA SIÇRADI

Rusiya İctimai Palatasının sədr müavini Xəzərdən daşınan türk mallarının qarşısını almağa çağırdı; Azərbaycan hakimiyyətinin qardaş ölkəyə xüsusilə yüklərin daşınmasında göstərdiyi dəstək, Bakı-Aktau-Bakı istiqamətləri üzrə tarifləri aşağı salması Kreml bərk qıcıqlandırıb; şimal qonşumuz çalışır ki, ölkəmizin bu davada türklərə tərəf olmasını loyallaşdırsın...



yazısı səh.8-də

## Türkiyə ətrafında hərbi həlqə yaradılır - qorxulu gəlişmə

Qardaş ölkə ilə İsraillin yaxınlaşması üçün unikal fürsət yetişib; yəhudi dövləti Moskvadan qaz asılılığının aradan qalxmasında Ankaraya dəstəkçi ola bilər; İsrail-Türkiyə müttəfiqliyi Kremlin Ankara və Bakıya qarşı yeni təhlükəli planlarına qarşı çəkindirici amil rolunda...

yazısı səh.12-də



### Mütəllibova ağır cavablar - "Sən kimsən bədbəxt adam..?"

yazısı səh.7-də



*Vahid Əhmədov:*

### "2016 həm iqtisadi, həm siyasi cəhətdən təlatümlü il olacaq"

yazısı səh.5-də



*Sülhəddin Əkbər:*

### "Azərbaycan "NATO-dan kənar əsas müttəfiq statusu" almalıdır"

yazısı səh.9-da



## İlham Əliyev Çin lideri ilə görüşdü, sənədlər imzalandı

**Dekabrın 10-da Pekində Azərbaycan prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının sədri Si Cinpinin görüşü olub. Görüş geniş tərkibdə keçirilib. Dövlət başçıları görüşdə çıxış ediblər. Daha sonra Pekində Azərbaycan-Çin sənədlərinin imzalanması mərasimi olub. Həmçinin Çin Xalq Respublikasının sədri Si Cinpinin adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə rəsmi qəbul verilib.**

## Ölkədə torpaqlara vərəsəlik hüququnun müddəti azaldılır

**Ölkədə dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlara vərəsəlik hüququnun müddəti iki dəfə azaldılır. Dəyişikliyə görə, tikintiyə vərəsəlik hüququnun müddəti tərəflərin razılaşması ilə müəyyənləşdirilir, lakin xüsusi mülkiyyətdə olan torpaq sahələri üçün 99 ildən, dövlət və bələdiyyə mülkiyyətində olan torpaqlar üçün isə 49 ildən çox ola bilməz. Maddənin hazırda qüvvədə olan variantı isə belədir: "Tikintiyə vərəsəlik hüququnun müddəti tərəflərin razılaşması ilə müəyyənləşdirilir, lakin 99 ildən çox ola bilməz". Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub və dekabrın 18-də müzakirəyə çıxarılacaq.**

**Hüquqşünas Əkrəm Həsənov** məsələ ilə bağlı musavat.com-a bildirib ki, torpağa vərəsəlik Azərbaycanda tətbiq olunmur: "Bu, mülkiyyət hüququnda nəzərdə tutulub. Bununla bağlı qanun Avropadan, Almaniyadan götürülüb. Söhbət tikintiyə vərəsəlik hüququndan gedir. Bununla bağlı müddəalar Azərbaycanda heç vaxt istifadə edilməyib. Çünki müddəaları götürdüyümüz həmin ölkələrdə binaya, tikintiyə mülkiyyət hüququ ümumən mövcud deyil. Yəni mülkiyyət hüququ Avropada torpağa verilir. O torpağın üstündə nə varsa, bina, tikili, ev həmin torpağın mülkiyyətçisinindir. Həmin torpağın üstündə olan binaya başqa şəxsin istifadə hüququ ola bilər. O da həmin istifadə hüququnu vərəsəlik qaydasında başqa şəxsə verə bilər. İstifadə hüququ da ölən şəxsdən vərəsəyə keçə bilər. Yəni əslində məsələnin mənası budur. Xaricdə də müddət 99 ildir. Amma bəzən çox da olur. Bizdə o institut tətbiq edilmir. Binalara, mənzillərə, mülkiyyət hüququ ayrıcadır. Ona görə bizdə əslində o məsələ işləmir. Mənə belə gəlir ki, bu qanun layihəsini irəli sürənlər onun mahiyyətini başa düşmürlər. Başa düşmürlər ki, söhbət nədən gedir, əslində o maddələr harada istifadə olur? Dövlət və bələdiyyə vətəndaşla uzunmüddətli torpaqlar verir. Bunlar istəyirlər o 99 ili azaltsınlar. İstifadə üçün verilən müddəti azaldırlar, vəssalam. Burada məqsəd başqadır. Bunun nə vərəsəlik hüququna, nə mülkiyyət hüuqquna aidiyyatı yoxdur. Sadəcə, bunlar istəyirlər ki, vətəndaşa verilən dövlət və bələdiyyə torpağı üçün müddəti azaltsınlar. Bunun bu yolla edilməsini düzgün hesab etmirəm. Bütün dünyada bu institut belə qurulub ki, 99 illikdir".

❑ **RÖYA**

## Siqaret satışında yeni qadağalar gəlir

**Azərbaycana tütün və tütün məmulatlarının idxalı və ticarəti ilə bağlı yeni qadağaedici şərtlər müəyyənləşdirilir. Milli Məclisdən APA-ya verilən məlumata görə, bununla bağlı "Tütün və tütün məmulatı haqqında" qanuna əlavələr təklif edilir. Qanunun 14.3-cü (Hüquqi və fiziki şəxslər tərəfindən tütünün və tütün məmulatının idxalına aşağıdakı hallarda yol verilmir) və 15.3-cü (Tütünün və tütün məmulatının satışı aşağıdakı hallarda qadağan olunur) maddələrinə görə, tütün və tütün məmulatlarının idxalı və satışını şərtləndirən qadağalar sırasına daha bir bənd (tütün və ya tütün məmulatları genetik modifikasiya olunmuş bitkilərdən, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarından istifadə edilməklə istehsal olunduqda) əlavə olunur.**

Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub və dekabrın 18-də müzakirəyə çıxarılacaq.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Dörd aptek bağlandı

**Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi dərmanların keyfiyyətinə nəzarəti artırıb. Virtualaz.org saytı xəbər verir ki, bunu mərkəzin direktoru Murad Süleymanov bildirib.**



M.Süleymanov deyib ki, son zamanlar istehsalçı müəssisələrin GMP-inspeksiya yoxlamalarını aparmağa başlayıb: "Bu cür yoxlamalar mütəmadi olaraq aparılacaq, müəssisələrin GMP-inspeksiya planları hazırlanıb. Həmin plana əsasən ilk növbədə Azərbaycanda ilk dəfə dərman vasitələrinin dövlət qeydiyyatına alınması məqsədilə müraciət edən istehsalçıların və idxal zamanı dərman vasitələrinin keyfiyyətində normativ sənədlərlərin tələbləri ilə uyğunsuzluq aşkar edilmiş istehsalçıların yoxlanması nəzərdə tutulub. Bazara çıxarılmadan öncə dərman vasitəsinin keyfiyyətinin yoxlanılması da mühüm rol oynayır. Belə olan halda "Dərman vasitələri haqqında" qanuna görə, dərman vasitəsi ilkin olaraq dövlət qeydiyyatı prosedurundan keçməlidir. Yəni dərman vasitəsi qanunvericiliyə uyğun olaraq müvafiq ekspertizalardan keçirilərək dövlət qeydiyyatına alınır, preparata qeydiyyat vəsiqəsi verilir və Dərman Vasitələrinin Dövlət Reyestrinə salınır. Yalnız bundan sonra həmin preparatın ölkəyə idxalına və istifadəsinə icazə verilir".

Apteklərin fəaliyyətinə gəldikdə isə mərkəz rəhbəri bildirib ki, bu il 113 aptekdə reydlər aparılıb, 4 aptekin qanunsuz fəaliyyəti faktı aşkarlanıb. Bundan əlavə, qeydiyyatsız dərman vasitələrinin satışı, habelə reseptlə satışı aparılmalı olan dərman vasitələrini reseptsiz satan iki aptekin fəaliyyəti dayandırılıb, bir aptekin lisenziyası alınıb.

**Aparılan yoxlamalar nəticəsində əczaçılıq bazarından 835 adda 2874 qutu qeydiyyatsız və dövlət nəzarətindən keçməmiş dərman preparatları satışdan çıxarılıb.**



## Asim Mollazadə jurnalistləri mükafatlandırdı

**Demokratik İslahatlar Partiyası *(DİP)* "22 iyul - Milli Mətbuat Günü" münasibətilə Partiyanın təsis etdiyi "Həsən bəy Zərdabi və Nəcəf Nəcəfov ənənələrinin davamı və inkişafı uğrunda" mükafatı sahiblərinə təqdim edib. Təqdimat məqsədilə geçirilən görüşdə partiya sədri Asim Mollazadə qeyd edib ki, DİP bu mükafatı təsis etməklə cəmiyyətə azad və peşəkar medianın inkişafının önəmi ilə bağlı mesaj vermək istəyir.**

"Müstəqil və demokratik Azərbaycanın qurulmasında, inkişafında əsas yük jurnalistlərin üzərinə düşür. Azərbaycan jurnalistləri kifayət qədər çətin şərtlər altında çalışır və mediamızı inkişaf etdirirlər. Hesab edirik ki, ölkədəki hər kəsin, o cümlədən də, siyasi partiyaların mediaya dəstək verməsi vacibdir" - deyə millət vəkili bildirib.

Sonra o, müvafiq diplomları və mükafatı qaliblərə təqdim edib.

Xaqani Səfəroğlu (strateq.az ) - ictimai-siyasi mövzularda peşəkar məqalələrinə, Dilqəm Əhməd ("Gündəlik teleqraf" qəzetinin redaktoru) - Azərbaycanın milli-mədəni və ədəbiyyat tarixinə dair araşdırmalarına, Cəmilə Ələkbərova ("Exo" qəzeti) - sosial və humanitar sahədəki obyektiv yazılarına görə 2015-ci ilin mükafatını qazanıblar.

❑ **Cavid TURAN**

## «Bakcell» şəbəkəsinin üstünlüyü rəqəmlərdə əks olunur: Məlumat Mərkəzinə şəbəkə ilə bağlı edilən müraciətlərin sayı son bir il ərzində 61% azalıb

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti öz şəbəkəsini daha da təkmilləşdirmək, ölkənin ən dayanıqlı və ən yaxşı işləyən mobil rabitə şəbəkəsinə çevirmək üçün son illər ərzində bir sıra böyük layihəni uğurla həyata keçirib. Şəbəkənin yenilənməsi və unifikasiyası layihəsi çərçivəsində həyata keçirilən genişmiqyaslı işlər nəticəsində şirkət tərəfindən daha geniş əhatə dairəsi və daha yüksək ötürmə qabiliyyətinə malik etibarlı şəbəkə qurulub. Bununla yanaşı, şəbəkənin intellektual təhlili vasitəsilə müştəri şikayətlərinin həlli zamanı qabaqlayıcı tədbirlərin görülməsi, proaktiv aşkarlama və xidmət keyfiyyətinin artırılmasına yönələn Müştəri Təcrübəsinin İdarə Edilməsi Sistemi vasitəsilə əməliyyatların effektivliyinin artırılmasına nail olunub.**

**Bu isə öz növbəsində «Bakcell» abunəçilərinin yüksək səviyyəli mobil rabitə xidmətləri ilə təmin edilməsinə şərait yaratmış və müştəri məmnuniyyətini xeyli artırmışdır 2014-2015-ci illər üzrə şirkətin Məlumat Mərkəzinə daxil olan müraciətlərin təhlili göstərir ki, ötən il ilə müqayisədə şəbəkə ilə bağlı müraciətlərin sayı 61%, İnternetlə bağlı isə 72% azalmışdır.**

**"Məlumat Mərkəzinə şəbəkə ilə bağlı daxil olan zənglərin ciddi şəkildə azalması bir daha «Bakcell» şirkətinin qabaqcıl şəbəkəyə malik olmasını sübuta yetirir. Biz abunəçilərimizi daha üstün şəbəkə və müştəri təcrübəsi ilə təmin etmək üçün bütün səylərimizi birləşdiririk. Bununla yanaşı, Müştəri Xidmətləri və Texnoloji departamentlərinin əməkdaşları abunəçilərin şəbəkə ilə bağlı müraciətlərini operativ şəkildə araşdırırlar və mümkün qədər qısa müddət ərzində abunəçinin istəyini reallaşdırmaq üçün müvafiq tədbirlər görürlər. Bundan sonra müraciət edən şəxslə əlaqə saxlanılır və nəticə barədə məlumat verilir. Əminik ki, şirkətimizin şəbəkənin təkmilləşdirilməsi istiqamətində apardığı işlər özünü mükəmməl müştəri təcrübəsinin əldə edilməsi şəklində göstərəcək və növbəti il abunəçilərimizin şəbəkə ilə bağlı müraciətlərinin sayında daha çox azalma müşahidə edəcəyik", - deyə «Bakcell» şirkətinin müştəri xidmətləri üzrə baş direktoru Selda Korkmaz Bostancıoğlu (ttp://www.«Bakcell».com/az/management-team) bildirib.**

**Qeyd etmək istərdik ki, son 24 ay ərzində şirkət öz mobil rabitə şəbəkəsini müasirləşdirərək xüsusilə rayonlarda 3G baza stansiyalarının sayını 100% artırıb. Bu isə öz növbəsində şəbəkənin ötürücülük qabiliyyətini 72% gücləndirib, 3G şəbəkəsinin əhatə dairəsini genişləndirərək əhali üzrə 14% artıraraq 95.3%-ə, ərazi üzrə isə 27% artıraraq 75.9%-ə çatdırıb. «Bakcell» şirkəti üçün bölgələrdə əhatə dairəsinin genişləndirilməsi olduqca vacib olduğundan şirkət tərəfindən xüsusi olaraq kənd yerlərində şəbəkənin əhatə dairəsini genişləndirmək, penetrasiya göstəricilərini və müvafiq müştəri təcrübəsini yüksəltmək üçün baza stansiyalarının sayı artırılıb. Yüksək keyfiyyətli son nəsil data xidmətlərində istifadə olunan yüksək məlumatötürmə qabiliyyətini dəstəkləmək və abunəçilərə 3G DC-HSPA şəbəkəsində 42 Mbps qədər sürət, LTE-A şəbəkəsində isə 225 Mbps qədər sürət təmin etmək məqsədilə radiotezlik spektri ən optimal şəkildə yenidən təşkil və refarminq edilib.**

## Daha bir dövlət komitəsi ləğv edilir

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin ləğv edilməsi üçün islahatlar başlayıb.**

"Qafqazinfo"nun əldə etdiyi məlumata görə, artıq komitənin bir neçə alt qurumu ləğv edilib və çoxlu işçi ixtisar olunub. Son bir neçə ay ərzində komitənin 200-ə yaxın işçisi çıxarılıb. Təxminən 3-4 ay öncə başlayan islahatlarla komitənin "Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutu"nda, Aparata daxil olan şöbələrdə və digər Xidmət İdarələrində 100-ə yaxın işçi vəzifəsindən azad olunub.

Komitənin daxilində olan "Təcrübə-Sınaq Mərkəzi"nin də son bir ay ərzində paytaxtda yerləşən idarəsindən 60-a yaxın, Gəncədəki şöbəsindən isə 20-ə yaxın işçi ixtisar edilib. Mərkəzin Sertifikat şöbəsi tamamilə ləğv edilib. Hazırda komitənin ləğv edilməsi istiqamətində işlər görülür. Komitəyə daxil olan idarələrin digər oxşar nazirliklərə birləşdiriləcəyi gözlənilir.

**Qeyd edək ki, bundan əvvəl Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi ləğv olunmuşdu.**

## İrəvandakı Göy məscid 99 illiyə İranın istifadəsinə verilib

**Ermənistan hökuməti dekabrın 10-da İrəvandakı Göy məscid və ona bitişik ərazilərin Ermənistana məxsus olması barədə qərar qəbul edib. APA-nın "news.am" saytına istinadən verdiyi xəbərə görə, məscid Ermənistanın tarixi və mədəni abidələri siyahısına salınacaq.**

Eyni zamanda, dövlət qeydiyyatından keçdikdən sonra məscidin 99 illiyə İran İslam Respublikasının istifadəsinə verilməsi ilə bağlı bu ölkənin Ermənistandakı səfirliyi ilə müqavilə imzalanacaq.

Məscidin binası İranın mədəniyyət mərkəzi kimi istifadə ediləcək.

Qeyd edək ki, Göy məscid İrəvanda yaşamış azərbaycanlılara məxsus olub.

Məscid 1766-ci ildə İrəvan xanı Hüseynəli Xanın əmri ilə tikilib və Azərbaycan memarlıq nümunələrindən biridir. Göy məscid İrəvan məscidləri içərisində ölçüsünə görə ən böyüyü və İrəvan şəhərinin mərkəzi came məscidi olub.

Çar dövründə İrəvanda azərbaycanlıların dini ibadətlərini etdikləri 8 məsciddən biri idi.

1995-2006-cı məscid İran tikinti şirkətlərinin köməyi ilə bərpa olunub və İranın Ermənistandakı mədəniyyət mərkəzlərindən birinə çevrilib.

## Azərbaycanlı müğənni mühacirətə gedib?

**Bir müddət əvvəl Məhəmməd Əmin Rəsulzadəyə mahnı həsr etdiyi üçün gündəmə gələn müğənni Qismət Məmmədzadə siyası sığınacaq alıb.**

"Qafqazinfo"ya daxil olan məlumata görə, müğənni mühacirət üçün Almaniyanı seçib.

Sənət yoldaşlarının sözlərinə görə, Qismət artıq bir neçə həftədir ki, Almaniyada yaşayır.

"Qafqazinfo" məlumatı dəqiqləşdirmək üçün müğənni ilə əlaqə saxlayıb. Qismət hazırda Almaniyada olduğunu təsdiqləyib. Amma müğənni sığınacaq almadığını bildirib.

Qeyd edək ki, Qismət sosial şəbəkədə telekanalların ona qadağa qoyduğunu yazmışdı.

YENİ MÜSAVAT
N 276 (6304) 11 dekabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Yunuslar azad olundu-sırada kimlərdir?

## Hüquq müdafiəçilərinin azadlığı buraxılması AŞ PA, ATƏT və Dövlət Departamenti müsbət qarşılandı; Yeni ildə əfvə ümidlər artıb

**Dekabrın 9-da Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunus bir ay öncə azadlığa buraxılan həyat yoldaşı Arif Yunusun ardından məhkəmə zalından azad edildi. Yunusların azadlığı Azərbaycan cəmiyyəti və dünya tərəfindən müsbət qarşılandı. Təsadüfi deyil ki, Avropanın öndə olan hüquq müdafiə təşkilatlarının əksəriyyəti bu hadisəyə dərhal münasibət bildirdilər.**

ABŞ Dövlət Departamentinin bəyanatında Yunusların azadlığı barədə məhkəmə qərarı müsbət dəyərləndirildi. Bəyanatda bu sözlər yer alır: "Biz Azərbaycan hökuməti və xalqı ilə əməkdaşlıq çərçivəsində əlaqələrimizin bütün sahələrinin, o cümlədən enerji, təhlükəsizlik, demokratiya və insan haqları sahələrinin inkişaf etdirilməsi üçün imkanlar axtaracağıq".

**AŞ PA-nın prezidenti Ann Brassör öz Twitter səhifəsində belə yazıb:** "Leyla Yunusun humanitar əsaslarla azadlığa buraxılmasını alqışlayıraq". **ATƏT-in direktoru Maykl Corc Link** də hüquq müdafiəçisinin səhhəti ilə bağlı azad edilməsini alqışlayıb: "Leyla Yunusun bu gün azadlığa buraxılması müsbət və çox humanist jestdir. DTİHB insan haqları ilə bağlı məsələlərdə Azərbaycan hakimiyyət nümayəndələri ilə konstruktiv müzakirələri davam etdirməyə hazırdır".

**Almaniyanın xarici işlər naziri Frank Valter Ştaynmayerin** bəyanatında deyilir: "Bu, mühüm humanitar addımdır. İndi Leyla Yunus və həyat yoldaşı Arif Yunus vacib olan tibbi müalicəni almalıdırlar".

**Avropa Şurasının baş katibi Tornbörn Yaqland** isə, Leyla Yunusun azadlığa buraxılmasından rahat olduğunu bildirib: "Mən indi ümid edirəm ki, o, tam bərpa olunacaq və bu ağır sınağı geridə qoyacaq. Həmçinin bu gün bizim fikrimiz Azərbaycanda azadlıqlarından məhrum edilmiş digər hüquq müdafiəçilərinin yanındadır".

Göründüyü kimi, Avropanın əksər hüquq təşkilatları qərardan məmnundurlar. Bu bəyanatlar L.Yunusun bir daha kiçik fiqur olmadığını, Avropada kifayət qədər böyük nüfuza sahib olduğunu sübut etdi. Bəzi ekspertlər bildirirlər ki, Yunusların azadlığa buraxılması Yeni ildə verilməsi gözlənilən əfvin daha çox siyasi məhbusa şamil olunacağının anonsudur. İndi hər kəsi bir sual düşündürür.

*Yunusların ardından sırada hansı siyasi məhbuslardır?*

**Politoloq Natiq Miri** bildirdi ki, Yunusların azad edilməsi hakimiyyətin yumşalması anlamına gəlməməlidir: "Hakimiyyət Yunusları həbs edərkən, onların cəmiyyət və dövlət üçün təhlükə törətmədiklərini yaxşı bilirdi. Onların həbsdə saxlanılması müəyyən mənada dərs vermək üçün idi. Doğrudur, onlara dəstək üçün Qərbdən ciddi təzyiqlər oldu. Avropa Birliyindən daha çox ABŞ-dan təzyiq gəldi. Burada Arif Yunusun ABŞ-da yaşayan qardaşının böyük təsiri oldu. Çünki onun Amerikanın nüfuzlu qurumları ilə yaxın əlaqələri var. Hesab edirəm ki, Türkiyə-Rusiya münasibətlərinin gərgin bir vaxtında, Rusiya daxilində bizə qarşı müsbət fikirlərin deyilmədiyi bir vaxtda Qərbin marağında olan Leyla Yunusun azadlığa buraxılması geosiyasi maraqlardan irəli gələn addım idi. Düşünürəm ki, çox ağıllı və zamanında atılmış addım idi. Bundan sonra xəstə qadını həbsdə saxlamaq hakimiyyət və dövlətə başucalığı gətirən deyildi. Leyla Yunusa görə Azərbaycanın Rusiya ilə münasibətlərinin mənfiyə doğru getdiyi bir vaxtda Qərbi küsdürməyə lüzum yox idi. Bu hadisələr Azərbaycanda istisna təşkil etməməlidir. Siyasi və vicdan məhbusu adı olan bütün siyasilər azad olunmalıdır. Təbii ki, bu prezidentin birbaşa təşəbbüsü ilə olmalıdır. Bu cür təşəbbüs edərsə, ilk növbədə cəmiyyətlə barışıq mühitinin yaranmasına yol açar. Digər tərəfdən Qərblə gərgin münasibətləri aradan qaldıra bilər".



**Səadət Bənəniyarlı: "Məhkəmə qərarını bəyənirik"**
**Elçin Qəmbərov: "Leyla xanım evində müalicəsini alır"**

Qeyd edək ki, dekabrın 8-də Əfv Komissiyasının geniş tərkibdə iclası keçirilib. İclasda quruma daxil olan müraciətlər araşdırılıb. Komissiyanın üzvü Məlahət İbrahimqızı bildirib ki, daxil olan müraciətlər araşdırılır və siyahı prezidentə təqdim olunacaq. O, hər bayramda ölkə başçısının bacardığı qədər əfv sərəncamı imzaladığını qeyd edib.

**Hüquq müdafiəçisi Səadət Bənəniyarlı** L.Yunusun azadlığa buraxılmasına olan sevincini gizlətmədi: "Məhkəmə qərarını bəyənirik. İşçi Qrupunda bu məsələ dəfələrlə müzakirə olunub. Leyla Yunusun azadlığa çıxması üçün çoxsaylı müraciətlərimiz olmuşdu. Onun barəsindəki həbs qərarının dəyişdirilməsini xahiş etmişdik. Qərara çox sevindik. Digərlərinin də azadlığa buraxılacaqlarına ümid edirik. Əgər Leyla xanımın səhhətinin xaricdə müalicəsi gündəmə gələrsə, biz onu dəstəkləyəcəyik".

Onu da xatırladaq ki, L.Yunus azadlığa buraxılarkən səhhətinin ağır olduğu hər kəsə aydın oldu. Tanınmaz şəklə düşən hüquq müdafiəçisi güclə yeriyirdi. Çox güman ki, onun müalicə olunmasına ciddi ehtiyac var. Lakin hüquq müdafiəçisinin xaricə getməsinə qadağa qoyulması hazırda narahatlıq doğurur.

**SDİ rəhbərinin vəkili Elçin Qəmbərov** qərarı qəbul edənlərə təşəkkür etdi: "Məhkəmə tam olaraq yekunlaşdı. Hazırda Leyla xanım evində müalicəsini alır. Onun müalicəsini necə davam etdirəcəyi barədə danışmaq tezdir".

**Sonda xatırladaq ki, Leyla Yunus 2014-cü ilin iyulun 31-də həbs edilmişdi. Onun həbsindən bir həftə sonra həyat yoldaşı Arif Yunus saxlanılmışdı. Leyla və Arif Yunuslar 2015-ci il avqustun 13-də Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 8 il yarım və 7 il müddətinə azadlıqdan məhrum edilmişdilər.**

❑ **Cavanşir ABBASLI**



# Tale Bağırovun yaxın tərəfdaşı tutuldu

**"Müsəlman Birliyi Hərəkatı"nın daha bir üzvü tutulub. Hüquq-mühafizə orqanlarından APA-ya verilən məlumata görə, "Müsəlman Birliyi Hərəkatı" adlı qurumun İdarə Heyətinin üzvü, ilahiyyatçı Fərhad Mirzə Bakının Binə qəsəbəsində saxlanılıb.**

O, Nardaran hadisələrində təqsirləndirilərək barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Fərhad Mirzə "Müsəlman Birliyi Hərəkatı"nın rəhbəri Taleh Bağırovun yaxın tərəfdaşı olub.

# Sabiq bankirin şikayəti təmin olunmadı

**Dekabrın 10-da Bakı Apelyasiya Məhkəməsində hakim Qədim Babayevin sədrliyi ilə Azərbaycan Beynəlxalq Bankının prezidenti Cahangir Hacıyevin həbsindən verilən apelyasiya şikayətinə baxılıb.**

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, qapalı keçən prosesdə sabiq bankirin şikayəti təmin olunmayıb.

Xatırladaq ki, C.Hacıyev Cinayət Məcəlləsinin 179.3.2 (külli-miqdarda mənimsəmə)və 308.2-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə; ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham olunaraq həbs edilib.

Onun barəsində Nərimanov Rayon Məhkəməsinin qərarı ilə 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

# Hacı Məmmədov hüquq müdafiəçisi ilə görüşmək istəyir

## Elmira Behbudova: "Komitəyə belə bir müraciət olmayıb"

**Milli Təhlükəsizlik Nazirliyinin(MTN) İstintaq Təcridxanasında saxlanılan Hacı Məmmədov İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədr müavini Elmira Behbudova ilə görüşmək istəyir. Bu haqda redaksiyamıza daxil olan məlumatda deyilir ki, H.Məmmədov yaxınları vasitəsi ilə komitənin sədr müavini ilə görüşmək üçün təşəbbüs göstərib.**

İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədr müavini Elmira Behbudova "Yeni Müsavat"a açıqlamasında deyib ki, ona belə bir müraciət olmayıb: "Mən hələ komitənin sədri deyiləm. Əlimdə bunu təsdiq edən sənəd yoxdur. Komitəyə belə bir müraciət də olmayıb".

**E.Behbudova H.Məmmədovun müraciəti olacağı təqdirdə müvafiq qərar verəcəyini də söyləyib:** "İndidən nəsə demək istəmirəm. Çünki sədr deyiləm".

Qeyd edək ki, İşgəncələrə Qarşı Azərbaycan Komitəsi 2002-ci ildə tanınmış alimlər və hüquqşünaslar tərəfindən təsis olunub. 2015-ci il noyabrın 14-dək komitəyə Elçin Behbudov sədrlik edirdi. Hüquq müdafiəçisinin vaxtsız ölümündən sonra komitəyə yeni sədr təyin olunmayıb. Bir qədər əvvəl mətbuata açıqlama verən E.Behbudova demişdi ki, Elçin Behbudovun ölümündən sonra komitənin fəaliyyəti dayandırılmayacaq.



Hacı Məmmədov

Yada salaq ki, E.Behbudov yeganə hüquq müdafiəçisi idi ki, onun MTN İstintaq Təcridxanasında monitorinq aparmaq hüququ tanınırdı. Hacı Məmmədovun MTN-də saxlanıldığı son 10 il ərzində Elçin Behbudov onunla dəfələrlə görüşmüşdü. Hüquq müdafiəçinin mətbuata açıqlamalarından belə anlaşılırdı ki, onun H.Məmmədovla normal münasibətləri var. E.Behbudov komitənin ofisinə baş çəkən qonaqlara Hacı Məmmədovun MTN təcridxanasında yağlı boya ilə çəkdiyi və ona bağışladığı rəsmləri göstərməyi xoşlayırdı...

**Hüquq müdafiəçisinin həyat yoldaşı Elmira Behbudova** buna qədər sədrin müavini vəzifəsində çalışıb. İşgəncələrə Qarşı Azərbaycan Komitəsi (İQAK) 2005-ci ildə Ədliyyə Nazirliyindən qeydiyyatdan keçib. Komitənin məqsədi insan hüquqlarının müdafiəsini təşkil etmək, işgəncə qurbanlarını aşkar etmək, onları müəyyənləşdirdikdən sonra hüquqi yardım göstərək işgəncə verən güc strukturlarının əməkdaşlarını ifşa etmək, Ədliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin və Müdafiə Nazirliyinin tabeçiliyində olan müəssisələrini və orada saxlanılan şəxslərin vəziyyətini monitorinq etməkdir.

Xatırladaq ki, Hacı Məmmədov və digərləri 2005-ci il martın 10-da MTN-in keçirdiyi "Qara Kəmər" əməliyyatı zamanı həbs olunublar. 2006-cı ildən 2007-ci ilə qədər davam edən məhkəmə zamanı H.Məmmədov yarımçıq ifadələr verməklə, bir-birinə zidd olan fikirlər səsləndirib. Məhkəmənin keçirildiyi günlərdə mətbuatda onun həqiqəti gizlətməyə çalışdığı haqda çoxsaylı yazılar dərc olunub. Hacı Məmmədovun yarımçıq ifadələri ilə yaddaşlarda qalan məhkəmənin sonunda onun özü də daxil olmaqla, DİN-in keçmiş şöbə müdiri Kamil Sədrəddinov, nazirliyin Baş Cinayət Axtarış İdarəsinin keçmiş rəisi Zakir Nəsirov və digər 7 nəfər ömürlük həbs cəzasına məhkum ediliblər. Zamində olan 3 nəfərdən biri - İbrahim Bağırovun işi xitam edilib. Digər 2 nəfər - Azər Əliyev və Aqil Hüseynov isə 2 il şərti cəza alıblar. Onlar saxta sənəd hazırlamaqda, dələduzluq və sair bu kimi əməllərdə təqsirli bilinirdilər. Qalan 13 nəfərə isə 8 ildən 15 ilədək həbs cəzası verilmişdi.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 276 (6304) 11 dekabr 2015

# "Günəşli" yatağında yanğın da, axtarışlar da davam edir

## Sosial şəbəkələrdə itkin düşənlərlə bağlı yazılanlar SOCAR tərəfindən etirazla qarşılanıb; general-polkovnik Kəmaləddin Heydərov və Elçin Quliyev hadisə yerində olublar

**"Günəşli" yatağının 10 saylı Dərin Dəniz Özülündə baş vermiş yanğından bir həftə ötür. Qəza nəticəsində itkin düşən 23 neftçinin axtarışları davam edir. Hər keçən gün itkin düşənlərin sağ qalmasına azacıq da olsa, olan ümidlər tükənməkdədir. Dekabrın 10-da fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov və Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, Sərhəd Qoşunlarının komandanı, general-polkovnik Elçin Quliyev hadisə yerində olublar. Helikopterlə əraziyə baxış keçirilib, baş vermiş yanğının söndürülməsi, itkin düşənlərin axtarış işlərinin gedişi ilə bağlı məsələlər müzakirə olunub.**

**DSX-nın mətbuat mərkəzindən APA-ya verilən məlumatda bildirilir ki, müzakirələrdə daha çox qüvvə və vasitələr cəlb edilməklə axtarış ərazisinin genişləndirilməsi barədə qərar qəbul edilib.**

Məlumatda deyilir ki, dekabrın 4-də baş vermiş yanğınla əlaqədar DSX-nin sərhəd gözətçi gəmiləri və helikopterləri dərhal hadisə yerinə səfərbər edilib və axtarış-xilasetmə işlərinə başlanılıb.

Gündəlik olaraq dənizdə itkin düşmüş işçilərin axtarışı DSX-nin 7 gəmisi və 6 helikopteri tərəfindən FHN-nin helikopterləri ilə qarşılıqlı əlaqədə həyata keçirilməkdədir.

Hazırda yanğın baş vermiş özüldən 100-150 km-dək məsafədə, həmçinin gündəlik olaraq havadan və qurudan sahilboyu ərazilərdə axtarış işlərinin aparılması təmin edilib. Həyata keçirilən axtarış tədbirləri nəticəsində yanan platformaya aid əşyalar, xilasedici jiletlər və dairələr, xilasedici qayığın hissələri aşkar olunub. Axtarışlar vaxtı aşkar edilmiş əşyaların yerləri, dənizdə sualtı axınların, həmçinin küləyin istiqaməti nəzərə alınmaqla işlər davam etdirilir.

İtkin düşənlərin tapılması üçün axtarış miqyası genişləndirilib. Bu barədə APA-ya SOCAR-ın "Azneft" İstehsalat Birliyindən məlumat verilib: "Belə ki, Dövlət Sərhəd Xidmətinin 7 gəmisi və 6 helikopteri, Fövqəladə Hallar Nazirliyinin 2 gəmisi və 2 helikopteri axtarışları davam etdirir. Təəssüf ki, axtarışlar hələlik heç bir nəticə verməyib".

Əlavə olaraq bildirilib ki, yanğını söndürmək hələ də mümkün olmayıb. "Yanğının söndürülməsi ilə 5 gəmi məşğuldur" deyə, İB rəsmisi qeyd edib.

Qeyd edək ki, SOCAR "Günəşli" yatağında qəza baş vermiş özüldə olan xilasedici qayığın video görüntüsünü təqdim edib. Video görüntüdə qayığın müasir tələblərə cavab verdiyi, adam tutumunun 42 nəfər, dənizdə qalma müddətinin isə məhdudiyyətsiz olduğu vurğulanıb.



Sosial şəbəkələrdə hadisə və itkin düşən neftçilərlə bağlı yazılan statuslar rəsmi qurumlar tərəfindən etirazla qarşılanıb. Xüsusilə, itkin düşənlərin ölməsi barədə yazılar narazılıq yaradıb. SOCAR-ın vitse-prezidenti Xaliq Məmmədov operativ qərargahda keçirilən brifinqdə yazılara belə reaksiya verib: "Sosial şəbəkələrdə bəzi müzakirələr aparılır. Qeyri-peşəkar və hadisə barədə məlumatı olmayan insanlar statuslar yazır. Anlamırlar ki, söhbət yaxınını itirmiş insanlardan gedir. Bu, siyasi oyun deyil, burada siyasi oyunbazlıq etmək olmaz. İtkin düşənlərin ölmüş olması barədə qərarı məhkəmə verir. Biz son işçimizi də tapana qədər axtarışa ümidliyik".

**Xəzəryanı ölkələrə göndərilən müraciətlərə gəlincə, SOCAR rəsmisi bunun hələ ki, nəticəsiz olduğunu deyib. X.Məmmədov daha sonra qəzada xəsarət alan neftçilərin işə bərpasından söz açıb:** "İşçilərin müalicə prosesi gedir və bu proses davam etdiriləcək. Müalicə bitəndən sonra tibbi müəssisə qərar verir ki, onlar tam sağlamdır və işə çıxa bilərlər. Ağır yaralanmış və əlil olmuş işçilərə isə, sağlamlıq sığortasına uyğun müavinət veriləcək".

**SOCAR rəsmisinin brifinqdə cəsədləri tapılan neftçilərin Qazaxıstan sərhədinə yaxın ərazidə tapılması barədə şok fikirlər səsləndirib. X.Məmmədov qeyd edib ki, kəskin pisləşən hava şəraiti, sərt dəniz havası xilasetmə tədbirlərini yubadır və çətinləşdirir. Vitse-prezident platformada çalışan neftçilərin xilasedici jiletsiz olması ilə bağlı sosial şəbəkələrdə paylaşılan görüntülərə də toxunub:** "Bəzi məsələdən, hadisədən xəbərsiz insanlar, məlumatsız və qeyri-peşəkar sosial şəbəkə istifadəçiləri həqiqətə uyğun olmayan paylaşımlar edirlər. Onlar anlamırlar ki, söhbət insan taleyindən gedir. Söhbət çox ciddidir. Bu, siyasi oyun deyil".

Daha sonra brifinqdə vitse-prezidentin sözlərini təsdiq edəb videokadrlar nümayiş etdirilib.

**X.Məmmədov xəsarət alan neftçilərin gələcəkdə işləyib-işləməməsinə də aydınlıq gətirib:** "Əgər onların sağlamlığı işləməyə imkan versə, öz işlərinə qayıdacaqlar. Əlil olmuş neftçilərin əlillik dərəcəsi isə, müvafiq dövlət qurumları tərəfindən müəyyən olunacaq. Bu halda onlar həm əlillik dərəcəsinə görə müavinət alacaq, həm də onların sığortası var, buna görə də onlara müavinətlər veriləcək".

**SOCAR-ın "Azneft" İstehsalat Birliyinin baş direktoru Daşqın İskəndərov** operativ qərargahda keçirilən brifinqdə bildirib ki, itkin düşən neftçilərin son ana qədər axtarışları davam edəcək: "Çalışırıq ki, son günə qədər əməkdaşlarımızı axtarıb tapaq və ailələrinə təhvil verək, əzizlərinə çatdıraq. Son məqama qədər bununla bağlı ümidlərimizi itirmirik. Hazırda 5 gəmimiz orada yanğını söndürür. SOCAR-ın orada yanan 4 qaz quyusu var. Hazırda quyuların söndürülməsi, yanğının söndürülməsi illə məşğuluq. Küləkli havanın olmasına baxmayaraq işlər davam etdirilir. Eyni zamanda bizim texnikli tədbirlərdə həyata keçirilir. Özüldə su təminatı olmadığı üçün biz ilk növbədə çalışırıq ki, özülün su ilə təminatını bərpa edək ki ,quyuları söndürə bilək".

**Xatırladaq ki, "Günəşli" yatağında güclü külək nəticəsində dekabrın 4-də qəza baş vermişdi. Nəticədə platformada olan 63 nəfərdən 33-ü xilas olunsa da, yerdə qalanları xilas etmək mümkün olmayıb. Onlardan 6 nəfərinin cəsədi tapılsa da, digərlərinin axtarışları hələ də davam edir.**

❑ **Cavanşir ABBASLI**

# "Krediti olanlara şad xəbər" aranı qatdı, Mərkəzi Bank açıqlama verdi

## Mərkəzi Bank hüquqşünas Əkrəm Həsənovun mövqeyinin yanlış olduğunu bildirir, ekspert isə dediyindən dönmür

**Kreditlərin ödənilməsi zamanı yaşayış minimumunun nəzərə alınması məsələsi gündəm yaradıb. Hüquqşünas Əkrəm Həsənovun açıqlamalarına sonra Mərkəzi Bank da münasibət bildirməli olub. Qeyd edək ki, Əkrəm Həsənov yaşayış minimumunun artmasının banka borclular üçün şad xəbər olduğunu vurğulayaraq bildirmişdi ki, vətəndaş ailəsindəki üzvlərin sayına uyğun yaşayış minimumunu hesablamalı, maaşında bundan artığı qalarsa, banka borcunu ödəməlidir. Əks halda, bank onun pulunu qeyri-qanuni şəkildə ala bilməz. Ekspert bildirmişdi ki, bank müştəriləri öz gəlirlərinin yalnız yaşayış minimumundan artıq hissəsini bank krediti kimi ödəyə bilərlər. Əgər onların gəlirləri yaşayış minimumundan aşağıdırsa, onlar kredit ödənişindən imtina edə bilərlər.**

Bundan sonra məsələyə **Azərbaycan Banklar Assosiasiyasının (ABA) hüquq ekspert komissiyasının sədri Qorxmaz Ağayev** münasibət bildirərək, müştərinin mütləq öz borcunu qaytarmalı olduğunu vurğulamışdı. Onun sözlərinə görə, bank və müştəri arasındakı münasibətlər Mülki Məcəllə ilə tənzimləndiyinə görə yaşayış minimumunun həcmi kimi anlayışların bu məsələdə istifadə edilməsi və bundan kreditin qaytarılmaması üçün əsas kimi götürülməsi düzgün deyil.

**Sonda Mərkəzi Bank hüquqşünas Əkrəm Həsənovun mövqeyinin yanlış olduğu bildirib.** Bank nümayəndəsi deyib ki, ekspertlər belə açıqlamalara görə məsuliyyət daşıyırlar: "Hətta müəyyən sahələrdə biliyə malik deyilsə, həmin ekspert rəyinin verilməsindən imtina etməlidirlər. Qanuna əsaslanmayan iddialarla mətbuatda çıxış edib əhalini çaşdırmaq yolunu tutmaq düzgün deyil. Bu, bank sisteminə qarşı qərəzli bir mövqedir".




Bankdan bildirilib ki, Ə.Həsənov bundan əvvəl də müflisləşmə barədə düzgün olmayan açıqlamalarla çıxış edib: "Həmin açıqlamada bu ekspert faktiki olaraq adamları bankların pulunu qaytarmamağa çağırır". Həmçinin Banklar Assosiasiyasının mövqeyi dəstəklənib.

**Ekspert Əkrəm Həsənov** isə həmin iki açıqlamanı musavat.com-a bu cür izah edib: "Bu, bankların özünü qoruma mövqeyi və cəfəngiyyatdır. ABA-nın mövqeyi hüquqşünas mövqeyi deyil, daha çox bankların özünü qoruması üçün deyilən fikirdir. Banklar Assosiasiyası mənasını özü də başa düşmədiyi rəy verib. İndi isə nəhayət yuxudan oyanmış Mərkəzi Bank fikrini bildirib. Amma təəssüf ki, Mərkəzi Bank fikrini dövlət orqanı kimi deyil, məhz quldur və qorxaq kimi, yəni anonim olaraq bildirib. Bankların sevdiyi "İcra haqqında" Qanunun 75-ci maddəsinə əsasən aliment vətəndaşdan birinci növbədə tutulmalıdır və bu halda maaşı kifayət etməsə, bankın borcu ödənilməmiş qalacaq. Normal qanunvericilik vətəndaşın əmək haqqını övladına sərf edə bilməsi üçün boşanmasını tələb edə bilərmi? Necə ola bilər ki, boşanmamış kişinin gəliri ilk növbədə bankın borcuna, boşandıqdan sonra isə övladına sərf edilməlidir? Yəni qanun əhalini boşanmağa təhrik edir? Mən deyirəm ki, yox! Qanunumuz belə deyil. Ədalətli və humanistdir. Amma banklar bunun əksini deyir və əhalini boşanmağa təhrik edir. Qoy banklar heç olmasa bu məsələyə aydınlıq gətirsin. Birincisi, biz yaşayış minimumunun əsaslandırılmasında deyirik ki, bu, vətəndaşdan hansısa bir icbari ödənişin tutulması zamanı əsas ola bilər. Bunlar deyirlər ki, icbari ödəniş dedikdə, yalnız vergilər, Sosial Müdafiə Fonduna ödənilən sığorta haqları daxildir, dövlət rusumları, gömrüklər və sair daxildir. Qanunvericilikdə onların dediyinin əsası yoxdur. Qoy gətirsinlər göstərsinlər ki, elə bil qanun ki, icbari ödəniş budur. İcbari ödənişin mənası odur ki, vətəndaşdan onun iradəsi olmadan tutulan məbləğdir. Buraya məhkəmə qaydasında vətəndaşdan tutulan istənilən pul da daxildir. Vətəndaşdan tutulan icbari vəsaitə yaşayış minimumu tətbiq edilməlidir. Yaşayış minimumuna dəymək olmaz. Milli Məclis təsdiq edib, dövlət başçısı qol çəkib ki, əhalinin il ərzində yaşayış minimumu budur. Qanunda bildirilir ki, vətəndaşın sağlamlığı üçün, həyatı üçün ay ərzində zəruri tələbatını ödəyən məbləğdir. Deməli, bu məbləğ olmasa, vətəndaş öləcək. Budur mənası. İndi qanun qəbul edilib və buna əsasən, həmin pul vətəndaşın əlindən alına bilməz".

❑ **RÖYA**

# "2016 həm iqtisadi, həm siyasi cəhətdən təlatümlü il olacaq"

## Vahid Əhmədov: "Naqif Həmzəyev kimilər ümumiyyətlə, Milli Məclisdə təmsil olunmamalıdır!"

**"Yeni Müsavat"ın budəfəki müsahibi Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü, istiqlalçı-deputat Vahid Əhmədovdur. 90-cı illərdə Baş nazirin müavini vəzifəsində çalışmış həmsöhbətimizlə Xəzərdə baş vermiş faciə, manatın taleyi, regionda yaşanan hadisələr fonunda ölkəmizə yönələn təhdidlər və digər məsələlərdən danışdıq.**

***- Vahid müəllim, "Günəşli" yatağında baş verən dəhşətli hadisə gündəmin əsas mövzusudur. Çoxsaylı insan itkilərinə səbəb olan faciənin səbəbləri barədə müxtəlif rəylər səslənir. Siz uzun müddət hökumətdə çalışmısınız, kifayət qədər təcrübəniz var, bu sektora da bələdsiniz. Bu hadisə ilə bağlı məlumatlarınız, təxminləriniz nədən ibarətdir?***

- Bu, çox ağır hadisədir. İlk olaraq millətimə başsağlığı verirəm, ölənlərin ailələrinə səbir diləyirəm. Mən uzun müddət bu işlərin içərisində olmuşam. Baş nazirin 1-ci müavini olanda rəhmətlik Qurban Abbasovla bir neçə dəfə Neft Daşlarında olmuşam, oranı gəzmişəm, baxmışam, yəni müəyyən məlumatlarım var. Məncə, baş verən hadisə küləyin həddən artıq güclü olması və qasırğa səviyyəsinə çatmasının, dalğanın 10 metrə yaxın qalxmasının nəticəsidir. İddialar səslənir, deyirlər burda digər dövlətlər, o cümlədən Rusiya tərəfindən təxribat ola bilər, ancaq mən bunu qəbul etmirəm. Əlbəttə, istisna da etmirəm, hər şey mümkündür. Amma mən əsas onun üzərində dayanıram ki, bu, təbii fəlakət, təbii faciədir. Azərbaycan dövləti bu faciədən çox böyük əziyyət çəkir. Hesab edirəm ki, orda işləyən FHN, SOCAR Neft Şirkəti, Sərhəd Xidməti və s. qurumların rəhbərləri birbaşa faciəni aradan qaldırılması prosesində iştirak ediblər, daha dəqiq məlumatları var. Mütəmadi açıqlamalar verilir, itkin düşənlər axtarılır. Məncə, Dövlət Neft Şirkətinin bu sahədə təcrübəsi həddən artıq böyükdür. Xoşbəxt Yusifzadəyə, digərlərinə də qulaq asdım, yəni lazım olan tədbirlər görülüb. Bu, taleyin qismətidir, görünür belə ağır faciədən qaçmaq mümkün deyilmiş.

Ölənlərə Allah rəhmət eləsin! Dediyim kimi, təbii fəlakətlə yanaşı, digər ehtimalları da istisna etmirəm. Xüsusilə Azərbaycan prezidentinin "G 20" sammitində iştirakı və ordakı uğurlu çıxışından sonra Azərbaycanın dünya arenasına çıxması, iri dövlətlər arasında Azərbaycan dövlət başçısının uğurlu çıxışı ola bilər bəzi ölkələr tərəfindən müsbət qarşılanmayıb. Həmçinin, Türkiyənin xarici işlər naziri və baş nazirinin Azərbaycana səfəri, aparılan danışıqlar, TANAP, TAP qaz layihəsinin 2018-ci ildən də əvvəl çəkilib istifadəyə verilməsi ətrafında danışıqlar əlbəttə, bir sıra qonşu dövlətləri qane etmir. Bunun nəticəsi də ola bilər. Amma mən əlbəttə, bunu daha çox təbii fəlakət sayıram.

***- Bu gün ölkə insanını narahat edən digər məsələ manatın taleyi ilə bağlıdır. Mərkəzi Bankın ehtiyatları xeyli azalıb, növbəti ildə nə gözlənilir?***

- Bəli, Mərkəzi Bankın valyuta ehtiyatları kəskin azalıb. Devalvasiyadan qabaq hardasa 15 milyard manata yaxın ehtiyatlar var idisə, hazırda 6,2 milyard manata yaxın qalıb. Əlbəttə, bunun əsas hissəsi manatın məzənnəsinin qorunub-saxlanmasına sərf olunub. Mən belə səviyyədə manatın kursunun saxlanmasının tərəfdarı deyiləm. Əlbəttə, ehtiyatımız böyük miqdarda olsaydı, qoruyub-saxlamaq lazım idi. Çünki bu, əhali üçün çox vacibdir. Amma gec-tez manat özünün bazar qiymətini almalıdır. Qonşu dövlətlərdə fikir verirsinizsə, milli valyutalar dəyərdən düşür, bir çoxları üzən məzənnə siyasətini həyata keçirir, kəskin devalvasiyaya gedir. Biz də 21 fevralda devalvasiyanın şahidi olduq, manat 34 faiz ucuzlaşdı. Bundan sonra da manat öz bazar qiymətini almalı. Yenə də Mərkəzi Bank valyuta bazarına müdaxilə edib hər ay müəyyən qədər vəsait buraxır ki, manatı qorusun. Əlbəttə, bu, uzun müddət davam edə bilməz. Mən həmişə demişəm ki, manatın dəyəri birbaşa neftin qiymətindən asılıdır. Dünya bazarında neftin qiyməti kəskin aşağı düşür. Biz 2015-ci ilin dövlət büdcəsində neftin qiymətini 90 dollar götürmüşdük. Amma hal-hazırda neftin qiyməti 40 dollardan bir qədər artıqdır. 2016-cı ilin dövlət büdcəsində də neftin qiymətini 50 dollardan götürmüşük. Gedən proseslər onu göstərir ki, neftin qiyməti 50 dollar ətrafında qalarsa, bu, çox müsbət haldır. Yəni manatı müəyyən qədər qoruyub saxlamaq mümkün olacaq. Amma Mərkəzi Bankın ehtiyatları da tükənməz deyil, bu ehtiyatlar qurtarır. Bir ildə hardasa 60-70 faiz ehtiyat tükənib. Ona görə də tənzimlənən, üzən məzənnə siyasətini həyata keçirmək, yəni yumşaq devalvasiyaya getmək lazımdır ki, əhali bunu birdən-birə hiss eləməsin.

***- Yəni 1 dollar-1,5 manata bərabər olmalıdır?***

- Onu demək çətindir. Ölkədəki iqtisadi proseslərə, qeyri-neft sektorunun inkişafına baxmaq lazımdır. Düzdür, son vaxtlar Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə əlaqədar müəyyən addımlar atılıb. Ancaq onların vergi tutumları çox aşağıdır. İstənilən dövlətin iqtisadi siyasəti o vaxt uğurlu sayılır ki, orda iki əsas prinsip yüksək səviyyədə qorunub-saxlanır: birincisi, bank sisteminin yaxşı işləməsi, cəmiyyət qarşısında öhdəliklərini normal yerinə yetirməsi; ikincisi, sənayenin inkişafıdır. Bu iki sistem normal fəaliyyət göstərirsə, o dövlətdə heç vaxt problemlər olmur.

***- Parlamentdəki çıxışlarınızda bir neçə dəfə Mərkəzi Bankı kredit faizlərinin aşağı salınmaası üçün banklara təsir göstərməyə çağırmışdınız. Nəticəsi olmadı...***

- Məsələ bu gün də gündəmdədir. Bank sistemində islahatlar getməlidir. Özü də birtərəfli yox, hərtərəfli qaydada. Faizlərin yüksək olması əlbəttə, vaxtı keçmiş kreditlərin miqdarını kəskin artırıb, artıq 1,4 milyard manata gəlib çatıb. Bu gün ölkədə 42 bank fəaliyyətdədir, ancaq bu, çoxdur. Bankların nizamnamə kapitalları, dövriyyə vəsaitləri, likvidliliyi aşağıdır. O banklar öz aralarında müəyyən birləşmə əməliyyatını həyata keçirməlidir - Mərkəzi Bankın rəhbərliyi altında. İri banklar yaradılmalıdır, "Kapital Bank", "Paşa Bank", Beynəlxalq Bank kimi... Yəni bunların kredit portfelləri böyük olsun ki, aşağı faizlə kredit verə bilsinlər. Bu gün əmanətləri 9-10 faizlə qəbul edirlər, amma 30-35 faizlə kredit verirlər. Bu, qəbul olunan hal deyil. 2,5 milyona yaxın insanın kredit borcları var, bu, çox böyük rəqəmdir. Mən bir sıra bankların rəhbərləri ilə görüşmüşəm, 21 fevral devalvasiyasından sonra bankların özünün də problemləri yaranıb. Banklara müəyyən yardımlar verməkolar. 2008-ci ilin krizis vaxtı cənab prezident xaricdən vəsait gətirilməsi barədə göstəriş vermişdi. O vaxt banklara müəyyən yardım edilsəydi, bu problem yaranmazdı.

***- Yeni ildə hökumətin tərkibində yeniliklərin olacağını gözləməyə dəyərmi? Ümumiyyətlə, siz islahatlara gediləcəyini güman edirsinizmi?***

- Azərbaycan prezidenti oktyabr ayından başlayaraq bir sıra ciddi islahatlara start verib, o cümlədən vergi ilə bağlı qanunlar dəyişdirilib. Sahibkarlıq mühitinin yaxşılaşdırılması, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar göstərişlər verilib. 2016-cı ilin dövlət büdcəsini cənab prezident təsdiq etdi. Orda da hökumətin və bir sıra nazirlərin qarşısında çox ciddi problemlərin həlli üçün tapşırıqlar verib. Prezident fərmanında hökumətə səhmdar cəmiyyətləri arasında olan kredit borclarının tənzimlənməsi haqqında göstəriş var. Həmçinin kənd təsərrüfatı məhsullarına ayrılan subsidiyaların səmərəliliyinin və şəffaflığının artırılması ilə bağlı göstərişlər var. Eyni zamanda gömrük tariflərinin daxili bazara uyğunlaşdırılması, özəlləşdirmə prosesinin canlandırılması, əhalinin əmanətlərinin qorunması ilə əlaqədar müəyyən göstərişlər var. Hazırda əhalinin 30 min manata qədər əmanətləri sığortalanır, bu, az məbləğdir. O banklarda ki, korporativ idarəetmə yüksək səviyyədədir, həmin banklarda istənilən məbləğdə qoyulmuş əmanət qorunmalıdır. Ona görə də dövlət başçısının atdığı addımlar, bu islahatlar davamlı olmalıdır.

***- Hökumət prezidentin qərarlarına adekvat reaksiya verirmi?***

- Müəyyən məsələlərdə verir. Ancaq daha çevik hökumət olmalıdır. Fikir verin, Rusiyada embarqolardan sonra hökumətin işləmə mexanizmi necə çevikdir. Bizdə də çevik hökumət olmalıdır ki, gedən proseslərə çox ciddi nəzarət eləsin, qiymət versin, bank, sənaye, ümumiyyətlə, qeyri-neft sektorunun inkişafına diqqət artırılsın. Yoxsa yaxın zamanlarda neftin qiymətinin artımı gözlənilmir.

***- Demək 2016-cı il bizə yaxşı heç nə vəd eləmir...***

- Yox, bizdə ciddi problemlər olan deyil, nə iqtisadi, nə də siyasi sahədə. Cənab prezidentin xarici siyasəti də uğurludur. Balans siyasətini qoruyub-saxlayır - istər Rusiya, istər Türkiyə ilə, bu, müsbət haldır. Daxildə də ehtiyatımız da kifayət qədərdir. Əgər hökumət prezidentin imzaladığı fərmandakı məsələləri yerinə yetirsə, problemimiz olmayacaq. Dövlət 2016-cı ilin büdcəsini təsdiq edəndə də biz yalnız iki investisiya layihəsini saxladı: TANAP, TAP layihəsi və Bakı-Qars dəmir yolunun çəkilməsi. Sosial layihələr də cənab prezidentin tapşırığı ilə saxlanıldı. Elə ciddi problem gözlənilmir. Amma çox şey bizim hökumətin işləməsindən asılıdır.



### "Ölkədə barışa, anlaşmaya ehtiyac var"

***- İndiki situasiyada hökumətə kömək etmək istərdinizmi?***

- Mən həmişə hökumətə kömək edirəm, fikirlərimi bildirirəm. Açığı, əksər fikirlərim də qəbul olunur. Harda olmağımdan asılı olmayaraq, mən həmişə kömək etməyə hazıram, çünki bizim hökumətimizdir. İqtisadiyyatımızın inkişafı üçün hökumətin əlindəki rıçaqlardan həmişə istifadə etmək lazımdır. Milli Məclisdə elə qanunlar qəbul etmək lazımdır ki, hökumət o qanunların icrası ilə məşğul olsun və Azərbaycan iqtisadiyyatının inkişafında müəyyən təkanlar yaransın. 2016-cı il yüngül il olmayacaq, həm iqtisadi, həm siyasi cəhətdən təlatümlü olacaq. Amma biz Azərbaycan dövlət başçısının apardığı daxili və xarici siyasətə nəzər yetirsək, ümid edə bilərik ki, gələn ili də uğurla başa vuracağıq.

***- Parlamentdən söhbət düşmüşkən, deputat Naqif Həmzəyevin Məhəmməd Əmin Rəsulzadəni təhqir etməsini necə qarşıladınız?***

- Çox pis. Mən belə şeyləri qəbul etmirəm. Belə məsələləri tarix öz yerinə qoyur. Məhəmməd Əmin Rəsulzadə 1918-20-cü illərdə, 23 ay ərzində Azərbaycan hökumətində təmsil olunan şəxsdir. Dünyasını dəyişəndə də üç dəfə "Azərbaycan" deyib. O vaxt elə çətin bir vəziyyətdə müstəqil Azərbaycanın qurulmasında müstəsna xidmətləri olan Məhəmməd Əmin Rəsulzadə, Əhməd Cavad, digər görkəmli şəxsiyyətlərin qədrini bilmək lazımdır. Rəhmətlik Heydər Əliyev və indiki prezidentimiz İlham Əliyev də Rəsulzadə ilə əlaqədar fərmanlar, sərəncamlar veriblər, onun yubileylərini həmişə qeyd ediblər. Milli Məclisə seçilən hər bir millət vəkili başa düşməlidir ki, onu parlamentə seçiblər ki, Azərbaycan xalqının mənafeyini müdafiə etsin, Azərbaycanın müstəqilliyini qoruyub-saxlamaq üçün addımlar atsın. Azərbaycanın müstəqilliyinə xələl gətirən çıxışlar etməsin. Mən Azərbaycanın müstəqilliyinə səs verən adamam, istiqlalçı deputatam. Belə insanlar ümumiyyətlə Milli Məclisdə təmsil olunmamalıdır! Beləleri Milli Məclisə layiq insanlar deyil! İkincisi də bəziləri elə fikirləşirsə ki, əyalətdən Bakıya gəlib, ordakı danışıq qabiliyyətini paytaxtda da, Milli Məclisdə də aparmaq olar. Ancaq Milli Məclis siyasi arenadır, burda bütün danışıqlara fikir vermək lazımdır. Çünki bütün beynəlxalq aləm Milli Məclisi izləyir.

***- Hüquq müdafiəçisi Leyla Yunusun azadlığa çıxması Azərbaycanı təhdid edən bəzi problemlərin - xüsusilə də məhbuslarla bağlı - həllini tapacağına ümid yaradıb. Milli barış və əfvlə bağlı siz nə demək istərdiniz?***

- Dövlət başçımız mütəmadi olaraq əfv fərmanları imzalayır. Leyla Yunusun məhkəmə zalından azadlığa buraxılması digər şəxslər barədə də humanist qərarların qəbul olunacağına inam yaradır. Heç kim istəməz ki, kimsə siyasi fikirlərinə görə azadlığdan məhrum edilsin. Amma kim ki, ağır cinayət hadisələri törədib, əlbəttə, cinayət cəzasız qala bilməz. İndiki dövrdə ölkədə ümummilli barışa, anlaşmaya ehtiyac var. Biz nə qədər güclü, iqtisadi cəhətdən inkişaf etmiş dövlət olsaq da, Azərbaycanın müstəqilliyini qorumağımız üçün daxildə çox ciddi barışığa nail olmalıyıq. Son vaxtlar prezidentin köməkçisi Əli Həsənovun atdığı addımlar, müxalifətlə müəyyən danışıqların getməsi müsbət hallardır, bu işlər davam etdirilməlisir. Məsələnin müsbət tərəfi budur ki, dövlət də ölkədə ciddi problemlərin yaranmaması üçün çalışır...

**❑ Elşad PAŞASOY**
**FOTO: "YM"**

YENİ MÜSAVAT
N 276 (6304) 11 dekabr 2015



# Qanunlar sərtləşdirilir, iqtidar böhrana hazırlaşır

**Azərbaycanda icazəsiz aksiyalarla bağlı qanuna dəyişikliklər edilir. Yeni qanunla cəzalar sərtləşdirilir, cərimələr artırılır. Qanun layihəsi Milli Məclisin dekabrın 18-də keçiriləcək plenar iclasında müzakirəyə çıxarılacaq.**

Yeni məcəllədə “Toplantıların təşkili və keçirilməsi qaydasının pozulması” adlanan 512-ci maddədə deyilir ki, “Yığıncaqların, mitinqlərin, nümayişlərin, küçə yürüşlərinin və piketlərin təşkilinin və keçirilməsinin ”Sərbəst toplaşmaq azadlığı haqqında" qanun ilə müəyyən edilmiş qaydasının pozulmasına görə, fiziki şəxslər 1500 manatdan 3000 manata qədər cərimə edilir, yaxud işin hallarına görə xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla 200 saatdan 240 saatadək ictimai işlər və ya 2 aya qədər inzibati həbs tətbiq olunur. Vəzifəli şəxslər isə, 3000 manatdan 6000 manata qədər, hüquqi şəxslər 15 000 manatdan 60000 manata qədər cərimə olunur.

Maddənin ikinci hissəsində isə deyilir ki, “Sərbəst toplaşmaq azadlığı haqqında” qanun ilə müəyyən edilmiş qaydada təşkil edilməyən yığıncaq, mitinq, nümayiş, küçə yürüşü və ya piketdə iştirak etməyə görə 300 manatdan 600 manata qədər cərimə, yaxud işin hallarına görə xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla 160 saatdan 200 saata qədər ictimai işlər və ya 2 aya qədər inzibati həbs tətbiq edilir.

Məcəllə qəbul olunacağı təqdirdə gələn il mayın 1-dən qüvvəyə minəcək. Ekspertlər hesab edirlər ki, hökumət bununla gələcəkdə ehtimal olunan iqtisadi böhranın anonsunu verir və qabaqlayıcı tədbirlər görür. Qanundakı dəyişikliklər qüvvəyə minərsə, əvvəlki illərdə keçirilən icazəsiz aksiyaların bundan sonra bir daha şahidi olmaya biləcək. Çünki qanuna əlavə ediləcək dəyişikliklərdə nəzərdə tutulan cərimələri hər hansı bir problemi ilə bağlı icazəsiz aksiya təşkil edən, yaxud belə aksiyalara qoşulan vətəndaşların ödəmək imkanları olmayacaq.

## Tural Abbaslı: “Xalqı müxalifət-iqtidar olaraq birlikdə xilas etmək lazımdır”





İndiyə qədər dəfələrlə icazəsiz aksiyalar təşkil edən, buna görə inzibati həbs cəzası alan, müəyyən məbləğdə cərimələr ödəyən **keçmiş vicdan məhbusu, “AĞ blok”un təsisçisi Tural Abbaslı** hesab edir ki, qanuna ediləcək dəyişikliklər hakimiyyətin aqressiv münasibətinin davamıdır: “Hakimiyyət artıq daxildə narazılıqların yüksək səviyyəyə çatdığının fərqindədir. Gələcəkdə ola biləcək icazəsiz, kütləvi aksiyaların qarşısını almaq üçün bu yoldan istifadə edir. Vətəndaşlar inzibati həbs cəzası almaqdan qorxmurlar, əsas cərimələrdən çəkinirlər. Çünki indiki vəziyyətdə bu qədər cəriməni ödəmək imkanı yoxdur. İndiki halda bu cür dəyişikliklərə ehtiyac yoxdur. Stabillik hökm sürürsə, cərimələrin artırılmasına nə ehtiyac var? Əslində iqtidar da anlayır ki, cəmiyyətdə gərginlik var. Bu, küçə aksiyaları ilə əvəzlənə bilər. Bunun qarşısını almağa çalışır. Qanunları sərtləşdirməklə bu məsələlər həll olunmur. Ən gözəl variant xalqla dil tapmaqdır. Belə qanunla problemlərin qarşısını almaq olmaz. Radikal metodlardan əl çəkmək lazımdır. Siyasi məhbusların azad olunması, xalqla danışıqlara gedilməsi, partiyalarla dialoqların başladılması gözəl addım olardı. 20 illik müxalifət-iqtidar düşmənçiliyinə son qoymaq lazımdır. Dünyanın iqtisadi böhranı qarşısında xalqı müxalifət-iqtidar olaraq birlikdə xilas etmək lazımdır”.

**Müsavat başqanının müavini Elman Fəttah** bildirdi ki, bu siyasət əvvəlki illərdən başlayıb: “Hökumət 2007-ci ildən bəri sərbəst toplaşmaq hüququnun məhdudlaşdırılması, 2012-ci ildən isə faktiki olaraq bu hüququn rəsmən qadağan olunması yolunda sistemli qanun dəyişikləri qəbul edib. Son dəyişikliklər də məhz bu yöndə atılan addımlardır. Nəticə etibarı ilə yaranan mənzərə hər kəsə aydındır. Ölkədə siyasi fəaliyyət imkanları tükənmək üzrədir. Vətəndaş cəmiyyəti institutu tamamilə məhv edilib. Siyasi partiyalara qarşı bir tərəfdən klassik repressiya-funksionerlərin həbs edilməsi sistemləşdirilib, digər tərəfdən isə rejimə qarşı prinsipial siyasi mövqedə olan partiyalara qarşı Ədliyyə Nazirliyi və məhkəmələr vasitəsilə hüquqi repressiyaya start verilib. Bütün bu olanlar rejimin ölkədə təkpartiyalı sistem qurmağa çalışdığını, qanunları konstitusiyaya zidd dəyişikliklərlə sərtləşdirdiyini, avtoritarizmi möhkəmləndirdiyini göstərir”.

## Fəzail Ağamalı: “Qanunlar daha sərt olmalıdır”

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı** qanun layihəsinə çıxarılacaq qərarları dəstəklədi: “Azərbaycanda bütün qanunverici aktlarda dəyişikliklər aparılır. Cəmiyyət, mətbuat, siyasi partiyalar, sərbəst toplaşmaq və digər bu kimi qanunlara əlavələr edilməsinə ehtiyac duyulur. Bu proses də gedir. Avropa dövlətlərinin qanunvericiliklərinə etdikləri əlavələrə diqqət yetirsək, hər şeyi görərik. Ayrı-ayrı fərdlərin fəaliyyəti cəmiyyətə problem yaratmamalıdır. Xalq, dövlətin təhlükəsizliyi fərdlərin və siyasi qurumların maraqlarından üstündür. Kim icazəsiz aksiya keçirmək istəyirsə, qanunvericiliyə uyğun addımlar atsın. Əksinə qanunlarımıza məhəl qoymayan, kiminsə fitvası ilə ölkəmizdə qarışıqlıq, xaos yaratmağa çalışanlar qanun qarşısında cavab verməlidirlər. Qanunlar bu barədə daha sərt olmalıdır. Bu cür addımlar hesab edirəm ki, xalqımızın təhlükəsizliyini qoruyan addımlardır”.

❑ Cavanşir ABBASLI

# Müxalifət birləşib bir partiya yaradarsa...

**Azərbaycanda müxalifət partiyalarının fəaliyyətində son dövrlər heç bir əsaslı aktivlik müşahidə olunmur. Parlament seçkilərindən sonra müxtəlif partiyalar seçkinin nəticələrindən narazı olsa da, buna qarşı virtual aləmdən kənar heç bir etiraz bildirmədilər. Ekspertlər hesab edirlər ki, bu müxalifətin tamamilə zəifləyərək elektoratını itirməsinin göstəricisidir.**



**Mehman Əliyev:** “Təcrübə göstərir ki, ölkədə iki partiyalı sistem hələ ki, mümkün deyil”



**Hikmət Hacızadə:** “Qoy birləşsinlər...”

Eyni zamanda, onu da qeyd edək ki, ölkədə siyasi partiyalar çoxluq təşkil etsə də, onların əksəriyyətinin nizamnaməsi bir-birinə çox yaxındır. Son günlər isə bəzi partiyaların birləşməsi ilə bağlı məsələlər də gündəmdədir. Belə ki, KXCP və AXP sədrləri arasında görüşdən sonra yayılan məlumatda bildirilir ki, partiya sədrləri rəhbərlik etdikləri partiyaların gələcəkdə təşkilati inteqrasiya da daxil olmaqla, sıx əməkdaşlıq etməsi üzrə danışıqlar aparıblar.

Azərbaycanda ikipartiyalı sistem yarana bilərmi?

Məsələ ilə bağlı musavat.com-a ekspert Mehman Əliyev danışıb. O bildirib ki, bu çox çətin məsələdir:

“Şəxsi iddialar, maraqlar və bu kimi məsələlər vardır ki, vəziyyətə təsir edən amillərdir. Eyni zamanda, dövlət də maraqlı deyil ki, Azərbaycanda güclü alternativ bir müxalifət partiyası yaransın. Bu baxımdan bu istiqamətdə işlər aparılır, təzyiqlər edirlər, parçalayırlar ki, belə bir sistem yaranmasın. Faktiki olaraq biz görürük ki, son 15 ildə partiyalar seçki öncəsi və digər zamanlar da müxtəlif koalisiyalar yaradırlar. Hər zaman da həmin birlik qısa müddət sonra iflasa uğrayır. Təcrübə göstərir ki, Azərbaycanda iki partiyalı sistemin yaranması hələ ki, mümkün deyil. Hər hansı formada addımlar atıla bilər. Ancaq qeyd etdiyim kimi uzun müddətli koalisiyanın yaşanması çətindir”.

M.Əliyev bildirib ki, Azərbaycan müxalifətinin 1993-cü illə müqayisədə nə qədər zəifləməsi göz qabağındadır: “Partiyalar xeyli zəifləyib və bu da ölkə üçün heç də yaxşı hal deyil. Bu mənada ki, ölkədə özbaşınalıq, korrupsiya halları da çoxalıb. Eyni zamanda, demokratik ənənələr də xeyli zəifləyib. Nəticə olaraq, partiyaların zəifləməsi təkcə onların özləri üçün yox, cəmiyyətə də mənfi təsir edib. Ona görə də hesab edirəm ki, partiya rəhbərləri bunu nəzərə alaraq, cəmiyyətin maraqlarını hər şeydən üstün tutmalıdırlar. Ancaq bu gün bu mümkün deyil”.

Politoloq Hikmət Hacızadə isə musavat.com-a açıqlamasında bildirib ki, ölkədə iki partiyalı sistemin yaranması mümkündür: “Partiyalar birləşməsələr də, hansısa səviyyədə ittifaqlar yarada bilərlər. Bunu müsbət hal kimi qəbul edirəm. Qoy birləşsinlər. İndi bu birləşmələrin nə qədər davam edəcəyini öncədən söyləyə bilmərəm. Bir daha qeyd edirəm ki, birləşsələr daha yaxşıdır”.

❑ Əli RAİS

## Ermənistan müxalifəti İrəvanda illik yürüşə başladı

### İrəvan paytaxtında insan haqlarının müdafiəsinə həsr olunmuş ənənəvi illik yürüş başlayıb




**APA-nın verdiyi məlumata görə, Erməni Milli Komitəsinin keçirdiyi yürüşə konstitusiya islahatlarına qarşı çıxan “Yeni Ermənistan” Milli Xilas Cəbhəsi də qoşulub. Yürüş iştirakçıları Mərkəzi Seçki Komissiyasının binasına doğru irəliləyirlər. Təşkilatçıların sözlərinə görə, konstitusiya islahatları referendumunda Ermənistan vətəndaşlarının hüquqları kobud şəkildə pozulub.**

Müxalif “İrs” Partiyasının lideri Raffi Ovanisyan ölkədə hələ də siyasi məhbusların olduğunu, Erməni Milli Komitəsinin liderlərindən biri olan Levon Zurabyan isə referendumun keçirildiyi 6 dekabr tarixini sistem zorakılığı günü adlandırıb.

Onu da bildirək ki, İrəvanın Azadlıq meydanında planlaşdırılan mitinqdən öncə polis 3 nəfəri saxlayıb.

YENİ MÜSAVAT
N 276 (6304) 11 dekabr 2015



Ayaz Mütəllibov

# Mütəllibova ağır cavablar- "Sən kimsən bədbəxt adam?.."

## Ayaz Mütəllibovun Elçibəy haqda söylədikləri kəskin reaksiyalar doğurdu; Mirmahmud Mirəlioğlu: "Sayıqlayıb..."

**Azərbaycanın birinci prezidenti Ayaz Mütəllibov modern.az saytına müsahibəsində milli azadlıq hərəkatının lideri Əbülfəz Elçibəy barəsində bildirib ki, o, primitiv millətçi idi: Sitat: "Elçibəyi Heydər Əliyevlə müqayisə etmək düzgün deyil. Onlar arasında yerlə göy qədər fərq var. Heydər Əliyev dahi idi, böyük siyasi təcrübəyə malik idi. Elçibəy isə primitiv millətçi idi. Elçibəy deyirdi ki, Kəlbəcəri vermək lazımdır, təki Ermənistanda demokratiya inkişaf etsin. Onun arxivlərdə bununla bağlı müraciətləri var".**

Məsələ ilə bağlı "Yeni Müsavat"a **Klassik Xalq Cəbhəsi Partiyasının(KXCP) sədri Mirmahmud Mirəlioğlu** danışıb. O, Ayaz Mütəllibovun söylədiklərinə bu cür cavab verib: "Jurnalist etikasına görə müsahiblərə də hörmətlə yanaşılmalıdır. Məncə, bütün jurnalistlər Ayaz Mütəllibova ona görə hörmət edirlər ki, onun artıq yaşı keçib və nə danışdığını bilmir. Bu baxımdan, ona elə suallar vermək lazımdır ki, cavab verə bilsin. Qafası həmin sualları qəbul etsin. Bu, həm də bizim adətlərimizə görə yaşlı adamlara hörmət əlaməti kimi qəbul edilə bilən bir haldır. Ayaz Mütəllibov sayıqlayıb. Ancaq bunu da normal etmək lazım idi. Hər halda Ayaz Mütəllibovun Əbülfəz Elçibəyə qiymət vermək haqqı ola bilər, ancaq qabiliyyəti çatmaz. Bu da yanaşmadan özünü açıq şəkildə göstərir. Ayaz Mütəllibov öz canının qorxusundan atasının yasına gələ bilməyən bir adamdır. Ayaz Mütəllibov canına görə qaçan şəxsdir".

**M.Mirəlioğlu bildirib ki, adam onun keçmişinə də baxanda təəssüf hissi keçirir:** "Ətrafında xeyli ağıllı adamlar olub. Təəssüf edirsən ki, bu cür ağıllı adamlar necə onunla müzakirələr aparıblar, qulaq asıblar. Danışanda ədəb-ərkan çərçivəsində danışmaq lazımdır. Jurnalist hər sualı verə bilər. Cavab verənin qabiliyyəti olmalıdır ki, hansı suala necə cavab verir. Cəmiyyəti, oxucunu nəzərə almaq lazımdır. Bir də faktları unutmaq olmaz. Ayaz Mütəllibovun söylədikləri faktlarla tərs mütənasibdir. Moskvada yaşasaydı başqa şeylər düşünərdik. Ancaq indiki halda bunu ancaq ağıla və yaşa bağlamaq lazımdır. Başqa bir əlacımız yoxdur. O da bizim vətəndaşımızdır. Ancaq ağlını itirmiş vətəndaşımızdır. Belə şeylər olur".

**Əbülfəz Elçibəyin özəl mətbuat katibi Ədalət Tahirzadə məsələ ilə bağlı "Yeni Müsavat"a danışıb. O bildirib ki, Ayaz Mütəllibovu ciddi siyasətçi saymır:** "Ona görə də söylədiklərinə də münasibət bildirmirəm. Söyləyir ki, Elçibəy guya Kəlbəcəri Ermənistana vermək istəyirdi. Ümumiyyətlə, bu ola bilərdimi? Əbülfəz Elçibəy bir qarış torpağımızı belə düşmənə verməzdi. Ayaz Mütəllibov özünün bütün cinayətlərinin hamısını AXC-in üzərinə yıxır. Elə bütün bu açıqlamalar da göstərir ki, o, çox qeyri-ciddi siyasətçidir. Danışdıqları da cəfəngiyyatdır".

**AXP sədri, sabiq baş naziri Pənah Hüseyn** də A.Mütəllibovun fikirləri ilə bağlı açıqlama verib. O bildirib: "Ayaz Mütəllibovun demokratik hərəkatın lideri, Azərbaycan xalqının türk və dünya tarixinə bəxş etdiyi ən böyük şəxsiyyət, mütəfəkkir, dövlət adamlarından biri mərhum prezident Əbülfəz Elçibəyin ünvanına növbəti hədyanlarını nifrət və ikrah hissi ilə oxudum. Əvvəldə deyim ki, Elçibəyin guya Kəlbəcəri verməsi, yaxud "Kəlbəcəri verək Ermənistanda demokratlar hakimiyyətdə qalsın", deməsi barədə söyləntilər alçaqcasına bir yalandır, böhtandır, Elçibəyə çamur atmaq istəyən namussuzların, vicdansızların böhtanıdır. Adam kişi olar, Mütəllibov! Bu gün vəfat etmiş şəxs haqqında danışırsansa, ortaya fakt qoy! Bu yaşında yalan danışma!"

**P.Hüseyn bildirib ki, bir kəsin kiminsə haqqında nələri isə deməsi barəsində danışdığı şəxsdən daha çox, həm də bu deyənin səviyyəsi, mədəniyyəti, tərbiyəsi haqqında məlumatdır:** "Bu dəfə də belədir. Mütəllibov kimi adamın Əbülfəz Elçibəy haqqında nə deməsi Elçibəyə bir şey etməz, olsa-olsa onun özünün necə rəzil, miskin, düşük adam olduğunu göstərir. Mütəllibov, indi riyakarcasına, dilənçi təmənnası ilə yaltaqlıq edib Heydər Əliyevə mədhiyyə deyirsən. Sən hakimiyyətdə olanda çaqqal - çuqqallarını Heydər Əliyevin üstünə qısqırtdığın nə idi? Moskvada olanda ora getdiyi kimi rus nəqliyyat təyyarəsinin yük yerində Bakıya prezident qayıdacağı yuxularını görəndə Heydər Əliyev haqqında hansı təhqirləri yazıb tirajladığın yadından çıxardınmı? İndi ağzını mümlamaq əvəzinə qoca yaşında niyə ətrafa üfunət asqırırsan? İnsanlar var ki, o, zamanından uzaqlaşdıqca daha da böyüyür, ucalır, zirvələşir, aydınlaşır. Elçibəy belə insandır. Adamlar da var ki, öldü, bitdi, qaralıb heç olur. Əbülfəz Elçibəy bu gün həyatda yoxdur. Lakin "mən Elçibəy yolu ilə gedirəm" deyən minlər, on minlər, yüz minlər var . İllər keçəcək, onlar milyonlar olacaqlar. Onların çoxu heç Elçibəyi sağlığında görməyən gənclər, yeniyetmələrdir. İlin bütün bayramlarında valideynlərinin məzarı ilə yanaşı Elçibəyin məzarını ziyarət edənlər var. Sən kimsən bədbəxt adam? Sənin məzarın başına kimlər gələcək, bədbəxt adam? Gələn olacaqmı?"

❑ **Əli RAİS**

# 2013-cü ilin "ağır toplar"ı niyə susublar?

## "Onların sonradan susması, müxalifəti yarı yolda qoyması müxalifətin sıravi üzvlərində uzun illərdir büt kimi baxdıqları liderlərinə inamsızlıq yaradıb"

**2013-cü ilin prezident seçkilərindən öncə qəfil ortaya çıxan, qısa zamanda ənənəvi müxalifət partiyalarını, onlarını liderlərini belə özlərinə biət etdirərək demokratik düşərgənin "ağır topları"na, liderlərinə çevrilən, "mənəm-mənəm" deyən məşhur ziyalılardan xeyli vaxtdır xəbər-ətər yoxdur. Onlar elə susublar ki, ölkədə baş verən heç bir yaxşı və ya pis hadisəyə münasibət bildirmirlər. Həmin "ağır toplar"ın nədən susmaları maraq doğurur.**



**Politoloqa Natiq Miri** bildirdi ki, prosesə səmimi olaraq deyil, Rusiyanın projesi olaraq müvəqqəti dövr üçün qoşulan məşhur simaların sonradan yox olacaqları, susacaqları gözlənilən idi: "Haqqında söhbət gedən dövr 2013-cü il prezident seçkiləri ərəfəsi idi. Müəyyən ziyalılar bir araya gələrək birləşmişdilər. Bu prosesin içərisində özləri də bilmədən iştirakçıya çevrilənlər də var idi. Milli Şura ilə yanaşı, o vaxtkı Ziyalılar Forumunun özünü də məhz Moskvadan gələn ideya əsasında yaratmışdılar. Ancaq bəzi ziyalılar, alimlər bunu bilmədən və müəyyən insanların dəvəti ilə o proseslərdə səmimi olaraq iştirak edirdilər. Bəlli olanda ki, Milli Şura əslində Rusiya modelidir və Kremlin hakimiyyətdən istədiklərini alması üçün düşünülmüş projedir orada səmimi iştirak eləyən səmimi ziyalılar mənəvi cəhətdən ciddi zərbə almış oldular. Ona görə də bu prosesdən geri çəkildilər. Onlar öncə fərqində deyildilər ki, proje Rusiyanındır. Rusiyanın planlarında bilərəkdən yer alanlar isə Kreml öz istədiklərini Bakıdan aldıqdan sonra göstərişlə susdular, müxtəlif bəhanələrlə geri çəkildilər, bəzilərini isə Azərbaycan hakimiyyəti sıxışdırıb qorxutdu. Həmin "yeni liderlər" onların üzərinə qoyulmuş missiyanı başa çatdırdıqları üçün artıq yoxdurlar, görünmürlər, səsləri çıxmır. Ziyalılar Forumu və Milli Şuranın əsas fiqurlarının əksəriyyəti məhz bu aqibəti yaşadılar. Hələ də ortadan qeyb olmaları, susmaları bununla bağlıdır".

**N.Miri vurğuladı ki, o adamlar əslində mübarizə adamı deyildilər. Zaman göstərdi ki, o adamlar xalqa saxta liderlər olaraq sırınırmışlar**: "Ziyalılar Forumu və Milli Şuraya səmimi olaraq qoşulmuş tanınmış simalar da həmin o saxta "ağır toplar"ın hansı oyunun içində olduğunu bildikdən sonra onlardan üz çevirdilər".

**Ekspert onu da dedi ki, müxalifət partiyalarının və liderlərinin zəifliyi, qətiyyətsizliyi də siyasətlə əlaqəsi olmayan adamların ortaya çıxarılıb faktiki olaraq bir müddət müxalifətin söz sahibinə, ağır toplarına çevrilməsinə şərait yaratmışdı:** "Belə "ağır toplar"ın sonradan susması, müxalifəti yarı yolda qoyması müxalifətin sıravi üzvlərində uzun illərdir büt kimi baxdıqları liderlərinə inamsızlıq yaratdı. Sıravi müxalifətçilər və cəmiyyətin fəal kəsimi müxalifət partiyalarının rəhbərlərini Rusiyanın planı ilə xalqa sırınan saxta liderlərə inandıqları, onların projesinə qoşulmalarına, bayraqlarının altına keçmələrinə görə hələ də qınayırlar. Diqqət etdikdə görərik ki, ənənəvi demokratik qüvvələr məlum projenin və "ağır toplar"ın vurduğu zərbədən bu gün də özünə gələ bilmir. Çox insanlar, o cümlədən səmimi ziyalılar küsüb aralanıblar.

Eyni zamanda indiki şəraitdə heç bir ziyalı özünü qurban vermək istəmir. Çünki onların özlərini indiki şəraitdə qurban verməsi cəmiyyətdə heç nəyi dəyişdirməyəcək. Ona görə ki, mənəvi-psixoloji baxımdan bu gün cəmiyyət buna hazır deyil. Cəmiyyətdə böyük bir inamsızlıq var".

❑ **Etibar SEYİDAĞA**

# Müsavat başqanının müavininin məhkəməsi keçirilib

## Elman Fəttah: "Tələm-tələsik məhkəmə keçirilərək ərizəsinin rədd edilməsi haqda qərar verilib"



**Dekabrın 8-da həbsdəki Müsavat başqanının müavini Yadigar Sadıqovun cəzasının çəkilməmiş hissəsinin başqa cəza ilə əvəz olunması barədə müraciətinə baxılıb. Qaradağ Rayon Məhkəməsində keçirilən prosesdə vicdan məhbusunun müraciəti təmin olunmayıb.**

Bu barədə **Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsinin sədri Elman Fəttah** məlumat verib: "Dekabrın 8-da Yadigar bəyin məhkəməsi oldu. O, noyabr ayında cəzasının çəkilməmiş hissəsinin başqa cəza növü ilə əvəz edilməsi haqda Qaradağ Rayon Məhkəməsinə ərizə vermişdi. Məhkəmə dekabr ayının 4-nə təyin olunsa da, anidən və izah edilmədən təxirə salınmışdı. Yenə də xəbər verilmədən tələm-tələsik məhkəmə keçirilərək ərizəsinin rədd edilməsi haqda qərar verilib".

**Xatırladaq ki, Y.Sadıqov 2013-cü il iyunun 27-də Lənkəran sakini Rəşid Kərimovun şikayəti əsasında şübhəli şəxs kimi həbs edilib. O, Cinayət Məcəlləsinin 221.3 (silah və ya silah kimi istifadə edilən predmetdən istifadə ilə xuliqanlıq) maddəsi ilə cinayət işi açılıb. Məhkəmə hökmü ilə başqan müavini 6 il müddətinə azadlıqdan məhrum edilsə də, növbəti instansiya məhkəmələri onun həbs cəzasını 3 il yarıma qədər endiriblər.**

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 276 (6304) 11 dekabr 2015



# Yapçının Yaponiya müqayisəsi

Zamin HACI
zaminhaci@gmail.com

**Telman İsmayılov adlı milyonçu vardı, Allah heç qoymasa bizim həmyerlimiz sayılır. Hardasa Göyçayda doğulub yanılmıramsa. (Heç dəqiqləşdirməyə ehtiyac duymadım). Moskvada bazar işlədirdi. Türkiyədə hotel açmışdı. Dünən isə rus saytlarında xəbər oxudum: İsmayılov iflasa uğradığını elan edib, bunu qeydə almaq üçün uyğun orqanlara üz tutub.**

Elə həmin xəbərin yanında başqa informasiya vardı: informasiya texnologiyaları üzrə dünyanın varlı biznesmenləri mükafat təsis ediblər. Yuri Milner (mail.ru-nun şeflərindən biridir), Mark Zukerberq (Facebook), Sergey Brin (Google) və başqalarının maliyyələşdirdiyi mükafat tibb, biologiya sahəsində böyük uğurlara görə hər il verilir. Ödülün məbləği illik 3 milyon dollara yaxındır. Nobel ödülündən iki dəfə çox. Telman İsmayılovun Cenifer Lopezə ödədiyi qonorarın iki misli. Adam öz ad gününə Lopezi gətirmək üçün 1 milyon 400 min dollar vermişdi.

Bax, adamı düşündürən elə budur. Necə olur ki, dünyaya çıxan bir azərbaycanlı (milliyyətindən asılı olmayaraq) hansısa yaxşı, xeyirxah işləriylə deyil, hansısa tələbəni oxutması, bir alimə mükafat, təqaüd verməsi ilə deyil, düşük, səfeh və görməmiş ad günü tədbirləri ilə yadda qalır? İsmayılov vaxtilə milyarder idi, indi deyirlər milyonçuya düşüb. Bundan kimə nə? Dünyada inanmıram bu hadisəyə dilxor olan 3-4 adam tapıla. İsmayılovun ad günlərində pul səpələyən Ziya Məmmədovu, Allahşükür bəyi, Abbas Abbasovu və pula görə gələn manısları çıxmaq şərtiylə. Ən gülüncü odur ki, adam saat kolleksiyası yığırdı. Zamanın qədrini bilməyən birisi...

Əlbəttə, burda qazanılan pulun mənbəyi də görünür rol oynayır. Düzgün qazanan adamlar, dini terminlə desək, halal işləyənlər halal da yaşayırlar.

Söz müqayisədən düşmüşkən, dünən "Yeni Müsavat"da YAP deputatı Səyavuş Novruzovun müsahibəsində bir müqayisə oxudum. Xəzərdə neft özülündəki qəzanı Yaponiyada 2011-ci ildə olan zəlzələ və sunamiyə bənzədib, deyir neynəyək, təbii fəlakət hər yerdə var. Ancaq orda yoldaş Novruzov açıq şişirtməyə yol verib. Deyir Yaponiyada o zəlzələdə 30 min adam öldü, 11 bal gücündə fəlakət oldu. Əslində zəlzələ 9 bal olmuşdu, ölü sayı da 15 min nəfər idi. Yaponların itkisini iki dəfə artırmaq bir yapistə nə verir? Üstəlik, dalğa hündürlüyü 15-20 metrə çatan okean sunamisi ilə Xəzərdəki 5-6 metrlik fırtına dalğasını müqayisə eləmək təxminən yapon imperatoru Akihito ilə Salyanın icra başçısı Tahir müəllimi müqayisə eləmək kimi bir şeydir.

Ancaq Səyavuş müəllim yaponlarla müqayisəyə başlayıbsa, nə deyə bilərik? Dəstəkləyirik, davamını yazırıq. Örnək üçün, yoldaş Novruzov gərək Yaponiyanın baş naziri Naoto Kan-ın həmin zəlzələdən sonra vəzifəsindən istefa verdiyini də deyərdi. Naoto yoldaş yaxşı işləmədiyini, reytinqinin düşdüyünü görüb işdən getmişdi. Halbuki heç 1 il deyildi baş nazir olması! Yəni, Səyavuş müəllim bu dünyada cəmi 10 ay işləyən baş nazirlərin yaşadığını bilirmi? Hardan bilsin... Heç lazımı da deyil. Tələb eləyən olmayandan sonra, nəyinə gərəkdir? Bizdə əlli dənə fəlakət, yüz dənə uğursuzluq olsun, bir nəfər istefa verməz. Azərbaycanda dövlət xadiminin axırıncı istefası 1999-cu ildə qeydə alınıb. Adamlar kreslodan ya birbaşa qəbir evinə, ya da zindana gedirlər. Üçüncü yol yoxdur.

**Sonda uca millətimizin nəzərinə çatdırım ki, Səyavuş müəllimin hazırkı köhnə-təzə deputatxanada yeni bir vəzifəsi vardır: o, yeni yaradılan "İctimai birliklər və dini qurumlar komitəsi"nin sədridir. Əla seçimdir. Təbrik edirəm. Bu saat o vəzifəyə ən layiqli yoldaş Səyavuş müəllimdir. Elə bil müflis olmuş Telman İsmayılovu "Cenifer Lopes adına sığorta fondu"na müdir qoyursan.**

# Kreml Bakının Türkiyəyə verdiyi "nəfəsini" qapatmaq istəyir

**Rusiya ilə Türkiyə arasında yaşanan gərginlik artdıqca, bu olaylar Azərbaycana da sürətlə sirayət etməkdədir. Məlumdur ki, dekabrın 1-dən Kreml administrasiyası Türkiyəni cəzalandırmaq üçün bu ölkəyə iqtisadi sanksiyalar tətbiq edib, qardaş ölkədən ixrac olunan əksər məhsullara qadağa qoyub. Amma bununla da sakitləşməyən Rusiya türkiyəli iş adamlarının başqa ölkələrə apardığı məhsullara da ciddi əngəl yaradır. Belə ki, Türkiyəyə məxsus yük maşınları Gürcüstandan Rusiyaya keçə bilmirlər.**




# Moskva - Ankara gərginliyi Azərbaycana sıçradı

Rusiya İctimai Palatasının sədr müavini Xəzərdən daşınan türk mallarının qarşısını almağa çağırdı; Azərbaycan hakimiyyətinin qardaş ölkəyə xüsusilə yüklərin daşınmasında göstərdiyi dəstək, Bakı-Aktau-Bakı istiqamətləri üzrə tarifləri aşağı salması Kremli bərk qıcıqlandırıb; şimal qonşumuz çalışır ki, ölkəmizin bu davada türklərə tərəf olmasını loyallaşdırsın...

**Türkiyə xarici işlər nazirinin və baş nazirinin Bakıya səfərlərində Azərbaycan hakimiyyətinin qardaş ölkəyə xüsusilə yüklərin daşınmasında göstərdiyi dəstəyin, prezident İlham Əliyevin Bakı-Aktau-Bakı istiqamətləri üzrə dəniz yolu ilə daşıma tariflərini 20%-dək aşağı salmasına göstəriş verməsinin Kremli qıcıqlandıracağı gözlənilən idi.** Türkiyəyə baş nazirinin Bakı səfərində Putinə "ağıllı ol" kimi yozulan mesajlarından dərhal sonra "Günəşli" neft yatağındakı qəza bəzi şübhələrə yol açıb. Qarabağ cəhbəsindəki son günlər artan gərginliyi də Rusiyanın Bakıdan narazılığının göstəricisi kimi izah edənlər var.

Dekabrın 10-da isə məlum olub ki, Rusiya Türkiyə TIR-larının Bakı limanından Orta Asiyaya və Avropaya getməsindən narahatdır. Rusiyanın "İzvestiya" qəzeti xəbər verir ki, bu ölkənin dövlət qurumları Azərbaycan və Qazaxıstan ərazisindən tranzit kimi istifadə olunaraq türkiyəli sahibkarlara məxsus meyvə-tərəvəzin ölkəyə gətirilməsinə daha ciddi nəzarət edəcək.

Rusiyanın İctimai Palatasının Ailə, uşaq və anaya dəstək Komissiyası sədrinin birinci müavini Pavel Sıçyov bununla bağlı Rusiyanın kənd təsərrüfatı naziri Aleksandr Tkaçyova, Federal gömrük xidmətinin sədri Andrey Belyaninova və İstehlakçıların Hüquqlarının Müdafiəsi üzrə Federal Xidmətinin rəhbəri Anna Popovaya müraciət edib.(APA).

**Müraciətdə bildirilir ki, türkiyəli sahibkarlar məhz Azərbaycan və Qazaxıstan ərazisindən istifadə edərək öz məhsullarını Rusiyaya çatdırır.** "Məndə olan dəqiq məlumata görə, Türkiyədən olan sahibkarlar öz məhsullarını Rusiyaya çatdırmaq üçün yollar axtarır və bunun üçün adı çəkilən ölkələrin ərazisindən istifadə olunur. Bu, azərbaycanlı təchizatçıların Rusiya bazarında mövqeyini genişləndirmək üçün də yeni imkanlar yaradır. Burada müxtəlif variantlardan istifadə oluna bilər. Bunun qarşısı alınmalıdır" deyə, P. Sıçyovun müraciətində qeyd edilir.

***

Aydındır ki, Türkiyədən son dərəcə qəzəbli olan Rusiyada indilikdə kimsə cəsarət edib hansısa türk məhsullarını ölkəyə keçirməsinə risk edə bilməz. Bu, birbaşa Putinin iradəsinə zidd addım sayılar, buna şərait yaradanlar ən ağır şəkildə cəzalana bilər. İnandırıcı deyil ki, türk iş adamlarının da Rusiyadan çıxarıldığı bir vaxtda hansısa biznesmen öz malını şimal ölkəsinə, həm də qaçaqmal yolu ilə keçirməkdə həvəsli olsun. Bu səbəblərdən də Rusiya rəsmisinin bu mövqeyi əslində narazılığı əsl mahiyyəti gizlətməyə hesablanıb. Rusiya istəyir ki, Türkiyənin hər tərəfdən "boğulmasını" təmin etsin və bu sırada nə qədər əcaib səslənsə də, Bakını da görmək istəyir. Bu mümkünsüz olsa da, Rusiya arzu edir ki, heç olmasa yüklərin Bakı vasitəsilə daşınmasının qarşısını alsın, Azərbaycanı bu davada tərəf olmasını loyallaşdırsın.

***

**Orta Asiya respublikalarına Rusiyadan keçməklə gedən Türkiyəyə məxsus yük maşınları bir neçə gündür ki, Azərbaycandan keçməklə öz məhsullarını digər ölkələrə çatdırılar.** Beynəlxalq Yükdaşımalar Birliyininin icraçı direktoru Fatih Şener bir neçə gün əvvəl Azərbaycan prezidentinə bu dəstəyə görə minnətdarlığını bu ifadələrlə bəyan edib: "Azərbaycan əlacsız vəziyyətdə qalmış yük maşınlarımıza sahib çıxdı". O bildirib ki, Orta Asiya, Qafqaz və Türkiyəni bir-birinə bağlayan bu dəhlizin həmişə işləməsini arzu edirlər.

Rusiya mənbələrinin yazdığına görə, 1 konteynerin Rusiyadan keçməsi təxminən 10 min dollara başa gəlir və 10 sutkaya qədər çəkir. Amma dəniz yolu ilə yüklər 20-30 günə gedir və üstəlik indi daha ucuz...

Rəsmi Bakı Qazaxıstanın Aktau və Türkmənistanın Türkmənbaşı limanlarına istiqamətlənmiş iritonnajlı yük avtonəqliyyat vasitələri üçün tranzit gediş-gəliş xərcləri təqribən 40% aşağı salınıb. Eyni zamanda, Bakı-Aktau-Bakı istiqamətləri üzrə dəniz yolu ilə daşıma tarifləri də 20%-dək aşağı salınıb və hər iki istiqamət üzrə birlikdə 2100 ABŞ dolları həcmində müəyyənləşdirilib. Bununla da, hər bir iritonnajlı yük avtonəqliyyat vasitəsi üçün hər gediş-gəliş tranzit xərcləri hər iki istiqamət üzrə birlikdə təxminən 2600 ABŞ dolları təşkil edir.

***

**Türkiyəli iş adamlarının öz yükdaşımalarını daha çox Azərbaycan ərazisi vasitəsilə daşıması ölkəmiz üçün həm də əlavə gəlir deməkdir.** Ona görə də Azərbaycan yükdaşımaların həcminin artmasında birmənalı şəkildə maraqlıdır. Prezident bu məqsədlə oktyabrın 21-də Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradıb. İqtisadiyyat və sənaye naziri Şahin Mustafayevin rəhbərlik etdiyi Koordinasiya Şurasına nəqliyyat nazirinin müavini Musa Panahov, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev də daxildir.

Əslində, yükdaşımalar Azərbaycan üçün qeyri-neft sektorunun inkişafında əsas istiqamətdir. Nəzərə alaq ki, Ələtdə xüsusi port yaradılır və Bakı-Tiflis-Qars dəmiryolu xətti istifadəyə verildikdən sonra yükdaşımaların artması Azərbaycan üçün qeyri-neft sektorunda əsas prioritet istiqamətlərdən biri olacaq. Bu isə dövlət büdcəsinə daxil olan vəsaitlərin həcminin artmasına imkan verəcək. Yeri gəlmişkən, prezident İlham Əliyevin Çinə səfərində əsas məqsədlərdən biri gələn il istifadəyə veriləvək Bakı-Tiflis-Qars dəmiryolu vasitəsilə yaxınlarda istifadəyə Çin mallarının Azərbaycan üzərindən Avropaya daşınmasıdır.

**Rusiya Xəzərdən Suriyanı raketlə vurması, dəniz hövzəsində təlimlərin ard-arasının kəsilməməsi Kremlin xəzəryanı ölkələrə hədəsi kimi də başa düşülür. Rusiya indi çox aqressivdir və hər tərəfə "od püskürür", digər dövlətlərin maraqlarını sanki qəbullana bilmir. Azərbaycan Gürcüstanın iqtisadi sanksiyalara məruz qalanda da, Türkiyə məsələsində də müstəqil dövlət maraqlarından çıxış edir. Bu isə Rusiyanı qəzəbləndir və son bəyanat bunu bir daha göstərir...**

❑ **"Yeni Müsavat"**

# Ölkəmiz iki od arasından necə çıxmalı?

## Sülhəddin Əkbər: “Azərbaycanda Türkiyənin hərbi bazaları qurulmalıdır”

**Azərbaycanın ətrafında olan böyük dövlətlər arasında gərginlik getdikcə artır. Rusiya-Türkiyə qarşıdurmasına İran da müdaxilə etməyə başlayıb. İran son günlər atdığı bir neçə addımla Rusiyaya dəstək nümayiş etdirmiş oldu. Ekspertlər bildirir ki, sərhədlərində olan üç böyük dövlətin arasında qarşıdurmanın dərinləşməsi Azərbaycanın iki od arasında qalmaq təhlükəsini yaradır.**

Bir sıra ekspertlərin fikrincə, Rusiya dünyada kəskinləşən geopolitik qarşıdurmada əsas tərəfə çevrilməsi ilə Azərbaycanı da müəyyən proseslərə qoşmağa çalışır. Azərbaycanı indi “Günəşli”dəki məlum faciə ilə sözün əsl mənasında odla-su arasında qalıb. Amma ətrafda yanğını söndürməkdən daha çox, atəşin alovlanmasını istəyənlər var. Bu səbəbdən də Azərbaycan diqqətli olmalıdır, həm də əvvəlkindən daha çox diqqətli...

Eyni zamanda, belə vəziyyətdə Azərbaycanın nələri etməli olduğu məsələsi aktuallaşır. **Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** bu barədə danışarkən bildirdi ki, Azərbaycan mürəkkəb coğrafiyada, öz tarixi coğrafiyasının yalnız bir hissəsində müstəqil dövlət qurub və bu milli dövlətin ərazisinin bir hissəsi Rusiyanın dəstəyi ilə Ermənistan tərəfindən işğal olunub. Belə bir mürəkkəb coğrafiyada yerləşən, təhlükəsizlik sərhədində olan bir dövlətin milli resurslarının məhdud olduğunu nəzərə alsaq, ciddi müttəfiqləri olmadan rahat yaşamaq şansı yoxdur. Onun öz-özünə strateji gücü təkbaşına yetərli deyil: “Bu o deməkdir ki, Azərbaycanın beynəlxalq etibarlı təhlükəsizlik təminatı olmalıdır. Beynəlxalq təhlükəsizlik təminatı olmasa, Putin Rusiyası, teokratik İran və işğalçı Ermənistan arasında Azərbaycanın təkbaşına uzun müddət yaşaması mümkün olmayacaq. Üstünə gəlsək dünyada qlobal miqyasda geopolitik, geostrateji qarşıdurmanın kəskinləşdiyini və kəskinləşmənin cəbhələşməyə gətirib çıxardığını, bu cəbhə xəttinin də Azərbaycandan keçdiyini, Rusiya ilə Türkiyə arasında böhranın yarandığını, onda vəziyyətin nə dərəcədə ağır olduğu aydınlaşar. Yəni Azərbaycan əlverişsiz beynəlxalq əhatədə yerləşir və bu əlverişsiz beynəlxalq əhatə də yaranmış əlavə problemlərlə daha da ağırlaşıb. Belə bir şəraitdə Azərbaycan ilk növbədə demokratikləşmə xəttini götürməlidir, strateji seçim etməlidir, demokratik dünya ilə inteqrasiyaya getməlidir, Avropa Birliyi və NATO ilə birləşmə yolunu tutmalıdır. Azərbaycan bunları etməlidir ki, beynəlxalq təhlükəsizlik təminatını ala, əlverişsiz xarici əhatədə öz təhlükəsizliyini təmin edə bilsin”.

**S.Əkbər həmçinin vurğuladı ki, ilk növbədə Türkiyə ilə sıx hərbi-siyasi müttəfiqlik münasibətləri qurulmalıdır:** “Bilirsiz ki, Avropa Birliyi və NATO uzun bir yoldur, lakin buna qədər də Azərbaycanın atacağı addımlar var. Birincisi, Azərbaycan təbii müttəfiqi olan qardaş Türkiyə ilə münasibətləri hərbi-siyasi müttəfiqlik səviyyəsinə qaldırmalıdır, Azərbaycanda Türkiyənin hərbi bazaları qurulmalıdır. İlk növbədə bu iş Naxçıvandan başlamalıdır. Çünki birbaşa fiziki coğrafi bağlantı var Naxçıvanla. Yaranmış indiki şəraitdə Azərbaycanın atmalı olduğu ilk ciddi addım bu olmalıdır”.

**Həmsöhbətimiz ilk növbədə atılmalı ikinci addımın isə ABŞ-dan “NATO-dan kənar əsas müttəfiq statusu” almaq olduğunu vurğuladı:** “Azərbaycan çalışmalıdır ki, NATO-ya üzvlük yolu yubansa da ABŞ-dan ”NATO-dan kənar əsas müttəfiq statusu" alsın. Bilirsiniz ki, ABŞ 16 ölkəyə belə status verib. Həmin 16 ölkənin səkkizi müsəlman ölkəsidir. Bu, o deməkdir ki, Azərbaycan da istəsə “NATO-dan kənar əsas müttəfiq statusunu ala bilər. Yəni NATO-ya üzvlüyə qədər Azərbaycan bu iki yolun ya birini, ya da hər ikisini asanlıqla çəkə bilər. Bununla paralel olaraq Avropa Birliyinə və NATO-ya üzvlük xəttini götürmək lazımdır”.



### “ABŞ-dan “NATO-dan kənar əsas müttəfiq statusu” almaq lazımdır”

**S.Əkbər onu da qeyd etdi ki, eyni zamanda, Azərbaycan daxilində demokratikləşmə yolunu seçməlidir, müxalifətlə sözün həqiqi mənasında dialoq başlamalıdır, ölkə daxilində milli birlik ilk növbədə təmin olunmalıdır:** “Milli birlik təmin olunmadan ağır vəziyyətdə xarici təcavüzlərə, basqılara qarşı direniş göstərə bilmək qeyri-mümkündür”.

**AzDP sədri bildirdi ki, iki od arasında sıxışıb yanmamaq üçün atılmalı daha bir addım hakimiyyətin sıralarının Rusiyanın “beşinci kolon”undan təmizləməsi olmalıdır:** “Hakimiyyət təmizləmə aparıb vətənpərvər, intellektual, peşəkar mütəxəssisləri, texnokratları cəlb eləməlidir. Bu iş sonadək həyata keçirilməsə, Rusiya istədiyi vaxt istədiyi təxribatı törədə, istədiyi təsiri göstərə bilər. Hətta hakimiyyət dəyişikliyi də həyata keçirə bilər. Ordu daxilində də Rusiyaya bağlı olan adamlar var. Paralel olaraq bunlar da təmizlənməlidir. Çünki Ermənistanla müharibə ciddi qaynar fazaya keçdiyi təqdirdə Rusiya ordu daxilində də istədiyi hərəkətləri eləyə bilər. Bir sözlə, Azərbaycanın yaranmış indiki vəziyyətdə təhlükələrdən yan keçməsi, özünü qoruması üçün atmalı olduğu addımlar çoxdur. Bu addımların atılması ilk növbədə hakimiyyətin üzərinə düşür”.

**S.Əkbər sonda bəyan etdi ki, qeyd olunanları etmək üçün əsas məsuliyyət hakimiyyətin üzərindədir. Təkliflərə diqqətlə yanaşılmalıdır:** “Tərəddüdlər içində qalanda Azərbaycana hər iki tərəfdən etibarsız göz ilə baxılır. Bu isə ölkəmizin zərərinədir. Odur ki, Azərbaycan mütləq tərəf seçməlidir və etibarlı olduğunu göstərməlidir ki, etibarlı müttəfiqlərinin sayı çox olsun və lazım gələndə müttəfiqlərinin müdafiəsi ilə əhatələnsin”.

❑ Etibar SEYİDAĞA

# Azərbaycan qazının Avropaya nəqlinə dair vacib saziş imzalandı

## İGB Azərbaycan qazının Avropa bazarına çıxarılmasını nəzərdə tutan Cənub Qaz Dəhlizinin komponentidir

**Sofiya şəhərində (Bolqarıstan) Azərbaycanın “Şahdəniz” yatağının ikinci mərhələsi çərçivəsində hasil olunacaq təbii qazın Avropaya nəqli çərçivəsində Bolqarıstana qaz almaq imkanı verən, Yunanıstan və Bolqarıstanın qaz sistemlərini birləşdirən qaz xəttinin (İnterconnector Greece-Bulgaria - İGB) tikintisi üzrə yekun investisiya sazişi imzalanıb.**

“Report” Bolqarıstan mətbuatına istinadən xəbər verir ki, sazişi Bolqarıstanın EAD Enerji Holdinqi və Yunanıstanın “Poseidon S.A” investisiya şirkəti imzalayıb.

Bolqarıstanın energetika naziri Temenuzka Petkova imzalanma mərasimindən sonra qeyd edib ki, bu sazişlə təkcə Bolqarıstan və Yunanıstan üçün deyil, bütün Cənubi Avropa üçün strateji əhəmiyyət daşıyan bir layihənin həyata keçirilməsinə başlanılır.

Qeyd edək ki, bu layihə Azərbaycan qazının Avropa bazarına çıxarılmasını nəzərdə tutan Cənub Qaz Dəhlizinin komponentidir. Trans-Adriatik boru kəməri (TAP) ilə Avropaya nəql olunacaq Azərbaycan qazının bir hissəsi IGB kəməri ilə Bolqarıstana çatdırılacaq.

Xatırladaq ki, 180 km uzunluğu olan IGB Bolqarıstan-Yunanıstan birgə müəssisəsi (EAD - 50%, “Poseidon S.A” - 50%) tərəfindən inşa olunacaq. “Poseidon S.A.”da Yunanıstanın DEPA şirkəti 25%, İtaliyanın “Edison” şirkəti isə 25% paya malikdir.

**İllik ötürücülük qabilliyəti 3 mlrd. kubmetr nəzərdə tutulan kəmərin 2016-cı ilin oktyabr ayında inşasına başlanılması planlaşdırılır. IGB kəmərinin tikintisinə dair investisiya razılaşmasının imzalanması bu il iki dəfə təxirə salınıb.**

# Merkel “İlin adamı” adına haqq edirmi...



## Məlahət İbrahimqızı: “Sorğu nəticəsinin ədalət və subyektivliyinə şübhə ilə yanaşıram”

## Ellada Məmmədli: “O, istər Avropa, istərsə də dünya siyasətinə bacardığı qədər öz töhfəsini verə bilir”

**ABŞ-ın “Time” jurnalı Almaniya kansleri Angela Merkeli “İlin adamı” seçib. Bu barədə “NBC news” telekanalında məlumat verilib. Dünya siyasətçiləri bu məsələ ilə bağlı fərqli fikirlər səsləndirdilər; bəziləri Merkelin bu nominasiyaya layiq olduğunu, digərləri isə nəticənin ədalətsiz olduğunu bildiriblər.**

Bəs Azərbaycanın xanım siyasətçiləri bu xəbəri necə qarşıladı?

**Deputat Məlahət İbrahimqızı** məşhur “Time” jurnalının soğusunun nəticəsini ədalət və subyektivliyinə şübhə ilə yanaşdığını deyib: “Adı çəkilən jurnal beynəlxalq aləmdə tanınan bir nəşrdir. Onun özünün öz standartları, kriteryiaları var və buna uyğun da hər il sorğular keçirir. Keçirilən sorğuda BMT-yə daxil olan 193 ölkənin dövlət və hökumət başçılarının bir il ərzində gördükləri işlər, fəaliyyətlərinin nəticəsi qiymətləndirilir. Bu gün Almaniya dünyanın aparıcı, iqtisadi baxımından ən güclü və ən zəngin ölkələri sırasındadır. Merkel həqiqətən də dünya, Avropa, Avropa Birliyində, o cümlədən alman siyasətində çox tanınmış bir siyasətçidir. O, son illərdə Gürcüstan hadisələrindən tutmuş, Avropa Birliyinə qəbul məsələsində, Avropada baş verən proseslərlə bağlı öz ölkəsinin, Avropanın marağı üçün xeyli sayda işlər görüb. Bu mənada sorğu nəticəsində Merkelin ilin adamı seçilməsi gözlənilən idi. Amma bir sıra beynəlxalq təşkilat və mətbuatlar da daxil olmaqla onlar demək olar ki, tərəfkeşlik edir, beş-altı altı lider var ki, onları öyməklə məğuldurlar. Merkel bir neçə il bundan əvvəl də ”İlin adamı" seçilmişdi və yenidən bu nominasiyaya layiq görməklə sadəcə onu yenidən gündəmə gətirirlər. Fikrimcə, əslində bu il Avropa ölkələrindən heç kim bu nominasiyaya layiq deyildi, mən o sorğunun nəticəsinə bir qədər şübhə ilə yanaşıram. Bildiyiniz kimi Orta Doğudan, Suriyadan gələn qaçqınlara çox pis münasibət bəslənildi. Aralıq dənizinin sularında onlarla, yüzlərlə qaçqın uşaqları boğuldu. Buna baxmayaraq, Avropa öz qapılarını qaçqınların üzünə bağladı. Sərhədləri sanki sədd kimi hörürdülər ki, qaçqınlar gəlməsin. İnsan hüquqularından danışıb, insanların ən ali hüququ olan yaşamaq haqqı əlindən alınan, dəniz sularında batan qaçqınlara qarşı bu cür mövqe göstərən dövlətlərin siyasətçilərinə, dövlət adamlarına “İlin adamı” demək olarmı?! Mən təəccüb edirəm. Merkeli iki ildən bir “İlin adamı” seçirlər. Bu artıq subyektivlik deyil. Sanki Təhlükəsizlik Şurasının beş üzvü var və həmin beş üzv istədilkəri qərarları verir, veto qoyur, dünyanın 193 ölkəsinin taleyini onlar həll edir və s. Bu cür hallar ədalət və subyektivliliyə şübhə yaradır".

**ADR sədri Qubad İbadoğlunun müavini Ellada Məmmədli** isə Angela Merkelinin “İlin adamı” seçilməsini təqdirə layiq hesab edib: “Merkelinin siyasətini bəyənir və kifayət qədər də dəstəkləyirəm. Bu münasibətlə onu təbrik edirəm. Angela Merkeli istər öz milləti, istər Avropa, istərsə də dünya siyasətinə bacardığı qədər öz töhfəsini verə bilir. Hətta Suriyadan qaçan qaçqınlara qucaq açması, onlarla bağlı öz humanizmiliyini nümayiş etdirməsi təqdirə layiqdir. Baxmayaraq ki, digər ölkələr bundan imtina etdilər”.

E.Məmmədli Azərbaycandakı xanım siyasətçilərinin hazırkı fəaliyyətindən də söz açıb: “Hazırda qadın siyasətçilərimiz öz siyasi sözlərini demək üçün meydanlar axtarırlar. Çox təəssüf ki, bu meydanlar bəzən qadınların üzlərinə qapalı olur, lakin buna baxmayaraq xanımlar səy göstərirlər. Ümid edirəm ki, nə vaxtsa Azərbaycanda da bu cür xanımlar olacaq, onlar öndə gedəcək, öz xalqı üçün əllərindən gələni edəcəklər”.

Qeyd edək ki, bu ilin namizədləri sırasında Rusiya prezidenti Vladimir Putin, amerikalı milyarder Donald Tramp, eləcə də İran prezidenti Həsən Ruhani də olub.

Angela Merkeli “Time” jurnalının tarixində “İlin adamı” seçilən ilk siyasi qadın deyil. Bundan öncə ilk dəfə 1936-cı ildə Wallis Simpson “İlin adamı” elan olunub. O, dövrünün ən tanınmış və mübahisəli Britaniyalı siyasətçisi olub.

**Adıçəkilən jurnal ənənəvi olaraq özünün hər il sonuncu dekabr nömrəsində “İlin adamı”nı elan edir. Məlumat üçün bildirək ki, bu nominasiya 1927-ci ildən verilir. İlk dəfə bu ada keçmiş təyyarəçi Çarlz Lindberq layiq görülüb.**

**Bu nominasiyaya layiq görülənlərdən ən maraqlılarını təqdim edirik:**

1930-cu ildə Mahatma Gandi. İlk qeyri-amerikalı şəxs olmuşdu.

Franklin D.Ruzvelt 3-dəfə - 1932-1934-1941-cü illərdə layiq görülüb. Və “İlin adam”ı olan ilk ABŞ prezidenti olub.

1938-ci ildə Adolf Hitler seçilir, lakin jurnalın üz qabığında şəkili çıxmayan ilk şəxs olur.

1939-1942 -ci illərdə Stalin “İlin adamı” seçilməklə, bu ada layiq görülən ilk gürcü, ilk SSR-i yönəticisi, ilk kommunist olaraq tarixə düşüb.

Çörçil 1940-cı və 1949-cu illərdə “İlin adamı” olmaqla yanaşı həm də yarım yüzilliyin adamı seçilib.

1962-ci ildə Pope XXIII. Ioannes “İlin adamı” olan ilk Roma papasıdır.

1982-ci ildə isə bu ad personal kompüterə verilir.

Mixail Qorbaçov 1987-1989-cu illərdə seçilir və 10 illiyin adamı elan olunur.

2006-cı ildə bütün dünyada yaşayan insanlar “İlin adamı” seçildilər.

Vladimir Putin - 2007-ci ildə, Barak Obama 2008-2012-ci illərdə, Mark Zuckerberq -2010-cu ildə jurnal tərəfindən seçilmişlər siyahısına birincilik ediblər.

2011-ci il “İlin adamı” onlayn-səsverməsində Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan qalib gəlib. Lakin jurnal “İlin adamı”nı seçmək hüququnu özündə saxlayıb.

**Ötən il jurnal ilin adamı adına Ebola virusu ilə mübarizə aparanları layiq görüb.**

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 276 (6304) 11 dekabr 2015

# Sabiq rəisin vəkili apelyasiya şikayəti hazırlayır

## Akif Əlizadə: "Bu, Rəşad Məmmədovun hüququnun pozulmasıdır"


Rəşad Məmmədov

**Xəbər verdiyimiz kimi, Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin sabiq rəisi Rəşad Məmmədovun və onunla birlikdə həbs edilən - İsfəndiyar İsfəndiyarovla Arzu Məmmədovun barələrində seçilmiş həbs-qətimkan tədbirinin müddəti uzadılıb. Səbayel Rayon Məhkəməsinin qərarı ilə onların hər birinin həbs müddəti 3 ay artırılıb.**

**R.Məmmədovun vəkili Akif Əlizadə** "Yeni Müsavat"a deyib ki, müvəkkili barəsindəki qərarla razı deyillər və şikayət hazırlayırlar: "Həbs müddətini uzadırlarsa, bunun üçün əsaslandırma olmalıdır. Əsaslandırma ümumi sözlərdən ibarət olmalı deyil. Burada insan müqəddəratı həll olunur. Rəşad Məmmədovun bu ilin mayında tutublar. Lakin ötən aylar ərzində hər hansı bir istintaq hərəkəti həyata keçirilməyib. Belə bir halda istintaq müddətinin daha 3 ay uzadılması qanuni ola bilməz. Bu Rəşad Məmmədovun hüququnun pozulmasıdır və müdafiə tərəfi həmin qərardan apelyasiya şikayəti hazırlayır".

**Qeyd edək ki, R.Məmmədov və digərləri Milli Təhlükəsizlik Nazirliyinin (MTN) əməkdaşları tərəfindən bu ilin may ayında tutulub. Hər üç şəxs Bakı sakini Zabil Salmanova münasibətdə dələduzluqda ittiham olunublar. Eldar Mahmudov tutduğu postdan uzaqlaşdırılandan sonra isə Z.Salmanov MTN rəhbərliyinə, baş prokuror Zakir Qaralova rəsmi olaraq müraciət edib. Müraciətində ondan R.Məmmədova qarşı ifadənin zorla alındığını göstərib və onun azad olunmasını xahiş edib. Bildirib ki, R.Məmmədov ona qarşı dələduzluq etməyib. Bu günə qədər həmin müraciətə münasibət bildirilməyib.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# Axtarışdakı şəxsin adı məlum oldu - "Akula Akif"

**Milli Təhlükəsizlik Nazirliyinin yüksək vəzifəli şəxslərinin cinayət əməllərinə görə 21 şəxs məsuliyyətə cəlb edilib. Baş Prokurorluğun yaydığı məlumatda qeyd olunub ki, onlardan 19 nəfər barəsində həbs-qətimkan tədbiri seçilərək istintaqa cəlb olunublar. Bir nəfər isə isintaqdan yayındığı üçün haqqında həbs-qətimkan tədbiri seçilərək axtarışa verilib. Daha bir nəfər barəsində isə başqa yerə getməmək barədə iltizam tədbiri seçilib. Həbs edilənlərin adı açıqlansa da, axtarışda olan şəxsin kimliyi məlum deyildi.**

İstintaqdan yayındığı üçün axtarışa verilən şəxsin adı məlum olub. Bu Mustafayev Akif("Akula Akif") İsmayıl oğludur. Akif Mustafayev bu işdə adaşı Akif Çovdarovun qrupunda yer alıb. O iş adamları ilə adaşı arasında vasitəçi rolu oynayıb. Həmin adamlara kəsilən "xərac"ı A.Mustafayev toplayaraq Çovdarova çatdırıb.

**Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşlarının törətdiyi cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 57 nəfər zərər çəkmiş şəxs qismində tanınıb. Onlara dəymiş ziyanın ümumi məbləğinin on milyonlarla manat olduğu müəyyən edilib. Cinayət məsuliyyətinə cəlb edilən şəxslər xidməti vəzifələrinin icrası ilə əlaqədar qulluq səlahiyyətlərindən sui-istifadə etmə, vəzifə səlahiyyətlərini aşma, gizli qaydada telefon danışıqlarına qulaq asmaqla sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələr, elektron məlumat daşıyıcılarından, informasiya texnologiyalarından istifadə etməklə özgənin əmlakının gizli talanması, Bakı şəhəri və respublikanın müxtəlif bölgələrində iş adamlarının izlənilərək, nazirliyin inzibati binalarına gətirilib qanunsuz azadlıqdan məhrum edilməsi, rüşvət alınması, hədə-qorxu yolu ilə onlara məxsus külli miqdarda nağd pul, daşınar və daşınmaz əmlakın tələb edilib ələ keçirilməsində ittiham olunurlar.**

**Heç bir əlavə etmədən "Yeni Müsavat"da 2011-ci il dekabrın 10-da dərc olunan "Cahangir Hacıyev Beynəlxalq Bankin 1 illik gəlirini mənimsəyib" sərlövhəli yazını təkrar diqqətə çatdırırıq. (http://musavat.com/news/iqtisadiyyat/cahangir-haciyev-beynelxalq-bankin-1-illik-gelirini-menimseyib_113809.html)**

# Cahangir Hacıyev üçün "əcəl zəngi" - 4 il əvvəl yazdıqlarımız...

## "Yeni Müsavat" 4 il öncə yazırdı: "Cahangir Hacıyev ASC-nin əmlakını ələ keçirmək üçün ən müxtəlif üsullardan istifadə edir..."


Cahangir Hacıyev


Xəqani Bəşirov

"Beynəlxalq Bankın rəhbəri Cahangir Hacıyevlə şəriki Xəqani Bəşirovun maxinasiyaları bitib tükənmək bilmir. "Kainat" ASC-nin səhmdarlarından birinin redaksiyamıza yolladığı sənədlərdən bəlli olur ki, cütlük dayanmadan hər cür qanunsuzluq etməklə səhmdarların hüquqlarını pozur, onların şirkətlərdəki paylarını mənimsəyirlər. Bu maxinasiyalardan itirən təkcə səhmdarlar deyil, həm də Beynəlxalq Bankda 50,02 faiz payı olan dövlətdir.

Belə ki, 2010-cu ildə bu bankın 48 milyon manat gəliri olub. Həmin məbləğin 47 milyon 581 min 642 manatı C.Hacıyevlə X.Bəşirovun Şəki filialında yaratdıqları maliyyə maxinasiyalarının ört-basdır edilməsinə yönəlib.

**Bankın Şəki filialında maxinasiyalar isə aşağıdakılardan ibarət olub.**

Cahangir Hacıyev ASC-nin əmlakını ələ keçirmək üçün ən müxtəlif üsullardan istifadə edib. O, şəriki, "Kainat" ASC-nin 73 faizinə sahib olan "Pərvanə" MMC-nin sahibi Xəqani Bəşirovla birgə Beynəlxalq Bankın Şəki filialından cəmiyyətin adına 4 milyon manat kredit götürüb. Kreditlərin qaytarılmasına təminat kimi "Kainat"ın əmlakı banka girov qoyulub. Kredit götürülən 4 milyon manatdan yalnız 1 milyon manatı ASC-yə yatırılıb. Yerdə qalan 3 milyon manat isə mənimsənilib. Cahangir Hacıyev-Xəqani Bəşirov cütlüyünün rəhbərliyi altında alınıb xərclənən vəsaitlərə görə minor səhmdarlardan bəziləri öz əmlakları ilə məsuliyyət daşımağa etiraz edərək məhkəməyə müraciət ediblər. Məhkəmə zamanı bəlli olub ki, "Kainat" ASC-nin idarə heyətinin sədri heç bir girov müqaviləsinə imza atmayıb.

Budəfəki məlumatlarda isə bildirilir ki, "Kainat" ASC-nin idarə heyətinin sədri Teymur Musayev cəmiyyətin banka girov qoyulmasının mümkün olmadığım bildirib. İdarə Heyəti səhmdarları ümid edib ki, ASC banka girov qoyulmayıb. Lakin sonradan girov müqaviləsi səhmdarların əlinə keçəndə onun Teymur Musayev tərəfindən imzalandığı aydın olub. Teymur Musayev həmin müqavilədən xəbərdar olmadığım bildirib. Beləliklə, bankın idarə heyətinin sədrinin imzasını saxtalaşdırması üzə çıxıb.

Müqavilədə başqa maraqlı faktlar da üzə çıxıb. ASC-nin İdarə Heyətinin sədri tərəfindən qiymətləndirilən yenidən tikilən soyuducu anbarının qiyməti 87 min 264 manat müəyyən olunsa da, girov qoyularkən 21 min 544 manat göstərilib. ASC-yə məxsus digər əmlaklarla bağlı qiymətləndirmələr də eyni vəziyyətdir:

- Yenidən tikilən yarımfabrikat sexi 35 min 157 manat qiymətləndirildiyi halda 5 min 999 manat, ət-piy korpusu 109 min 346 manat qiymətləndirildiyi halda 3 min 794 man, iç məhsulları sexi 61 min 135 manat qiymətləndirildiyi halda 15 min 386 manat, inzibati bina 123 min 803 manat qiymətləndirildiyi halda 4 min 470 manat, yeməkxana binası 101 min 198 manat qiymətləndirildiyi halda 3 min 690 manat, istehsalat binası 416 min 829 manat qiymətləndirildiyi halda 296 min 365 manat, şəkər sexi 229 min 469 manat qiymətləndirildiyi halda 167 min 53 manat və kolbasa sexi 148 min 320 manat qiymətləndirildiyi halda 97 min 891 manat göstərilib. Bu faktlar Cahangir Hacıyevin ASC-nin əmlakının ələ keçirilməsi üçün həyata keçirdiyi növbəti maxinasiyadır. Lakin ASC-nin səhmdarları vəziyyətlə barışmaq niyyətində deyillər. Onlar müvafiq qurumlara müraciət edərək müqavilədəki imza saxtakarlığının və Cahangir Hacıyevlə Xəqani Bəşirovun ASC-ilə bağlı həyata keçirdiyi digər maxinasiyaların ciddi araşdırılmasını tələb edirlər. Bildirirlər ki, eyni tələblə maliyyə naziri Samir Şərifova da müraciət ünvanlayıblar".

Göründüyü kimi, indi adları ölkənin bank sistemini çökdürməkdə, iqtisadiyyatımıza "əcəl zəngi" olmaqda çəkilən şəxslər barədə hələ 4 il əvvəldən yazılar var idi. O zaman aidiyyəti orqanlar C. Hacıyevi, onun fəaliyyətini yoxlaya bilsəydi, təbii ki, hadisələrin inkişafı buralara qədər gəlməzdi.

**Lakin etiraf etmək lazımdır ki, o zamanlar C. Hacıyev toxunulmaz statusa malik idi. Qəzetlərdən başqa, hər hansı bir orqan onunla bağlı hansısa araşdırma apara bilmirdi.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# Eldar Mahmudovun MTN təcridxanasındakı yasaqları ləğv olunub

## Cavad Cavadov: "Artıq həbsdə saxlanılan şəxslər qanunun tələbinə..."



**Daxili İşlər Nazirliyinin sabiq baş əməliyyat müvəkkili Hacı Məmmədovun son 10 il ərzində Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Təcridxanasında saxlanılması yenidən gündəmə gəlib. 2007-ci ildə H.Məmmədov və digərləri haqda məhkəmə hökmü çıxarılandan sonra gözlənilənlərin əksinə olaraq H.Məmmədov Qobustan Qapalı Həbsxanasına köçürmədilər.**

Onu Cəzaların İcrası Məcəlləsinə zidd olaraq MTN-in İstintaq Təcridxanasında saxladılar. Son 10 il ərzində bu məsələ zaman-zaman müzakirə mövzusuna çevrilib. Bu müzakirələr zamanı MTN-in İstintaq Təcridxanasında təqsirləndirilən şəxslərin hüquqlarının pozulması da üzə çıxıb. Ümumiyyətlə MTN-in İstintaq Təcridxanasının olmasının qanuna zidd olduğu da belə müzakirələr zamanı xüsusi olaraq vurğulanıb.

Hazırda durum necədir? Eldar Mahmudovun MTN rəhbərliyindən uzaqlaşdırılması orada saxlanılan şəxslərin hüquqlarının reallaşması baxımından dəyişibmi?

**Vəkil Cavad Cavadov** deyir ki, hazırda durum müsbətə doğru dəyişib: "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqda" Azərbaycan Respublikası Qanunun tətbiqinə real olaraq başlanılıb. Bu da göründüyü kimi nazirliyin rəhbərliyinin dəyişməsi ilə bağlıdır. Artıq həbsdə saxlanılan şəxslər qanunun tələbinə görə zəng etmək hüququndan mütəmadi istifadə edirlər və ailələri ilə görüşmək hüququ təmin olunur. Bu təcridxananın hüquqi statusu məsələsini kənara qoysaq bunu müsbət addım kimi dəyərləndirmək lazımdır. Çünki bu hüquqlar bu təcridxanadan indiyə kimi təmin olunmurdu".

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 276 (6304) 11 dekabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# “Azərbaycan ekspansiyanı ən əvvəl Rusiyadan gözləməlidir”

## Ekspertlərə görə, Qarabağ məsələsinin Moskvadan ötrü önəmi Suriya avantürası uğursuzluğa tuş gələndən sonra artacaq; konflikt hələ bir müddət də böyük güclərin ikili standartlarının girovluğunda qala bilər, Qafqaz üzrə ekspert: “Rusiya münaqişədə ikili rol oynayır...”

**Avropa Birliyi (AB) ölkələri dekabrın ortalarında Rusiya əleyhinə iqtisadi sanksiyaların müddətini daha 6 ay uzatmaq fikrindədir. Məlumdur ki, bu sanksiyalar iki ildir Ukraynanın suveren ərazisi olan Krımın zorla Rusiyaya birləşdirilməsi, bununla da Moskvanın beynəlxalq hüquq normalarını ayaqaltı eləməsinə görə tətbiq olunur. AB ilə yanaşı, bəllidir ki, ABŞ da Rusiyaya qarşı sərt iqtisadi-maliyyə sanksiyaları tətbiq edir.**




Özlüyündə Qərbin, beynəlxalq birliyin sanksiyalar yolu seçməsi məntiqli bir davranışıdır. Çünki hər dövlət güclü olduğu üçün öz qonşusunun ərazisini zəbt edəcəksə, bu, az sonra zəncirvari prosesə çevrilərək dünyanın tarazlığını poza, qlobal xaosa gətirə bilər. Ayrı, sözlə, Kremlə qarşı işə salınan sanksiyalar onun kimi oxşar niyyətə düşə biləcək bütün ölkələrə əyani xəbərdarlıqdır.

***

Ancaq əfsuslar olsun ki, eyni yanaşmanı Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonu yenə məhz Rusiyanın köməyi ilhaq eləmiş işğalçı Ermənistana qarşı tətbiq etmək nədənsə Qərbin, ABŞ-ın yadına düşmür. Bu harasıdır, üstəlik, Dağlıq Qarabağdakı separatçı rejimə hər il maliyyə və başqa köməkliklər göstərilir, separatçı liderlərə onların Abxaziyadakı, Krımdakı, Cənubi Osetiyadakı əqidədaşlarından fərqli olaraq həvəslə qucaq açılır.

Elə Rusiyaya qarşı sanksiyaların uzadılması ərəfəsində qondarma “DQR”in “xarici işlər naziri” David Babayan ABŞ-da görüşlər keçirir. Bu görüşlərdən biri ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorliklə Vaşinqtonda baş tutub. Görüşdə saxta qurumun ABŞ-dakı və Kanadadakı “daimi nümayəndəliyi”nin rəhbəri Robert Avetisyan da iştirak edib. İkili standart göz deşir.

Təbii ki, söhbət təkcə ABŞ-ın ikili standartlarındandan getmir. Minsk Qrupunun digər həmsədr ölkəsi Fransanın ermənilərə münasibəti beynəlxalq hüquq baxımından daha acınacaqlıdır. Üçüncü həmsədr dövlət - Rusiyadan isə danışmağa dəymir. Şimal qonşumuz yeri gələndə öz ərazisində separatçı (əslində milli-azadlıq) hərəkatlarını Çeçenistandakı kimi qan gölündə boğur, yeri gələndə isə Abxaziya və Cənubi Osetiyada, Krımdakı kimi dağıdıcı separatizmə hətta hərbi dəstək verir, onları özünə ilhaq edir, suveren ölkələrin ərazi bütövlüyünü pozur.

Dağlıq Qarabağ separatizminin və ərazilərimizin işğalının da 1 nömrəli sponsoru Rusiyadır. Bu da ikili standartın başqa bir formasıdır.

***

Hazırda Rusiya Qarabağ məsələsində ədalətli vasitəçi olmaqdan çox öz yeni imperiya ambisiyalarını Qərbə qəbul etdirmək cəhdlərində bulunmaqdadır. Nəzərə alanda ki, Qarabağ konfliktinin həllinə ən böyük təsir rıçaqları məhz Kremlin əlindədir, o zaman bu ölkənin yaxın perspektiv üçün planlarını izləmək Azərbaycan üçün heç də az önəm daşımır.

Əksər təhlilçilərə görə, Rusiya Suriyada bataqlığa girib və oradan o, uduşsuz çıxacaq. Bəs sonra? Rəsmi Kremlin planlarında Güney Qafqazın, Qarabağ məsələsinin önəmi hansı səmtə dəyişə bilər? Putinin növbəti hədəfi hansı region və ya ölkə ola bilər?

Qüdsdəki Şərq Tərəfdaşlığı İnstitutunun prezidenti, “Caucasianreview” saytının baş redaktoru Avraam Şmuleviçə görə, bu hədəflər elə də çox deyil (minval.az): “Məsələn, Qazaxıstan onun hədəfi ola bilər. Qazaxıstan haqda Rusiyada çox danışır, onu Ukrayna ilə müqayisə edirlər. Ancaq Rusiya bu ölkəyə girsə, Çinin maraqlarına toxunacaq, Moskva isə Çindən dovşan boadan (tropik Amerikada yaşayan nəhəng ilan - red.) qorxan kimi qorxur. Bəs Baltikyanı ölkələr, onlar hədəf seçilə bilərmi? İstisnadır. Çünki bu, NATO ilə birbaşa konfrontasiya deməkdir və hərbi planda Rusiya üçün mümkünsüzdür”.

Analitikə görə, ən çox ehtimal edilən istiqamət məhz Cənubi Qafqazdır: “Rusiyanın ekspansiyasını ilk növbədə Azərbaycan gözləməlidir. Azərbaycan onun üçün yağlı tikədir. Suriyadakı avantüra bitəndən sonra Rusiya Güney Qafqaza yönəlik aktiv siyasətə başlayacaq. Ermənistan və Gürcüstan faktiki surətdə Rusiyadan asılı durumdadır. Ermənistan ümumiyyətlə, tam asılıdır. Azərbaycan haqda isə bunu demək olmaz. Rusiya Azərbaycana iqtisadi təzyiqlər göstərəcək, yoxsa hərbi-siyasi xarakterli təzyiqlər? Bəlkə Rusiya xüsusi xidmətləri ölkədə vəziyyətə qarışdırmağa cəhd edəcək? Mən nüfuzlu rusiyalı ekspertlər tanıyıram ki, onlar Rusiyanın Azərbaycanı öz tərəfinə çəkmək üçün bu ölkədə sosial, dini və etnik qarşıdurmalar yaradıb vəziyyəti qarışdırmağın tərəfdarı kimi çıxış edirlər. Belə bir ekspansiyanı gözləməyə dəyər. çünki Rusiya rəhbərliyi müharibə aparmaq və yad əraziləri zorla ələ keçirməkdən savayı heç nəyi bacarmır”.

***

“Suriyada münaqişələrin gərginliyi Cənubi Qafqaz regionuna da təsir edir”. Bunu isə Qafqaz üzrə ekspert, professor Uve Halbax deyir (Publika.az). O, ötən ildən başlayaraq Dağlıq Qarabağ zonasında münaqişənin yenidən gərginləşməsinə diqqət yönəldib: “Dağlıq Qarabağ münaqişəsində Rusiya ikili rol oynayır. Bir tərəfdən Azərbaycan və Ermənistan arasında vasitəçilik edir, digər tərəfdən hər iki ölkəyə silah satır. Cənubi Qafqaz tarixi imperiyalar arasında geosiyasi rəqabət regionudur. ”Əsrin müqaviləsi" və Xəzərdə Azərbaycan qazının istehsalı haqda müqavilələrdən sonra 1994-cü ildən etibarən regionda “Böyük oyun” başlandı. Bu oyun Gürcüstanın avroatlantik kursunun gücləndirilməsi ilə davam etdi. Rusiya Abxaziya və Cənubi Osetiya ilə bu oyuna cavab verdi. Sonra Ukrayna hadisələri baş verdi. İndi də Rusiya-Türkiyə qarşıdurmasında ümumi rəqabət açıq hiss olunur".

**Ekspert əlavə edib ki, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq çərçivəsində tezliklə həll olunmalıdır. Onun fikrincə, bu regionda bütün ölkələr üçün vacibdir.**

# ABŞ Qarabağ cəbhəsindəki gərginlikdən narahatdır

## Con Kirbi: “Bütün hallarda soyuq başla düşünmənin tərəfdarıyıq”; **Azərbaycan Müdafiə Nazirliyi:** “Erməni tərəfinin çoxsaylı itkilərinə görə Sərkisyan-Ohanyan cinayətkar cütlüyü məsuliyyət daşıyır...”

**Son günlər erməni işğalçı qüvvələri ilə təmas xəttində vəziyyət yenidən gərginləşib. Hər iki tərəfdən, xüsusən də işğalçı tərəfdən itkilər var. Lakin düşmən yenə layiqli cavabını alsa da, qat-qat böyük canlı itkilərə məruz qalsa da, öz təxribatlarından əl çəkmir və eskalasiyaya görə məsuliyyəti Azərbaycanın üzərinə atmağa cəhd edir.**

Azərbaycanın Müdafiə Nazirliyi cəbhədəki son gərginlik, erməni tərəfinin bəzi nümayəndələrinin ölkəmizə qarşı təhqiramiz ifadələrlə çıxış etməsi və qoşunların təmas xəttində tankdan atəş açılmasının terrorizmə bərabər tutulması barədə səslənən absurd fikirlərə şərh verib.

Nazirliyin mətbuat xidmətindən verilən məlumatda qeyd olunur ki, son günlər Seyran Ohanyan və Serj Sərkisyan cütlüyünün cinayətkar fəaliyyətinin nəticəsi olaraq cəbhədə gərginlik nəzərəçarpacaq dərəcədə artıb: “Azərbaycan Ordusunun gördüyü cavab tədbirləri nəticəsində erməni tərəfinin çoxsaylı itkilərinə görə birbaşa məsuliyyət bu hərbi cinayətkarların üzərinə düşür. Terror yolu ilə hakimiyyəti ələ keçirən və terroru dövlət səviyyəsinə qaldıran şəxslərin ölkəmizə qarşı küçə leksikonunda danışaraq etikadan kənar ifadələr işlətməsi bizim üçün təəccüblü deyil. Çünki məhz bu onların fırıldaqçı mahiyyətini və şəxsi tərbiyəsizliklərinin səviyyəsini bir daha nümayiş etdirir”.

Tanklardan istifadə məsələsinə gəlincə nazirlik bildirib: “Silahlı Qüvvələrimiz vəziyyətə uyğun olaraq düşmən bizə atəş açdığı halda, ona qarşı daha üstün silahlarla cavab verəcəyi, onların atəş nöqtələrini, mövqelərini və hərbi obyektlərini məhv edəcəyi barədə dəfələrlə xəbərdarlıq edib”.



Bu arada Minsk Qrupunun həmsədr ölkələrindən biri olan ABŞ-dan təmas xəttində qeydə alınan son gərginliklərdən dolayı narahatlıq ifadə edən açıqlama gəlib. “Dağlıq Qarabağdakı son insidentlərdə ölən və yaralananlarla bağlı başsağlığı veririk”. ABŞ Dövlət Departamentinin sözçüsü Con Kirbi bunu ənənəvi mətbuat konfransında deyib (APA).

Onun sözlərinə görə, zorakılıq hallarının artması və ağır texnikadan istifadə qəbuledilməzdir: “Biz tərəfləri ciddi şəkildə atəşkəs rejiminə riayət etməyə çağırırıq. Xatırlatmaq istəyirik ki, bu hücumlar Azərbaycan və Ermənistan prezidentləri tərəfindən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması barədə götürdükləri öhdəliyə uyğun gəlmir. Bu ilin sonuna kimi AT?T-in Minsk Qrupu həmsədrləri prezidentlər arasında növbəti görüş keçirməyi planlaşdırırlar. Biz tərəfləri zorakılıqdan çəkinmək və sammitin başa tutması üçün danışıqlar atmosferini inkişaf etdirmək sahəsində bütün addımları atmağa çağırırıq”.

**Con Kirbi Rusiya ilə Türkiyə arasında baş verən qalmaqalın Azərbaycan-Ermənistan münasibətlərinin daha da gərginləşməsinə gətirib çıxara biləcəyi haqda suala cavab olaraq deyib ki, onlar mənbənin haradan gəlməsindən asılı olmayaraq eskalasiyanın özündən narahatdır:** “Hər iki hadisədə biz gərginliyin aradan qaldırılmasının və soyuq başla düşünmənin tərəfdarıyıq. Biz zorakılıq hallarından narahatıq. Rusiya təyyarəsinin vurulmasından sonra Rusiya və Türkiyə arasında münasibətləri monitorinq edəcək və izləyəcəyik. Biz gərginliyin aradan qaldırılmasını istəyirik”.

YENİ MÜSAVAT
N 276 (6304) 11 dekabr 2015



# Rusiyanın potensial sürprizləri...

**Hüseynbala SƏLİMOV**

**Ən çətin məqamlarda belə siyasətçilərin unutmadığı bir şey olur - mənafe... Bu hətta siyasi sistemin xarakterindən, ölkədə hansı siyasi idarəetmə üsulunun mövcud olduğundan belə asılı olmur, ya da çox az asılı olur. Ona görə ki, söhbət ölkənin və dövlətin mənafeyindən gedir...**

İndi çox çətin məqamdır-bir tərəfdən Rusiya ilə Qərbin, o biri tərəfdən Rusiya ilə Türkiyənin gərginləşən münasibətləri...

Azərbaycan bu konteksdə hələki çox məntiqli hərəkət edir. Özünün siyasi və geosiyasi simpatiylarını bir o qədər də qabartmayaraq bütün tərəflərlə normal və davamlı münasibətlər saxlamağa çalışır... Üstəlik, yaranmış vəziyyətdən öz maraqları və mənafeləri üçün istifadə etməyə cəhd edir...

Sonuncu bəlkə də bir az təəccüblü görünür. Amma Rusiya ilə Türkiyə arasındakı gərgin münasibətlər nə qədər qəribə olsa da, Azərbaycana ciddi və faydalı iqtisadi dividendlər vəd edir.

Birincisi, Azərbaycan hər il Türkiyəyə yollanan Rusiya turistlərinin bir hisssəsini qəbul etməyə hazırlaşır. Bu, tamam real məsələdir - Azərbaycanın qış və yay turizmini təklif etmək üçün kifayət qədər imkanları var...

İkincisi, Türkiyə mallarından imtina edən Rusiya indi Azərbaycanın kənd təsərrüfatı sektoruna göz dikib. Bu sahədə Azərbaycanın imkanları Türkiyənin imkanları qədər də olmasa da, hər halda, yetərlidir...

Üçüncüsü, Azərbaycanın tranzit imkanları yeni məzmun kəsb etməyə başlayıb. Rusiyaya buraxılmayan Türkiyə maşınlarının Orta Asiyaya getmək üçün Azərbaycanı seçməsi, İranın dəmiryolu şəbəkəsilə Azərbaycanın şəbəkəsinin birləşdirilməsi, Bakı-Tiflis-Qars dəmiryolunun nəzəri dividendləri buna canlı sübutdur. Hətta Çin və digər uzaq şərq ölkələri nəzərlərini Azərbaycana yönəldib...

Dördüncüsü, Türkiyənin Rusiyadakı işçi qüvvəsinə də müəyyən məhdudiyyətlər tətbiq edilsə, bu, Azərbaycanın işçi bazarını canlandıracaq və ola bilsin, neftin qiymətdən düşməsilə bağlı artan işsizliyi bunun hesabına qismən azaltmaq mümkün olacaq...

Qərəz, bəlkə də digər istiqamətlər də var - biz, necə deyərlər, ağlımıza gələni yazdıq. Azərbaycan indi bütün bu sahələrdən fayda götürə bilər...

Amma məsələnin mənfi tərəfləri də var. Birincisi, Rusiyada iqtisadi böhranın dərinləşməsi, sanksiyaların təsirinin artması orada məskunlşamış və ya əməkçi fəaliyyətlə məşğul olan azərbaycanlıların da gəlirlərinə təsir edəcək... Məlumdur ki, ölkənin əhalisinin gəlirləri həm də Rusiyada çalışan azərbaycanlı işçilərin hesabına artırdı. İndi bir çox sahələrdə, məsələn, mənzil satışı sahəsində qiymətlərin aşağı düşəcəyini proqnozlaşdırmaq mümkündür.

Elə əhalinin gəlirlərinin də bir hissəsi bu mənbənin hesabına yaranırdı. İndi bir qədər çətin olacaq. Bu, Rusiyanın, daha doğrusu, zəif Rusiyanın örtülü qalan və özünü hələ bir müddət bundan sonra göstərəcək birinci sürprizidir...

İkincisi, Rusiya zəifləyəndə, əldən düşəndə "caynaqlar"ını bəzi ölkələrə daha möhkəm keçirməyə, onları daha çox sıxmağa başlayır.

Düzdür, indi deyirlər ki, guya Rusiya yeddi rayonun Azərbaycana qaytarılması üçün Ermənistana güclü təzyiq edir. Doğrusu, bizim bunun əksini sübut edəcək arqumentlərimiz yoxdur, sadəcə, inanmırıq. Ona görə inanmırıq ki, bunun hansısa əlamətləri və işartıları görünmür...

Dekabrda prezidentlərin görüşü olmalıdır. O görüşdən sonra və yaxud da onun ərəfəsində bəlkə nəsə dəqiq bir şey demək mümkün oldu...

İndi isə yalnız ehtimallar var. Təəssüf ki, bu ehtimallar da faktlar baxımından bir o qədər də zəngin deyil...

Ona görə də gözləmək qalır. Mən doğrusu, Rusiya ətrafında baş verənlərin bu ölkə üçün hansı sonluqla bitəcəyini deməyə çətinlik çəkirəm. Bircə onu bilirəm ki, bu, bir o qədər də yaxşı sonluq olmağı vəd etmir. Rusiya özü də hiss etmədən, özü də duymadan böyük bir "yarış"a girir. Düşünürlər ki, hərbi xərcləri artırmadan da ABŞ-a baş ağrısı olmaq mümkündür...

Amma bir məsələ var. Ukraynada separatçı Krımı, separatçı şərq bölgələrini saxlamaq da xərc tələb edir. "Forpost" Ermənistanı öz çevrəsində saxlamaq da tamam xərcsiz başa gəlmir, bu, da xərc tələb edir. Gürcüstandakı separatçı rejimləri təmin etmək də xərc tələb edir. Suriyanı bombalamaq da xərc tələb edir. Sanksiyaların iqtisadi fəsadlarını azlatmaq da böyük xərc tələb edir...

**Ona görə də bəlkə Rusiya onu hansı xərclərin gözlədiyinin fərqində deyil. Bu, da zəifləyən və çökən, amma iddialarından əl çəkməyən Rusiyanın daha bir örtülü sürprizidir...**



# Rusiya Türkiyə ətrafında hərbi həlqə yaradır - qorxulu gəlişmə

## Qardaş ölkə ilə İsraillin yaxınlaşması üçün unikal fürsət yetişib; yəhudi dövləti Moskvadan qaz asılılığının aradan qalxmasında Ankaraya dəstəkçi ola bilər; İsrail-Türkiyə müttəfiqliyi Kremlin Ankara və Bakıya qarşı yeni təhlükəli planlarına qarşı çəkindirici amil rolunda...

**Rusiya "Su-24" təyyarəsini vurduğuna görə Türkiyəyə hələ də qəzəblidir. Bu qəzəb artıq özünü təkcə iqtisadi və təbliğat savaşlarında yox, başqa istiqamətlər üzrə də göstərməyə başlayıb. Belə görünür, prezident Putinin "Biz hələ onları (Türkiyəni-red.) öz hərəkətinə çox peşman edəcəyik" hədəsi boşuna deyilmiş.**

Məsələ ondadır ki, 24 noyabr insidentinin ardınca Moskva Ankaraya qarşı təkcə iqtisadi məhdudiyyətlər tətbiq etməyə başlamayıb, eyni zamanda regionda öz hərbi mövcudluğunu xeyli dərəcədə artırıb. Bu barədə özünün təhlil yazısında "Hürriyet Daily News" nəşri qeyd edir ki, Rusiya Türkiyəni az qala hər tərəfdən əhatəyə alıb.

Nəşr bu xüsusda yazır ki, Rusiya Ermənistana hərbi vertolyotlar, Aralıq dənizinə sualtı qayıqlar göndərib və Suriyada - Latakiyada ciddi hərbi texnikalar yerləşdirir: "Birincisi, Moskva Ermənistandakı Erebuni hərbi bazasına 14 vertolyot göndərib. Onlardan 8-i "Mi-24" zərbə vertolyotudur və ilin sonunadək sayı 15-ə çatdırıla bilər. Yerdə qalanları isə "Mi-8" nəqliyyat vertolyotlarıdır. İkincisi, Rusiya "Kalibr" qanadlı raketlərlə təchiz olunmuş "Rostov na-Donu" sualtı qayığını Aralıq dənizinə yollayıb. Həmin dənizdə - Tartusda onun artıq hərbi-dəniz bazası mövcuddur. Buna qədər isə o, daha iki sualtı qayığı və S 300 sistemlərinə oxşar HHM sistemi ilə təchiz olunmuş "Moskva" raket kreyserini Aralıq dənizinə göndərib.

Nəhayət, Rusiya ordusu Latakiya yaxınlığındakı Suriya hava bazasından - Bəşər Əsədin dayaq məntqələrindən birindən istifadə edir. İlkin ehtimallara görə, orada "Su-30", "Su-24", "Su-25", "Su-34" təyyarələri, həmçinin, 7 "Mi-24" və 5 "Mi-8" vertolyotları da daxil, 55 Rusiya qırıcısı yerləşdirilib. Bundan əlavə, baza müxtəlif HHM sistemləri ilə - kiçik, orta və uzaq mənzilli zenit-raket kompleksləri ilə təchiz olunub. Üstəgəl, burada "Krasuxa" radio-elektron mübarizə kompleksi, habelə təqribən 15 tank və 30 zirehli transportyor yerləşdirilib".

***

"Hürriyet Daily News"un analitikləri Rusiyanın Türkiyəyə ən yaxın ərazilərdə hərbi gücünü artırmasını haqlı olaraq təsadüfi saymır. İstisna edilmir ki, Moskva ilk fürsətdəcə, Ankaraya güc nümayiş etdirmək və "Su-24" insidentinə görə ondan hansısa formada revanş götürüb zədələnmiş imicini bərpa etmək niyyətindədir.

Mövcud vəziyyət qardaş ölkənin yerləşdiyi mürəkkəb regiondakı müttəfiqlərinin önəmini sövq-təbii artırır. Eyni zamanda bu durum Ankaranı yeni müttəfiqlər tapmaq imperativi qarşısında qoyur. Onlardan biri müşahidəçilərə görə, xeyli müddətdir münasibətlərində soyuqluq yaşanan İsrail dövləti ola bilər. Təhlilçilərin fikrincə, Türkiyə ilə Rusiya arasındakı gərginlik Ankara-Təl-Əviv münasibətlərini istiləşdirə bilər.

Siyasi ekspertlər bildirir ki, İsrail siyasətçiləri bu dönəmdə baş nazir Benyamin Netanyahu ilə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan arasında uzlaşmanı tövsiyə edir. Türkiyənin Radikal.com saytının xəbərinə görə, İsrailin "Kanal 2" televiziyasında gedən müzakirələrdə Türkiyə üçün Rusiya qazını İsrail qazının əvəz etməsinin mümkünlüyü önə sürüb.

İsrail analitikləri bildirib ki, baş nazir Netanyahu qısa zamanda rəsmi Ankara ilə münasibətləri istiləşdirməyə çalışmalı, ardınca qaz xəttinin çəkilməsi üzrə danışıqlara başlanmalıdır. Onların zənnincə, Moskva ilə münasibətlər gərginləşəndən sonra durumun iki ölkə arasındakı enerji anlaşmalarına təsirsiz ötüşməyəcəyi ortadadır. Belə olan halda, İsrail dövriyyəyə girməli, Ankara ilə qaz razılaşması imzalanmalıdır.

Ekspertlər qaz kəmərinin perspektivlərinin də böyük olduğunu düşünür. İsrail yeni xəttə öz təbii qazını Türkiyə üzərindən Avropaya çıxarmaq imkanı kimi də baxır. Sayt daha sonra yazır ki, İsrailin xarici işlər, müdafiə və enerji nazirlikləri bu layihəni dəstəkləyir. İsrail baş nazirliyindəki qaynaq indi məsələnin gündəmə gətirilməsi üçün doğru zaman olduğunu bildirib. Layihə baş tutsa, bu, uzun müddətdir Türkiyə ilə İsrail arasında soyuq münasibətləri də yumşalda bilər.

Məlumat üçün bildirək ki, İsrail qazı İsrailin iqtisadi suları deyilən ərazidədir. Həmin bölgə yuna Kiprin iqtisadi sularına qonşudur. "Leviathan" və "Tamar" adlı yataqlardan artıq qaz çıxarmasına başlanıb. İsrail ekspertləri hesab edir ki, bölgədə yeni enerji infrastrukturunun yaradılması Türkiyə-Kipr-Yunanıstan münasibətlərinə də müsbət təsir göstərə bilər.

Hələlik Netanyahu ilə Ərdoğan arasında olduqca soyuq münasibətlər davam edir. Xarici İşlər nazirlikləri arasında təmaslar olsa da bu, hələlik liderlər səviyyəsinə keçməyib. Netanyahu isə yaxın həftələrdə Yunanıstanın baş naziri və yuna Kiprinin prezidenti ilə görüşməyə hazırlaşır. Tərəflərin əsas müzakirə mövzusu yeni qaz xəttinin çəkilməsi olacaq.

***

**Aydın məsələdir ki, iqtisadi bağlar siyasi bağları da möhkəmlətmiş olacaq. Regionda İsrail-Türkiyə müttəfiqliyinin bərpası isə Azərbaycanın da gücünə güc qata, ən mühümü, bölgədə Rusiyanın Türkiyə və Azərbaycan əleyhinə yeni ekspansionist planlarına qarşı çəkindirici amil olardı. Yəhudi lobbisinin qlobal siyasətə təsir imkanları da nəzərdən qaçırılmamalıdır.**

❑ Analitik xidmət

# Azərbaycanla bağlı şok hesabat - 9 milyard dollar ölkədən çıxarılıb

**ABŞ-ın "Global Financial Integrity" Tədqiqat Təşkilatı xaricə qeyri - qanuni kapital axını həyata keçirilən ölkələrin siyahısını açıqlayıb.**



Bu siyahıda Azərbaycan 17 -ci sırada dayanır.

Tədqiqat 2004-2013-cü illər arasında aparılıb. Bu illər ərzində hər il Azərbaycandan 9 milyard dollar dəyərində qeyri -leqal yollarla pul çıxarılıb. Siyahıda 148 ölkənin adı var.

İlk sıralarda isə Çin 139,228 milyard dollarla, Rusiya isə 104,977 milyard dollarla başçılıq edir.

2004-2013-ci illər arasında aparılan tədqiqatlar nəticəsində məlum olub ki, ölkələr bu illər ərzində 7.8 trilyon dollar pul itirib. Təkcə 2013-cü ildə inkişaf etmiş və inkişafda olan ölkələrdən 1,1 trilyon dollar qanunsuz yollarla pul çıxarılıb. Qanunsuz sərmayə çıxışları vergidən yayınma, cinayət, korrupsiya və digər qanunsuz fəaliyyət növləri ilə bağlıdır. Rəqəmlərdən aydın olur ki, Azərbaycan da daxil olmaqla dünyanın əksər dövlətləri qanunsuz fəaliyyətlərin qarşısını ala bilmir.

**Qanunsuz çıxarılan pullar ölkələrin iqtisadiyyatına və Ümum Daxili Məhsulun (ÜDM) həcminə kəskin təsir edir. Qanunsuz maliyyə axını ən çox İnkişaf Etməkdə Olan Ölkələrdə (İEOÖ) həyata keçirilir.**





# Leyladan Benazirədək...

## Dünyada 700 mindən çox qadın türmədədir; xaricdə və Azərbaycanda məşhur məhbus qadınlar

**Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunusun həbsdən azad edilməsi ilə cəmiyyətdə xoş bir əhval yarandı. Xüsusən də mentaliteti nəzərə alanda azərbaycanlılar qadının türmədə olması faktına o qədər də tolerant yanaşmır.**

Bununla belə, həbsxanalarımızda hələ də xeyli sayda qadın məhbuslar var. İstər siyasi, istər sıradan qadın məhbuslar...

"Yeni Müsavat" isə bu günə qədər dünyada və Azərbaycanda yolu türmədən keçmiş tanınmış məhbuslar barədə dosye hazırlayıb. Öncə dünya üzrə statistikaya nəzər salaq. Dünyada 700.000-dən çox qadın və qız həbsdə saxlanılır. London Cinayət İnstitutunun verdiyi məlumata görə, bu göstərici 2000-ci ildən sonra 50% artıb. Qadın məhbusların təxminən yarıdan çoxunu əsasən, 3 ölkənin əhalisi təşkil edir - ABŞ, Çin və Rusiya.

Tədqiqatçılar məhkumların qayğıya ehtiyacı olduğunu bildirib. Birbeck İnstitutunun direktoru Dr. Jessica Jacobson bildirib ki, bu məhbuslar çox həssas və köməksiz qrupdur və onlar cinayət qurbanı olub, özlərini günahlandırırlar.

Hesabatda deyilir ki, bir sıra ölkələr hesabat verməyindən, həmçinin Çinin məlumatları tam olmadığından göstərilən say yəqin ki, bundan çoxdur.

Bəs bu rəqəmlərin nə qədəri Azərbaycanın payına düşür? Dövlət Statistika Komitəsinin verdiyi xəbərə görə, Azərbaycanda cinayət törətmiş qadınların sayında ilbəil azalma müşahidə olunur. Qurumun ictimaiyyətlə əlaqələr şöbəsi bildirib ki, cinayət törətmiş qadınların sayında ilbəil azalma müşahidə olunur: "2010-cü illə müqayisədə 2014-cü ildə cinayət törətmiş qadınların sayı 2,4 dəfə azalıb. Belə ki, 2010-cü ildə 2 318, 2011-ci ildə 2 074, 2012-ci ildə 1 677, 2013-cü ildə 1 012, 2014-cü ildə 971 nəfər cinayət törətmiş qadın olub".

Azərbaycanda məhkumluq həyatı yaşayan qadınların əksəriyyəti narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, dələduzluq və qətl cinayətlərində ittiham olunurlar. Onların əksəriyyəti külli miqdarda narkotikin sərhəddən gizli yolla keçirilməsinə görə saxlanılıb. Narkotik biznesi ilə məşğul olanlar şirnikləndirmə yoluyla - yəni asan yolla pul qazanmağı vəd edərək qadınlardan öz məqsədləri üçün istifadə edirlər.



Faina Kunqurova



Şəmsiyyə Bəylərqızı



Yuliya Timoşenko



Aung San Suu Kyi

### İki siyasətçi qadından başlanan həbs dalğası...

Keçək tanınmış qadın məhbuslara. Hələ 2002-ci ildə də o vaxtkı ADP fəalları Zəminə Dünyamalıyeva və Solmaz Ələsgərova da həbs olunmuşdu. Bir təxribat planının qurbanı olan siyasətçi xanımlar 6 sutka həbs cəzasına məhkum edilmişdi. Z.Dünyamalıyeva daha öncə əməkdaşımızla söhbətində bu həbsinin detallarını belə xatırlatmışdı: "Həmin vaxt prezident seçkilərinə hazırlıq ili idi və cəmiyyətdə aktivlik vardı. Aprelin 22-də isə ümumi müxalifətin qadın mitinqi oldu. Xatırlayıram ki, səhər iki qadını arxamızca saldılar. Öyrədilmiş bu qadınlar başladılar ki, bizim gül kimi cəmiyyətimiz var, bizdən nə istəyirsiz? Bu qadınlar hətta bizə əl qaldırdılar. Həmin anda da polislər çıxdı və guya asayişi pozmaq adıyla bizi həbs etdilər. 6 sutka həbsdə qaldıq".

### "Qar uçqunu"nun altında azadlığa çıxacağını gözləyən... məşhur məhbus qadın

Müsavat Partiyasının gənc fəalı Nigar Yaqublu da yolu həbsxanadan keçən müxalifətçi xanımlardan olub. Onu da 2012-ci ilin sentyabr ayında talesiz yol qəzasına görə həbs ediblər. 2013-cü ilin 19 dekabrında Abşeron Rayon Məhkəməsi onun barəsində 2.5 il azadlıqdan məhrumetmə cəzası verib. Elə həmin ilin 3 martında N.Yaqublu məntəqə tipli cəzaçəkmə müəssisəsinə köçürülüb.

Gənc fəal son söz çıxışında həbsi ilə bağlı aşağıdakıları demişdi: "Heç bir xanıma, qıza həbsxananı arzulamaram. Heç kimin qoluna qandal vurulmasını istəmərəm. Arzulamaram ki, dəmir qapılar onun üzünə çırpılaraq örtülsün, dəmir qapının balaca pəncərəsindən əyilərək baxsınlar..."

Son illər Azərbaycanda baş verən siyasi həbslərdən ən qalmaqallısı isə heç şübhəsiz sabiq deputat Gülər Əhmədova oldu. 2013-cü il fevralın 13-də həbs edilən sabiq deputat barəsində 3 il azadlıqdan məhrumetmə cəzası verilsə də, 2014-cü ilin 5 may tarixində Apelyasiya Məhkəməsi həbs qərarını şərti cəza ilə əvəzlədi.

Həbsdə olduğu zaman G.Əhmədovanın verdiyi geniş müsahibələrdən birində türmə həyatı ilə bağlı ilginc fikirlər yer alırdı: "Mətbuatda yazıldığı kimi, burada lüks şəraitim yoxdur. Televizorum, telefonum da yoxdur. Su sarıdan çox korluq çəkirəm. İsti su həftədə iki dəfə olur. Soyuq su da böyük fasilələrlə verilir. Hərəkətsizlik ucbatından ciddi problemlərim yaranıb, ürək-damar sistemində olan ağrılardan ciddi əziyyət çəkirəm. Mənim bu günümə həsəd aparanlara Allah qismət eləsin... Kameradan görünən hissədə, damda barmaqlıqlar arasında bir quş yuvası var. Hələ indiyə kimi quşları bu qədər seyr etməmişdim. Onların azadlığına həsəd aparıram. Kimsə həbsxanaya düşübsə, heç vaxt kiminsə günahsız yerə bura düşməsinə razı olmaz. Kamera sanki insanı qəbir həyatına hazırlayır. Başqa heç nə ilə müqayisə etmək mümkün deyil. İnsan azadlıqda olarkən kiminsə həbsə düşməsini sıradan bir iş kimi qarşılayır. Lakin bu amansız həqiqətlə üzləşərkən azadlığın nə olduğunu başa düşürsən. Qadın üçün həbsdə olmaq yüz qat əzabdır. Dözmək mümkün deyil. Bəlkə də Allaha, haqqa olan inamıma görə hələ də yaşayıram".

Həbsdən çıxandan sonra ilk geniş müsahibəsini də "Yeni Müsavat"a verəndə həbs günlərini məhz bu cür xatırlatmışdı: Mətbuat nümayəndələri həmişə danışırdılar, yazırdılar, yazırdılar... Mənsə bir qar uçqununun altında idim, sanki. Gözləyirdim ki, hər şey bitsin..."

### Türmədə ölən Kunqurova...

Azərbaycan tarixində türmədə dünyasını dəyişən siyasi məhbus qadın da olub. Bu, ADP fəalı Faina Kunqurova idi. Yaxınlarının bildirdiyinə görə, polis onu guya şübhəli şəkildə dövlət başçısının korteji keçən yolun yaxınlığında dayandığına görə saxlayıb. Çantasına baxış zamanı polis oradan parlamentin sabiq spikeri və Demokrat Partiyasının o zamankı lideri Rəsul Quliyevin şəklini tapıb. Bu da Kunqurovanın saxlanmasına əsl səbəb olub. Bundan sonra isə onu narkotik saxlamaqda ittiham ediblər.

2007-ci ilin 26 noyabrında türmədə dünyasını dəyişən Kunqurovanın qəfil vəfatının səbəbi məlum olmayıb. Qohumlarına isə onun ölüm səbəbini 4 gündən sonra bildiriblər. Qeyri-rəsmi məlumatlara görə, onun ölümünə səbəb aclıqdan orqanizminin həddindən çox zəifləməsi olub, amma qohumları ona daim yemək ötürdüklərini bildirirlər. Kunqurova siyasi məhbus idi. İlk dəfə onu 2002-ci ildə xuliqanlıq ittihamı ilə həbs ediblər. Lakin həbsə əsas səbəb Kunqurovanın Rəsul Quliyevin müdafiəsi üçün keçirilən kütləvi aksiyalarda fəal iştirakı olub. İki il sonra, 2004-cü il mayın 10-da Kunqurova beynəlxalq ictimaiyyətin və xüsusən Avropa Şurasının çoxsaylı və inadcıl tələblərindən sonra əfv olunub. Mərhumun azyaşlı uşağı var idi.

Tanınmış məhbuslar arasında İranın Azərbaycandakı sabiq səfiri Əfşar Süleymaninin keçmiş həyat yoldaşı Şəmsiyyə Bəylərqızının da adı var. Son olaraq 2014-cü ilin 11 iyununda Sabunçu Rayon Məhkəməsində həbsxanaya qanunsuz əşya keçirməkdə günahkar bilinən Şəmsiyyə Bəylərqızının işi üzrə məhkəmə keçirilib və onun həbs müddəti artırılıb. İddiaya görə, Ş.Bəylərqızı Əfşar Süleymaninin 741 min ABŞ dolları məbləğində pulunu mənimsəyib.

İranın Azərbaycandakı keçmiş səfiri Əfşar Süleymaninin şikayəti əsasında Şəmsiyyə Bəylərqızı Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə ittiham edilib. O, sabiq İran səfiri ilə ailə qurduğunu və ondan oğlu olduğunu bildirsə də, Əfşar Süleymani qadının onun etimadından istifadə edərək pulunu mənimsədiyini iddia edir.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 10 il müddətinə azadlıqdan məhrum edilən Şəmsiyyə Bəylərqızı saxlanıldığı Bakı istintaq təcridxanasında qanunsuz əşya saxlayıb. Onun saxlanıldığı kameraya Penitensiar Xidmətin əməkdaşları baxış keçirib. Baxış zamanı kameradan Şəmsiyyə Bəylərqızına məxsus mobil telefon və digər əşyalar tapılıb.

Buna görə də Şəmsiyyə Bəylərqızının barəsində Cinayət Məcəlləsinin 317-2.2-ci (Cəzaçəkmə müəssisələrində və ya istintaq təcridxanalarında saxlanılan şəxs tərəfindən qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması, gəzdirilməsi, daşınması və ya istifadəsi) maddəsi ilə ittiham verilib. Sabunçu Rayon Məhkəməsinin hökmü ilə Şəmsiyyə Bəylərqızı 1 il müddətinə azadlıqdan məhrum edilib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü də birləşdirilərək, Şəmsiyyə Bəylərqızını barəsində 11 il müddətinə azadlıqdan məhrum etmə cəzası saxlanılıb.

Dünya tarixi də qadın siyasi məhbuslardan xali deyil. Onlardan ən yaddaqalan, parlaq sima Ukraynanın sabiq baş naziri Yuliya Timoşenko olub. O, ilk dəfə 2001-ci ildə Lukyanovskda 42 gün müddətinə həbs edilib. 2011-ci ilin 11 oktyabrında isə 7 il müddətinə azadlıqdan məhrum edilib. Timoşenko hökumətə başçılıq etdiyi vaxt dövlət əmlakını mənimsəməkdə, vəzifə səlahiyyətlərini aşmaqda və sair cinayətlərdə ittiham olunurdu. Y.Timoşenko hazırda azadlıqdadır.

Benazir Bhuttonun da adı məşhur qadın məhbuslar arasındadır. Benazir Bhutto müsəlman ölkələri içərisində ilk qadın lider kimi tanınır. Oksfordu bitirdikdən sonra ölkəsinə qayıdan Bhutto atasının həbs olunaraq edam olunmasından sonra bir müddət ev dustağı kimi saxlanılmışdır. 1984-cü ildə xaricə çıxmaq icazəsi alaraq Britaniyaya gedir. Sürgündə atasını qurduğu müxalif Pakistan Xalq Partiyasına liderlik etdi.

Bhutto 2 dəfə Pakistanın prezidenti seçilib. 1999-cu ildə Pərviz Müşərrəfin hərbi çevriliş edərək hakimiyyətə gəlməsindən sonra ölkəni tərk etmək məcburiyyətində qaldı. 2007-ci ildə 2008-ci ildə keçiriləcək seçkilərdə iştirak etmək üçün Pakistana qayıtdı. Lakin 2007-ci ildə sui-qəsd nəticəsində həyatını itirdi.

Aung San Suu Kyi Myanma Milli Demokratiya Birliyinin lideri, düşüncə məhkumu kimi tanınır. 1989-cu ildən 2010-cu ilə kimi Birmada ev məhkumluğu yaşayıb. Bir demokratiya fəalı və siyasətçi kimi o hakimiyyətdə olan hərbi xunta üçün təhlükə hesab olunub. Bu səbəbdən də, onu uzun müddətli azadlıqdan məhrum ediblər. Həbsdə olduğu zaman o yalnız 5 dəfə həyat yoldaşını görüb, sonra həyat yoldaşı vəfat edib. 1990-cı ildə onun partiyası parlament seçkilərində parlamentdəki yerlərin 81%-ni və səslərin isə 59%-ni qazanmış və bununla da Baş Nazir postuna sahib olmaq imkanı əldə edib. Lakin hərbi diktaturanın səyi nəticəsində o bu posta sahib ola bilmədi. 21 il ev həbsliyindən sonra, nəhayət, azadlığa çıxdı və 2012-ci ildə Nobel Sülh Mükafatına layiq görüldü.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 276(6304) 11 dekabr 2015




**Cümə söhbətləri**

**Bismillahir-Rahmənir-Rahim! Rəsuli-Əkrəm (s) bu günlərdə Rəbbinə qovuşub. Bu kədərli günlərin təhlili, müsəlman ümmətinin gəlib yetişdiyi bu acınacaqlı vəziyyətin səbəblərinin açıqlanmasına yardım edir. Peyğəmbərimizin (ə) rehləti (dünyanı tərk etməsi) öncəsi, rehləti zamanı, rehlətindən sonra cərəyan edən hadisələrin, ümmətin zillətə düşməsinə birbaşa təsiri var. Hətta demək olar ki, Aşuranın baş verməsinə səbəb olan amillər öz başlanğıcını məhz həmin günlər yer alan hadisələrdən götürür.**

# Məhərrəm-səfər əyyamının hüznlü yekunu



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Hicrətin 11-ci ili idi. Əziz İslam Peyğəmbəri (s) sonuncu həcc səfərində - istər Məkkədə, istər Ərəfə çölündə, istər Qədir-Xum adlanan o məşhur məntəqədə, istərsə də artıq Mədinəyə qayıtdıqdan sonra, ümməti zaman-zaman özündən sonrakı duruma hazırlayırdı. Ürəyi ağrılı ümməti özünün tez bir zamanda dünyadan gedəcyi barədə məlumatlandırır, bir gün bu dünyaya vida deməsini çatdırır insanlara Peyğəmbərimiz (s). Özündən sonra müsəlmanların nə etmələri haqqında xəbərdar edir onları Rəsulullah (s).

O zaman üçün də, bu gün üçün də ən mühüm mövzulardan biri - həmin günlərdə baş vermiş məlum olaylardır. Amma təəssüflər olsun ki, Həzrət Peyğəmbərin (s) son günlərdə etdiyi çatdırışlarını bu və ya digər səbəblərdən unutdurmağa çalışanlar da az deyil. Bəzi cahillər o zaman da cəhd etdilər, hər zaman da çalışırlar - ya bilərəkdən, ya bilməyərəkdən - insanları inandırsınlar ki, bəs İslam Peyğəmbəri (s) gəldi, öz işini gördü, sonra dünyanı tərk etdi və özündən sonra insanların nə etməli olduqları barədə məlumat və tövsiyələr vermədi. Guya işlərin keyfiyyətini, istiqamətini, yönümünü, hədəfini insanların öz öhdəsinə buraxan kimi oldu (?!). Guya bu böyüklükdə bəşəri dəyişikliklərə rəvac verən Elçi (s), insanları İnecə alınar, alınar» kimi variantla düçar etmişdir. Guya ümmətin variantlar xaosu və eksperimentlər bazası kimi bir vəziyyətə düşməsinə razı olmuşdu.

Çox qəribə yanaşma tərzidir, deyilmi? Əlbəttə ki, Peyğəmbərimizin (s) tam kamil, dəqiq və birmənalı tövsiyələri, həyatın hər bir çalarına aid məsləhət və buyuruşları bu yanaşma tərəfdarlarının mövqelərində daşı daş üstə qoymur.

## Peyğəmbərimizin (s) vəsiyyəti

İslam Peyğəmbəri (s) böyük bir İlahi missiya ilə gəlir. Son dərəcə çətin və məşəqqətli Məkkə dövrünü yaşayır. Sonra Mədinədə İslamın təşəkkül tapması, müsəlmanların icmalaşması prosesləri yaşanır. Böyük çətinliklərlə düşmənlərin çoxsaylı mütəşəkkil hücumları qarşısında gənc İslam icması duruş gətirir. Olmazın məşəqqətlər hesabına ümmət formalaşır və yaşaya bilən, inkişafa qadir bir duruma gəlir. Ən nəhayət, Rəsuli-Əkrəm (s) ümmətə son çatdırışlarını edir. Bu çatdırışlar Təbuk yürüşündən, Qədir-Xum vəsiyyətlərindən tutmuş, İcümə axşamı müsibəti» adlanan son günlərədək bir silsilələvi və tamamilə aydın forma ilə səciyyələnirdi. Yalnız bundan sonra, yüz minlərlə müsəlmana hüccətin tamam olmasından, məlumatın tam həcmdə verilməsindən sonra Həzrət Rəsuli-Əkrəm (s) haqq dünyasına köçür.

İndi bir balaca məlumatı olan insan da təsdiq edər ki, Peyğəmbərimiz (s) ümmətin gələcəyi barədə birmənalı və dəqiq tapşırıqlarını verib. Və hətta zərrədək məlumatı olmayan, sadə bir məntiqə malik olan insan da inanarmı ki, bu cür çətinliklər hesabına ərsəyə gələn, 23 il gecəli-gündüzlü olmazın zəhmət və məşəqqətlər hesabına yaranan ümməti əziz Peyğəmbərimiz (s) heç bir tövsiyə və tapşırıq verməndən özbaşına buraxır və ümmətin səhvdən-xətadan xali olmayan insanların eksperiment poliqonuna çevrilməsinə razı olur?! Hansı məntiqli və düşünən insan şeylərin belə absurd vəziyyətdə olmasını təsdiq edər?! Təbii ki, yalnız qərəzli şəxs...

## Səqəleyn - iki qiymətli əmanət

Qeyd etdik ki, həm o zamanda, həm də indi bu mövzular böyük əhəmiyyət kəsb edir. Ən azı ona görə ki, ümmətin getməli olduğu və getdiyi istiqamətin uyğunluğunu yoxlamaq baxımından məhz bu mövzuda hansı yanaşmanın rəhbər tutulması - həlledici təsirə malikdir.

Peyğəmbərimizin (s) rehləti bir işıq salır bu hadisələrə. Müsəlmanların tutduğu yol, sonrakı pərakəndəliklər, vəhdətin pozulması, müsəlmanların İslami dəyərlərdən uzaq düşməsi, müsəlman kimliyinin son dərəcədə zəif hala gəlməsi - bütün bunların kökü Rəsuli-Əkrəmin (s) rehləti ətrafındakı dövrlərdə baş verən hadisələrlə bu və ya digər dərəcədə bağlıdır.

Tədqiqatlar bəlli edir ki, Peyğəmbərimiz (s) müxtəlif dönəmlərdə, müxtəlif şəraitlərdə ümmətin yolunu itirə bilməsi haqqında narahatlıqlarını büruzə verirdi. Müxtəlif forma və üslublarla müsəlmanların diqqətini bu məsələyə cəlb edirdi. Rehlətindən 1 ay öncə Həzrət (s) buyurur: İAyrılıq yaxın olmuşdur və qayıdış Allaha doğrudur. Çağrılmağım və Haqqın dəvətini qəbul etməyim, cavablandırmağım yaxındır. Və mən 2 qiymətli şeyi sizin aranızda qoyub gedirəm: Allahın Kitabını və Əhli-beytimi. Və Lətif və Agah olan Allah Təala mənə xəbər verdi ki, bu ikisi heç zaman bir-birindən ayrılmaz ona qədər ki, Kövsər hovuzunun kənarında mənə qovuşacaq. Bəs yaxşı düşününüz, bu ikisi ilə necə rəftar edəcəksiniz».

Diqqət edək. Peyğəmbərimizin (s) rehləti yaxınlaşdıqca, Həzrət (s) müsəlmanları özündən sonrakı vəziyyətə uyğun hazırlaşdırır. Nə etməlilərilə bağlı, nəyə istinad etməliləri ilə, nəyə söykənəcəkləri ilə, nələri özləri üçün rəhbər seçəcəkləri ilə bağlı müsəlmanları tam məlumatlandırır və heç bir şəkk-şübhə üçün, azma və sapma üçün yer qoymur. Onlara bir düstur verir ki, buna riayət etdikləri təqdirdə sapmaları və çaşmaları mümkünsüz olacaq. İki fundamental əsası göstərir müsəlmanlara. Peyğəmbərimiz (s) bəlli edir ki, Qiyamət gününə qədər, Kövsər hovuzunun başında onun mübarək vücuduna qovuşana qədər bu 2 misilsiz dəyərə malik olanlar bir-birindən ayrılmayacaq. Həm Quran, həm Əhli-beyt (ə) sona qədər birlikdə, ayrılmadan qalacaq. Öz dəyişməzliyində, saflığında, doğru yol göstərməyində, paklığında, insanları hidayət ediciliyində bu 2 qiymətli dəyər sabit qalacaq və Peyğəmbərə (s) qovuşanadək bunların mahiyyəti, bunların insanlar üçün hidayətediciliyi cəm halda və harmonik surətdə mövcud olacaq.

## Bütün müsəlmanlara verilən tapşırıq

Bu dəyərləri Həzrət Peyğmbər (s) müsəlman üçün ən yüksək statusa qaldırır - əmanət adlandırır. Avtomatik olaraq, bunun qorunub-saxlanması ilə bağlı ümmətin üzərinə vəzifə gəlir. Qorumaq nə deməkdir? Buyuruşlarla tanış olub, onlara əməl etməkdir. Əhli-beyti (ə) tanıyıb, əməllərini anlayıb, həyat prinsiplərini dərk edib, bunlara uyğun yaşamaq, onların ardıcılı olmaqdır.

Tarix göstərir ki, Peyğəmbərimiz (s) axıradək fitnə düşmənin qarşısını bütün qüvvəsi ilə almağa çalışırdı. Rehlətindən bir neçə gün öncə, Həzrət (s) Mədinə məscidində sübh namazından sonra müsəlmanlara müraciətlə demişdi: İEy camaat! Fitnə atəşləri şölələnib və fitnələr qaranlıq gecənin dalğalarının hissələri kimi baş qaldırmışlar. Mən Qiyamət günü sizi qarşılayacağam. Və siz Kövsər hövuzunda mənə tərəf gələcəksiniz. Agah olunuz ki, Səqəleyn (2 qiymətli əmanət) haqqında sizdən soruşacağam. Bəs baxınız, məndən sonra o ikisi haqqında rəftarınız necə olacaq. Çünki Lətif və Xəbir Allah məni agah edib ki, bu ikisi bir-birindən ayrılmayacaq - o zamana qədər ki, mənimlə görüşəcəklər. Agah olunuz ki, mən bu ikisini sizin aranızda qoyub gedirəm. Onlardan irəli çıxmayınız ki, bir-birinizdən ayrılmış və dağınıq olarsınız. Onlarla münasibətinizi əsirgəməyiniz ki, həlakətə çatarsınız».

Bir daha görürük ki, 2 fundamental, qiymətli əmanətin - Qurani-Kərimin və Əhli-beytin (ə) birgə qorunması barədə tövsiyə verir Peyğəmbərimiz (s) müsəlmanlara. Bunlardan yapışarsa, ayrılmazsa - nicata yetişər ümmət. Heç zaman müşkülü, çətinliyi olmaz ümmətin - onları əməlməndən qorusa. Amma onlardan irəli keçmək istəyərsə, onları adlayıb keçərsə - pərakəndə olacaq, ayrılacaq, bölünəcək. Yaxud, onlara münasibətdə soyuqluğa, biganəliyə yol verərsə - Peyğəmbərimizin (s) xəbərdarlığına görə, ümmət həlakətə düşər.

## Aşuranın Bəni-Səqifə kökləri

Ümmətin bugünkü zillətli durumu əslində bu 2 əmanətə saygısızlığın təzahürləridir. Həzrət Peyğəmbərdən (s) sonra ümmət bu bir-birindən ayrılmaz əmanətlərlə necə rəftar etdisə, buna uyğun nəticələr də əldə etdi. Sonadək Peyğəmbəri (s) ən çox narahat edən məsələ - ümmətin sonrakı durumu idi, Quran və Əhi-Beytin (ə) ayrılmazlığının ümmət tərəfindən yaşadılması ilə bağlı nigarançılığı idi.

Çox təəssüflər olsun ki, əziz İslam Peyğəmbərinin (s) vəfatı ilə, həmin o fitnələr yaşanmağa başlandı. Bəni-Səqifə müsibəti baş verir. Həmin o müsəlmanlar ki, Peyğəmbərin (s) mübarək vücudunun nurundan bəhrələnirdilər, vəfatından sonra, Həzrətin (s) olmamazlığı şəraitində ilkin imtahanlarını lazımınca verə bilmirlər. Müsəlmanlar - az bir istisna nəzərə alınmasa - bu ilkin imtahanlarından elə mənfi qiymət alırlar ki, əsrlər boyu bütün ümmət bunun altını çəkir.

İllər keçəcək, onillər sonra məhz bu mənfi qiymətə verilən imtahana görə Aşura vaqiəsi yaşanacaq, Kərbəlada bəşəri müsibət baş verəcək. Aşuranın köklərindən biri - Bəni-Səqifədə tayfakeşliyin, qohumbazlığın yenidən baş qaldırmasından qidalanır. Kiminsə öz Ixidmətlərindən» qürrələnməsi, kiminsə öz Iməmənm»liyini qabartması, nəfslərin ortalığa çıxması nəticəsində ümmət Peyğəmbərimizin (s) vaxtında yetişdiyi yüksək səviyyədən Aşura dönəmindəki zillət və aşağılanmayadək endi. Artıq ümmətin başı nəinki tək özünə qarışmış olacaq, böyük bir münafiq qrupu da əmələ gələcək və bu qrup o qədər azğınlaşacaq ki, hətta Əhli-Beytə (ə) əl uzadacaq, ümmətin İmamını (ə) şəhid edəcək...

## Vəhy ailəsinin ilk övladı

Səfər ayının 28-də - Peyğəmbəri-Əkrəm (s) ilə eyni gündə (amma müxtəlif illərdə) İlahi imamətin 2-ci ulduzu İmam Həsən (ə) şəhid olmuşdur. İmam Əli (ə) və Həzrət Fatimənin (s.ə) ilk övladı, İmam Hüseynin (ə) böyük qardaşı olan İmam Həsən (ə), xilafəti qəsb etmiş zalımların fitnəsi nəticəsində zəhərləndirilərək şəhid edilmişdir. İmam Həsən (ə) bütün mümkün fəzilətlərə malik bir insan idi. İmam Həsən (ə) vəhy ailəsinin ilk övladı idi. Onun təqvası, tədbirliliyi, yüksək əxlaqi keyfiyyətləri dillər əzbəri idi.

Bu əziz İmamın (ə) etdiyi duaya diqqət edək: "Ey çarəsizlərin pənah yeri! Dərklər Sənin qarşında heyran və elmlər Sənin qarşında gücsüzdür. Sən diri olan Allah və cavidan Qəyyumsan. Sən bildiyini görürsən, o işdə daha bilikli və səbirlisinə Sən hər bir gizlini aşkar etməyə qadirsən. Hər bir işin qarşısını almağı bacarırsan. Hər şeyin qayıdış yeri Sənədir. Hər bir şeyin başlanğıcı Səndən mənbələnmişdir, Sən qəlblərdə gizli olanlardan agahsan. İstədiyin hər şey icra olmuşdur. Həqiqətən Sən - Eşidən, Bilən, Tək və görənsən.

Allahım! Sən bilirsən ki, mən çalışmamı əsirgəməmişəm. O vaxt ki, tək qaldım, o zaman öz atalarımın ardınca getdim ki, bu üsyankar düşmənin və Əhli-Beyt (ə) davamçılarının qanının tökülməsinin qarşısını alım. Övliyalarımın hifz etdiyini mən də hifz etdim. Qəzəbimi yatızdırdım və onların istədiyini etdim. Onların istədiyi yolla getdim və heç nə deməm ki, Sənin yardımın mənə çatsın. Sən - haqqın tək yavəri və onun ən yaxşı dayağısan. Baxmayaraq ki, bu yardım bir qədər təxirə düşdü və düşmənin məhv olması bir qədər uzandı"...

## İmamətin səkkizinci nuru

Səfər ayının sonuncu günü - imamətin 8-ci ulduzu İmam Rzanın (ə) şəhid olduğu tarixdir. Əziz İmamlarımızın (ə) həyatlarının, imamətin tarixinin öyrənilməsi - imamət daşıyıcılarına olan münasibət barədə dolğun təsəvvür yaradır. Bu müqəddəs əmanətə qarşı törədilən zülmlər, o cümlədən, haqqı bilə-bilə, insanların nahaqq və batilə dəstək verməsi - əfsus olsun ki, ümmətin imamətə nisbətdə tutduğu tənəzzül mövqeyinin ən bariz göstəricilərindəndir. İnsanlar bildikləri, dərk etdikləri, zəmanə İmamını (ə) tanıdıqları halda, öz imtahanlarını layiqincə verə bilmədilər, İmamlarını (ə) zalım müstəbidlərin, qəsbkar və diktatorların şərindən qoruya bilmədilər.

İmam Rza (ə) hicri-qəməri təqvimi ilə 148-ci ildə, zilqədə ayının 11-də Mədinə şəhərində dünyaya gəlmişdir. 55 il ömür sürən İmam (ə), bunun 21 ilini imamət nurunun daşıyıcısı olur. Müqəddəs ata-babalarının irsinə sahib olan İmam Rza (ə), öz mübarək imaməti dövründə vəziyyətə uyğun öz böyük missiyasını bəşəriyyətə çatdırmış, insanları İlahi Həzrət Peyğəmbərin (s) gətirdiyi İlahi təlimin həqiqətləri ilə tanış etmişdir.

İmam Rzanın (ə) atası 7-ci imam Həzrət Museyi-Kazım (ə), anası həzrət Nəcmiyyədir (s.ə). Azərbaycan insanına xüsusi lütf inayət olunub onunla bağlı ki, İmam Rzanın (ə) 2 bacısının - Həzrət Həkimənin (Bibi-Heybətdə) və Həzrət Rəhimənin (Nardaranda) müqəddəs hərəmləri bizim torpaqdadır. Və bu lütf müqabilində, imamət əmanətlərinin, bu müqəddəs imamzadə hərəmlərinin ziyarəti baxımından buradakı müsəlmanların məxsusi məsuliyyətləri də vardır.

Şəhadətindən öncəki gecə İmam Rza (ə) ceddi Həzrət Peyğəmbəri (s) yuxuda görür. Həzrət (s) əziz övladına buyurur: ISabah bizim yanımıza gəl...».

Məlum olduğu kimi, zalım Abbasi xəlifəsi Məmunun (lən) əmri ilə İmam Rzanı (ə) zəhərləyirlər. Həzrət (ə) zəhərləndikdən sonra evə qayıdırE Yaxınlarına tapşırıq verir: IEvin xalçalarını yığışdırın və heç kimi evə gəlməyə qoymayınE Mənim can verən zamanımdır. Mən də babam Hüseyn (ə) kimi torpaq üstündə can vermək istəyirəm...».

Axır anlarında da İmam (ə) Aşura mesajını göndərir onu sevənlərə. İmam Hüseyn (ə) məktəbini unutmamaq göndərişi, əmanətə sədaqət dəvəti var burada. Allah Təala nəsib etsin ki, biz bu göndərişləri qəbul edib, yaşatmaq səadətinə nail olaq!

Allahım, bizləri Quranı və Əhli-Beyti (ə) 2 qiymətli əmanət olaraq yaşadanlardan qərar ver! Amin!

YENİ MÜSAVAT
N 276 (6304) 11 dekabr 2015

# Bazarlarda ən baha qoz-fındıqdır

## Qiymətlər yenidən bahalaşır; iqtisadçı-ekspert: "Hazırda iki variant əsasında müzakirələr gedir"

**Rusiyanın Türkiyənin ərzaq, xüsusən də kənd təsərrüfatı məhsullarına embarqo qoyması bir çoxlarında Azərbaycanda bu adda məhsulların qiymətlərinə təsir edəcəyi fikrini yaratmışdı. Amma görünür ki, bunun tam əksi baş verdi və kənd təsərrüfatı məhsullarının qiyməti hər gün bahalaşmağa davam edir.**





Ekspertlərin bəziləri bazarlardakı bahalaşmanı manatın yenidən dəyərdən düşməsi ilə əlaqələndirir, kimi isə Yeni il qabağı bu tendensiyanın hər zaman yaşandığını deyir, kimisi isə qışın gəlməsinin qiymətlərə təsir etdiyini bildirir. Kimin nə deməsindən asılı olmayaraq real olan bu bahalaşmadan əhalinin əziyyət çəkməsidir. Əhali bu gedişlə Yeni ili yavan çörəklə qarşılayacaqlarını, bu qiymətlərlə bayram süfrəsi açmağın mümkünsüz olduğunu deyirlər. Satıcılar isə bahalaşmanın təbii olduğunu, nəzərəçarpacaq dərəcədə yüksək qiymətlər olmadığını deyirlər.

Bu fikirlərlə "vasmoy bazarı" kimi tanınan 8-ci kilometr bazarında rastlaşdıq. Paytaxt əhalisinin daha çox üz tutduğu və ən ucuz bazar sayılan 8-ci kilometr bazarında qiymətlər doğrudan da "əl yandırırdı". Belə ki, pomidorun qiyməti 1 manat 20 qəpik, zirə pomidoru 2 manat 50 qəpik, xiyar 20 manat 50 qəpik, kartof 80 qəpik, 1 manat, soğan 70-80 qəpik, göyərti 4 dənəsi 1 manat, limon 4 dənəsi bir manat, alma 1-2 manat arası, nar 2 manat, banan 2 manat 50 qəpik, xurma 80 qəpik, qoz ləpəsi 6-15 manat arası, fındıq ləpəsi 8-14 manat arası, badam 16 manat, şabalıd 5-10 manat, qaysı 4-8 manat arasında satılırdı. Apardığımız müşahidə bazarlarda ən bahalı məhsulun elə qoz-fındıq olduğunu deməyə əsas verir.

Maraqlıdır, qiymətlərin bu dərəcədə bahalaşmasına səbəb nədir? Deyilənlər kimi devalvasiya baş verəcəyi üçün qiymətlər artıb yoxsa başqa səbəblər var? Əhali belə vəziyyətdə nə etməlidir?

Suallarımızı cavablandıran **iqtisadçı-ekspert Rəşad Həsənov** devalvasiya ehtimalının yüksək olduğunu bildirdi: "Təəssüflər olsun devalvasiya ehtimalı yüksəkdir və hazırda baş verənlər bu prosesi daha da yaxınlaşdırır. 2016-cı ilin birinci rübündə böyük ehtimalla devalvasiya baş verəcək və düşünürəm ki, bu yumşaq devalvasiya olmayacaq. Hazırda iki variant əsasında müzakirələr gedir. Birincisi kəskin devalvasiya, ikincisi üzən məzənnə sisteminin tətbiq edilməsi. Üzən məzənnəyə keçid tətbiq edilərsə, bu zaman analoji olaraq kəskin devalvasiyaya bənzər manatın məzənnəsində azalmalar baş verəcək. Məsələ ondadır ki, Azərbaycan hazırda birinci devalvasiyanın nəticələrini həzm edə bilməyi və bununla bağlı çox ciddi problemlər yaşanmaqdadır. Xüsusilə də biz bunu bank sektorunda hiss edirik. Bununla bağlı növbəti devalvasiya təhlükəsi təbii ki, cəmiyyətdə haqlı olaraq müəyyən narahatlıqlar, gərginliklər yaradır. Bu xərcləmələrdə də özünü biruzə verir. Məhz bu səbəbdən qaynaqlanan xərcləmələrin azalması öz-özlüyündə digər iqtisadi faktorların zəifləməsinə gətirir çıxarır. Ümumiyyətlə götürəndə bu gün qiymətlərin artımı ilə bağlı baş verənlər rəqabət prinsiplərinin tələbi olaraq, bazarda tələbin artımına yönəlik qiymət artımından getmir. Bu qiymət artımı bir neçə səbəbdən baş verə bilir. Birincisi, ola bilər ki, məhsulun gətirildiyi ölkədə qiymət bahalaşıb. İkinisi, devalvasiya baş verəndən sonra devalvasiyaya uyğun olaraq xaricdən idxal olunan məhsulların qiymətində artımlar baş vermədi. Müəyyən inzibati tədbirlərlə bunun qarşısı alındı. Lakin hazırda bununla bağlı nəzarətin nisbətən zəifləməsi bu şirkətlərin qiymətləri artırmasına səbəb olub. Təbii ki, bu əslində normal haldır. Çünki məhsullar dollarla alınır. Bu məhsulların alışındakı maya dəyərində kəskin bahalaşma baş verir. Əgər onlara təzyiqlər uzun müddət davam edərdisə, bu hal şirkətlərin sıradan çıxmasına səbəb olardı".

**Ekspert yeganə çıxış yolunun liberal bazar mühitinin yaradılmasında gördüyünü dedi**: "Düşünürəm ki, hazırda yeganə çıxış yollarından biri liberal bazar mühitinin yaradılması, iqtisadi islahatların sürətləndirilməsidir. Xüsusilə gömrüklə bağlı ciddi qərarlar qəbul edilməli, ölkədə inhisarçılığa qarşı sərt tədbirlər görülməlidir. Kiçik və orta sahibkarlığın, biznesin formalaşmasında aktivlik gücləndirilməlidir. Bu tədbirlər monopoliyanın yığışdırılmasına, gömrükdə müəyyən qeyri leqal fəaliyyətlərin dayandırılmasına səbəb ola bilər. Eyni zamanda hazırda hər bir Azərbaycan vətəndaşının ödədiyi monopoliya inhisar faizinin onların ailə büdcəsində qalmasına gətirib çıxara bilər. bu isə bütövlükdə götürdükdə ailənin gəlirlərinin dəyərlənməsinə səbəb olur, imkanları artır. Yaşanan bu böhranlı dövrlərdə vətəndaşların əvvəlki dövrlərlə müqayisədə itkilərinin müəyyən bir hissəsini kompensasiya edir. Düşünürəm ki, gömrüklə bağlı ciddi islahatlar aparılıb, inhisarçılıq aradan qaldırlarsa, hazırda baş verən qiymət artımlarından da daha artıq faizlərlə ifadə olunan qiymət azalmaları baş verəcək. Bu isə əhalinin sosial rifahına, həmçinin ölkə iqtisadiyyatına da müsbət təsir göstərə bilər. İnsanlara bu gün üçün məsləhət xarakterli nəsə demək çətindir. Sonrakı dövrlərdə hansı iqtisadi kursun yeniləcəyini proqnozlaşdırmaqda çətindir. İslahatlar baş verəcəkmi və bunun fonunda həqiqətən liberallaşma olacaqmı demək çətindir".

**R.Həsənov vətəndaşlara pullarını müxtəlif valyutalarda saxlamağı və banklara mümkün qədər borclanmamağı tövsiyə etdi:** "İnsanlar ekonomik xərclər etməyə çalışmalı və vəsaitlərini şaxələndirilmiş istiqamətdə, fərqli valyutalarda saxlamalıdır. Yəni yığım məqsədilə saxlanılan vəsaitlərinin bir valyutadan asılılığını aradan qaldırmalıdır. Bundan sonrakı dövrlərdə mümkün qədər bankdan az borclanmaq lazımdır. Növbəti dövrləri dəqiq proqnozlaşdırmaq mümkün olmadığı üçün bankdan götürülən vəsaitlərin hansı gəlirlərin gətirəcəyini də əvvəlcədən demək çətindir. Mümkün qədər ehtiyatlı davranmaq lazımdır".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

Əlaqə nömrəsi (050) 264 49 99




## Yağmurun atası "Yeni Müsavat"a gəldi



**Ağır xəstəliyə düçar olmuş 3 yaşlı Yağmur Məmmədova haqqında Musavat.com olaraq yazmışdıq. Bu balaca qızcığaz serebral kortikal sulkustezə, yaxınlarının dili ilə desək, beyin quruması xəstəliyindən əziyyət çəkir. Uşağın atası Bəxtiyar Məmmədov dekabrın 10-da redaksiyamıza gələrək övladının durumu barədə ətraflı məlumat verdi. O, qızının vəziyyətinin gün keçdikcə ağırlaşdığını və artıq Türkiyəyə getmək üçün son hazırlıqlarla maraqlandığını bildirdi: "Sənədlərimiz tam hazırdı. "ASAN xidmət" sağ olsun ki, sənədlərimizin düzəlməsi üçün əlindən gələn köməyi etdi. Banka gedib yığılan pulları götürüb sinif yoldaşımın köməkliyi ilə Türkiyəyə yola düşəcəyik".**

Xatırladaq ki, balaca Yağmur üçün xeyirxah insanlar və cəmiyyət tərəfindən vəsaitin toplanması üçün kampaniya başlayıb. B.Məmmədov bu kampaniya sayəsində bank hesabına müəyyən qədər pul yığıldığını bildirdi. Yağmurun xəstəliyinin Türkiyə və Amerikada müalicəsinin olduğunu deyən B.Məmmədov hələlik müayinə üçün yardıma ehtiyacının olduğunu dedi. Qeyd edək ki, məsələni ilk gündən diqqətdə saxlayan "Yeni Müsavat" qəzeti də Yağmura dəstək məqsədilə müəyyən qədər vəsait ayırıb və onu B.Məmmədova şəxsən təqdim edib.

❑ **Günel MANAFLI**
**Fotolar Məğrur SALMANOV**

YENİ MÜSAVAT

Son səhifə

N 276 (6304) 11 dekabr 2015

# Beyin gücü ilə işləyən avtomobil

Çinli ixtiraçılar beyin gücü ilə işləyən avtomobil hazırlayıblar. Hər kəsin marağına səbəb olan ixtiralar sırasına çinli ixtiraçıların ərsəyə gətirdiyi yeni beyin gücü ilə çalışan avtomobillər daxil edilib. Dünya sürücüsüz avtomobillər ixtira etməyə çalışdığı bir vaxtda Çinin Tianşin şəhərindəki Nankai Unveristetinin ixtiraçıları tərəfindən hazırlanan bu avtomobili, beyindən ötürülən dalğalar vasitəsilə irəli-geri sürmək və qapılarını açıb-bağlamaq mümkün olacaq.

Əmirlərin ötürülməsi üçün sürücülərin üzərinə 16 fərqli sensorlu başlıq yerləşdiriləcək. Bu başlıqlar vasitəsi ilə sürücülər rahatlıqla beyindən ötürülən dalğalar vasitəsilə avtomobilləri hərəkətə gətirə biləcəklər.



Hazırda üzərində müəyyən texniki işlər aparılan avtomobillərin nə zaman insanların istifadəsinə veriləcəyi məlum deyil.



## Qələbəlik xəstə edir

Türkiyənin Ankrara Universitetində aparılan araşdırmalar nəticəsində məlum olub ki, qış aylarında insanların tez-tez xəstələnməsinin səbəbi soyuq hava deyil. Qrip və buna bənzər xəstəliklərin yayılmasının səbəbi qələbəlik yerlərdə vaxt keçirən insanların bir-birlərinə virus keçirməsidir.

Professor Recep Akdurdun sözlərinə görə, bir çoxları qrip olmağın səbəbini soyuqdəymə ilə əlaqələndirir: "Lakin əsas səbəb bu deyil. İnsanlar soyuq havada daxili orqanların üşüdüyünü düşünsələr də, bu, yanlışdır. Çünki soyuq hava heç vaxt daxili orqanlara təsir etmir. Evin xaricində insan bədəninin temperaturu 36,5 dərəcədən aşağı düşmür. Buna görə də soyuq havanın xəstəliklər üzərində böyük bir təsiri yoxdur. Mövsümə uyğun paltar geyinilərsə, soyuq havanın qrip kimi xəstəliklərə səbəb olma ehtimalı olduqca azdır".



## Angela Merkel "İlin adamı" seçildi

ABŞ-da dərc olunan "Time" jurnalı "İlin adamı"nı elan edib. Bu - Almaniya kansleri, 61 yaşlı Angela Merkeldir. Merkeldən başqa Rusiya prezidenti Vladimir Putin, İran prezidenti Həsən Ruhani, amerikalı milyarder və prezidentliyə namizəd Donald Trampın da adları namizədlər siyahısında olub. Həmçinin, qaradərili hüquq müdafiəçiləri qrupu olan "Black Lives Matter" komandası da "İlin adamları" adını almaq üçün nəzərdən keçirilib. Merkelin "İlin adamı" seçilməsinə əsas olaraq, onun beynəlxalq siyasətdəki səyləri və Almaniyanın qaçqınlar məsələsində tutduğu mövqe götürülüb.

# Qarabaşağın faydaları

İnsanın qida rasionunda mühüm yer tutan ərzaq məhsullarından biri də qarabaşaqdır. Azərbaycan mətbəxində ondan nisbətən az istifadə olunması yaqin ki, onun nə dərəcədə faydalı qida olması haqda yetərli bilginin olmaması ilə bağlıdır. Qarabaşağın faydaları isə çoxdur:

Qanazlığını aradan qaldırır, çünki tərkibində dəmir elementi var.

Qan şəkərini nizamlayır - şəkər xəstələri üçün keçərlidir.

Mədə-bağırsaq xəstəliklərinin müalicəsində faydalıdır.

Qanda xolesterolun miqdarını aşağı salır.

Yorğunluğu aradan qaldırır.

Qara ciyərin fəaliyyətini nizamlayır.

Ürək-damar xəstəliklərini müalicəsində xeyirlidir.

Yuxusuzluğu aradan qaldırır.

Böyrəklərin fəaliyyətini nizamlayır.

Müsbət enerjini artırır.

Astma xəstəliyinin qarşısını alır.

Revmatizmə xeyirlidir.

Yüksək qan təzyiqinin müalicəsində xeyirlidir.

Çəkini stabil saxlayır - nə arıqlamağa, nə də kökəlməyə qoymur.





## Qızı üçün uşaq almaq istədi

Amerikalı bir ana özü üçün bacı istəyən qızına internetdəki elan saytından uşaq almağa çalışıb. Qonşunun uşaq alış-satışı haqda polisə xəbər verməsindən sonra ana nəzarətə götürülüb. ABŞ-ın Atlanta ştatında yaşayan 47 yaşlı Elaine Villiams adlı qadın 14 yaşlı qızı bacı istədiyi üçün uşaq almaq istədiyini deyib. Baş vermiş hadisə haqqında araşdırma aparan polislər istənməyən uşaqların ailələri tərəfindən satıldığını və E.Villiamsın bunun üçün elan səhifəsindən uşaq almaq istədiyini açıqlayıblar.

Villiams uşağı almaq istədiyi qadından uşağın sağlam olması və doğuş haqqında arayış da istəyib. 47 yaşlı qadının öz qızını xoşbəxt etmək üçün uşaq almaq istəyinə düşməsini və bunun üçün elan verməsindən qonşusu duyuq düşüb.




**QOÇ** - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün ziyarətə getmək, dua oxumaq sizə rahatlıq gətirəcək.

**BUĞA** - Ulduzların düzümü riskdən uzaq olmağı tövsiyə edir. Əks təqdirdə cəhdləriniz boşa çıxacaq. Nahar ərəfəsində isə perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə qənaətcil olun.

**ƏKİZLƏR** - O qədər də uğurlu gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlərdə ehtiyatlı olun. Sizə aidiyyatı olmayan məsələlərə müdaxilə etməyin.

**XƏRÇƏNG** - Göy qübbəsi daha çox şəxsi büdcənizdə artım olacağını vurğulayır. Odur ki, bütün enerjinizi məhz deyilən istiqamətə yönəltməyə çalışın. Axşama yaxın aldanma ehtimalınız da var.

**ŞİR** - İş yoldaşlırınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, Yaradan xatirinə təmkin göstərib neytrallığınızı qorumağa çalışın.

**QIZ** - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**TƏRƏZİ** - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız. Səfərə çıxmaq olar.

**ƏQRƏB** - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. İşlə bağlı məsuliyyətinizi dərk edin.

**OXATAN** - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər qalan işlərinizin normal olacağını bildirir. Pul məsələlərində isə ehtiyatlı olun.

**OĞLAQ** - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. Müştərək fəaliyyətdən uzaq olun.

**SUTÖKƏN** - Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyət sahəsinə xərcləyəsiniz. Münasibət qurmaq, hansısa qlobal problemi həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu ərəfə deyil. Yalan vədlər verməyin.

**BALIQLAR** - Himayədarınız olan Yupiterin aktivləşməsi sizlərdə dini-mistik dəyərlər aşılayacaq. Bu səbəbdən də Tanrıya zidd olan addımlar atmamalısınız. Yaxşı olar ki, müqəddəs ocaqlara gedəsiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Sosial media depressiya yaradır



Mütəxəssislərin fikrincə, sosial mediada izləmə sayını artırmaq, məşhurlaşmaq və bəyənilmək istəyi insanlarda depressiya, fikir dağınıqlığı və depressiya yaradır. İnsanların sosial mediadan məlumatsız şəkildə istifadə etməsi onların özlərinə inamı itirməsinə və şizofrenik olmasına səbəb olur.

Alimlərin sözlərinə görə, facebook, twitter və instagram kimi sosial media şəbəkələrinə həddən çox zaman keçirmək gündəlik həyatdan geri qalmaq, məsuliyyətləri yerinə yetirməmək və günlük iş qabiliyyətinin azalması kimi nəticələrə gətirib çıxarır.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300